AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ


# UNECEkspert

ELMİ PUBLİSİSTİK JURNAL

#1 (11) 2022





# BÖYÜK QAYIDIŞIN İQTİSADİYYATI

# NİYƏ UNEC?

## İNKİŞAF ETMƏKDƏ OLAN AVROPA VƏ MƏRKƏZİ ASİYA UNİVERSİTETLƏRİNİN REYTİNQİNDƏ İQTİSAD YÖNÜMLÜ 4-CÜ UNİVERSİTET OLMAQLA REGİONUN ƏN YAXŞI 200 UNİVERSİTETİNDƏN BİRİ

Regionda iqtisad elmini dərindən öyrədən fundamental tədris mərkəzidir;

Tədris prosesi və kadr hazırlığı Amerika və Avropa təhsil sisteminə uyğundur;

İxtisaslar bakalavr, magistr və doktorantura təhsil pillələri üzrə

Azərbaycan, ingilis, rus və türk dillərində tədris edilir;

Auditoriyada mərkəz nöqtəsi tələbədir;

Tələbə universiteti iki və daha çox ixtisasla (dual major) bitirə bilər;

Tələbələrin müxtəlif mübadilə proqramlarında iştirak etmək imkanı vardır;

Universitetdə 9 fakültə və 31 kafedra fəaliyyət göstərir;

394 professor və dosent çalışır.



## NİYƏ TÜRK DÜNYASI İŞLƏTMƏ FAKÜLTƏSİ (TUDİFAK)?

Fakültədə təhsil tam türk dilində aparılır;

İxtisaslar: İşlətmə, Beynəlxalq münasibətlər,Turizm və Otelçilik;

Dərs proqramları İstanbul Universiteti nümunəsində hazırlanmışdır;

Fakültə dekanı Türkiyə Universitetlərinin müəllimləri arasından seçilir və fakültənin akademik heyəti təhsillərini Türkiyədə almış azərbaycanlı və türkiyəli müəllimlər təşkil etməkdədir;

Türk Dünyası İşlətmə fakültəsinin diplomunun Türkiyə (YÖK) “denkliyi” ekvalentliyi vardır.

# UNEC BUSINESS SCHOOL

## NİYƏ UNEC, BEYNƏLXALQ İQTİSADİYYAT MƏKTƏBİ (İSE)?

Tam ingilis dilində təhsil;

İxtisaslar: Dünya iqtisadiyyatı, Maliyyə, Mühasibat, Biznesin idarə edilməsi, İqtisadiyyat;

Fakültənin keçid balı – 601;

Fransa, Almaniya, Niderland, Türkiyə, Koreya, Litva universitetləri ilə mübadilə proqramları;

Qərb universitetlərinin məzunları olan müəllimlər;

London Universitetinin beynəlxalq dərəcə proqramında və Montpellier Universiteti ilə ikili diplom proqramında iştirak imkanı;

Harmon İSE tələbə yaradıcılıq klubu ilə birlikdə maraqlı tələbə həyatı.

## NİYƏ UNEC, MBA PROQRAMI?

MBA Proqramı sizi biznes mütəxəssisi kimi formalaşdırır;

Proqram üzrə bütün fənlərə aid mini kitabxana və praktik məsələlər (case study) toplusu təşkil olunmuşdur;

MBA Proqramında çalışan 100-dən artıq professor-müəllim heyətinin əksəriyyəti ABŞ, Kanada, İngiltərə, Almaniya, İtaliya, İsveç, Fransa, Türkiyə, Rusiya və digər ölkələrin ən qabaqcıl universitetlərini bitirmiş iqtisad üzrə fəlsəfə doktorları və magistrlər təşkil edir;

Fənlər dünyanın ən qabaqcıl ali təhsil ocaqlarının proqramlarına uyğun müəyyənləşdirilmişdir;

UNEC Biznes Məktəbi EFMD-nin Qlobal şəbəkəsinin üzvüdür;

UNEC-UBIS (University of Business and International Studies);

İkili Magistr Dərəcə Proqramına qoşulma imkanı

Almaniyanın Yena Fridrix Şiller Universiteti ilə mübadilə proqramı;

İxtisaslar: Beynəlxalq biznes, Biznesin idarə edilməsi, İnsan resurslarının idarə edilməsi, Maliyyə, Marketinq, Menecment, Mühasibat uçotu, Qiymətli kağızlar.

MÜNDƏRİCAT

UNECEkspert
ELMİ PUBLİSİSTİK JURNAL
#1 (11) 2022



08
## BÖYÜK QAYIDIŞ: UĞURU NECƏ TƏMİN ETMƏLİ?
Effektiv təşkil edilmiş repatriasiya fiziki təhlükəsizlik təminatı, hüquqi təminat, maddi təminat və birgə yaşayışın təmini kimi bir çox önəmli komponenti özündə birləşdirir.



12
## QARABAĞDA ƏNƏNƏVİ MƏDƏNİYYƏT VƏ SƏNƏTKARLIQ SAHƏLƏRİ ÜZRƏ BİZNESİN İNKİŞAF ETDİRİLMƏSİ
Əhalinin məşğulluğunun təmin olunması real iqtisadiyyatın aparıcı ənənəvi sahələrinin inkişafı ilə yanaşı, digər sahələrin də inkişaf etdirilməsini tələb edir.



15
## POST-KONFLİKT ƏRAZİLƏRƏ QAYIDIŞIN DÜNYA TƏCRÜBƏSİ: BAŞLICA CƏHƏTLƏR VƏ ÇIXARILACAQ DƏRSLƏR
Ağrılı və mürəkkəb məsələlərdən biri müharibə nəticəsində doğma yurdlarını itirmiş məcburi köçkünlərin həmin ərazilərə qayıdış problemidir



18
## QARABAĞDA SƏNAYENİN İNKİŞAFI PERSPEKTİVLƏRİNƏ BİR BAXIŞ
İşğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatın ən müxtəlif sahələrinin inkişafı üçün potensial imkanlar mövcuddur



21
## MƏCBURİ KÖÇKÜNLƏRİN PEŞƏ BACARIQLARININ ARTIRILMASI VƏ MƏŞĞULLUQLARININ TƏMİN EDİLMƏSİ MEXANİZMLƏRİ
2021-ci ilin 7 iyul tarixli Fərmanla Azərbaycanda iqtisadi rayonların yeni bölgüsünü təsdiqləmiş və bununla da ölkə iqtisadiyyatının idarə olunması ilə bağlı yeni mexanizmlərin formalaşdırılmasına başlanılmışdır.



24
## QARABAĞDA AQRAR SEKTORUN İNKİŞAFINA YENİ YANAŞMA
Əhalinin Qarabağda məskunlaşdırılması iqtisadiyyatın digər sahələrinin inkişafı ilə yanaşı, aqrar sektorun da inkişafına güclü təkan verəcək

# MÜNDƏRİCAT




27
## ZƏNGƏZUR KORİDORU VƏ QARABAĞIN İQTİSADİ DİRÇƏLİŞİNDƏKİ ROLU

Nəqliyyat yolunun əsas strateji tələb göstərəcəyi amil Azərbaycanın quru yolu ilə birbaşa Naxçıvan Muxtar Respublikasına, oradan da Türkiyəyə bağlana bilməsi olacaqdır



29
## MƏSKUNLAŞMANIN YENİ MODELİ PERSPEKTİVLƏR, PROBLEMLƏR

Səbəblər aradan qaldırıldıqdan sonra növbəti mərhələ insanların doğma yurdlarında məskunlaşmasına start verilməsi olacaq



34
## QARABAĞDA KONQRES TURİZMİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ

Bir bölgənin konqres məkanı olması üçün o bölgənin müasir zəmanənin tələblərinə uyğun gəlməsi labüddür



34
## QARABAĞDA KONQRES TURİZMİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ

Bir bölgənin konqres məkanı olması üçün o bölgənin müasir zəmanənin tələblərinə uyğun gəlməsi labüddür



38
## QARABAĞDA MƏDƏNİYYƏT TURİZMİNİN İNKİŞAF ETDİRİLMƏSİ YOLLARI

Qlobal problemlərin həll edilməsi prosesində və beynəlxalq inkişafın humanitar, innovativ və texnoloji potensialının formalaşmasında işğaldan azad olunmuş ərazilərin yaxından iştirak etməsi təmin edilməlidir



40
## QARABAĞDA "YAŞIL İQTİSADİYYAT" PERSPEKTİVLƏRİ

İnkişaf etməkdə olan ölkələrdə yaşıl iqtisadiyyatın inkişafında dövlət qurumları arasında sıx koordinasiya tələb olunur.



REDAKSİYA HEYƏTİ

**BAŞ REDAKTOR**
prof. Ədalət Muradov

**BAŞ REDAKTOR MÜAVİNİ**
i.f.d., Elşən Bağırzadə

**REDAKTOR**
i.f.d., Cəbrayıl Vəliyev

**KOORDİNATOR**
Zaur Əziz

**KORREKTOR**
Nuriyyə Qarayevə



**REDAKSİYANIN ÜNVANI**
AZ 1001, Bakı, Azərbaycan, İstiqlaliyyət küçəsi 6.

Tel.: 012 437 10 86
www.unec.edu.az
expert@unec.edu.az

**MƏTBƏƏ**: ŞƏRQ-QƏRB

**TİRAJ**: 1000

**JURNAL İLDƏ İKİ DƏFƏ NƏŞR OLUNUR**

**ƏDLİYYƏ NAZİRLİYİ QEYDİYYAT NÖMRƏSİ** #4026

# MÜNDƏRİCAT



43
QARABAĞIN MÜQAYİSƏLİ RƏQABƏT ÜSTÜNLÜYÜ HANSI SAHƏLƏRDƏ OLA BİLƏR?
Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları özünün təbii iqlim və relyef şərtləri, münbit torpaqları və zəngin təbii ehtiyatları ilə ölkənin digər bölgələrindən fərqlənir.



46
QARABAĞDA ƏNƏNƏVİ MƏDƏNİYYƏT VƏ ŞƏNƏTKARLIQ SAHƏLƏRİ ÜZRƏ BİZNESİN İNKİŞAF ETDİRİLMƏSİ
İşğaldan sonrakı mərhələdə dövlətimizin qarşısında duran əsas məqsəd bu torpaqların iqtisadiyyatını inkişaf etdirmək, bölgənin əvvəlki zəngin tarixini geri qaytarmaqdır



49
QARABAĞ İQTİSADİ RAYONUNDA HALAL MƏHSULLAR SEKTORUNU NECƏ İNKİŞAF ETDİRMƏK OLAR?
Qlobal İslam İqtisadiyyatı İslam maliyyəsini çıxmaq şərti ilə qida, əczaçılıq, kosmetika, moda, səyahət, media və turizm sektorlarını əhatə edir



52
QARABAĞDA İNFRASTRUKTURUN YENİDƏN QURULMASINA MÜASIR YANAŞMA: AĞILLI İNFRASTRUKTUR
Azərbaycanda maraqlı tərəflər çətin dilemmalarla üzləşirlər: iqtisadi artımın əsas qüvvəsi kimi ağıllı şəhər konsepsiyasını təbliğ etmək və irəli sürmək, yoxsa əhalinin artımı ilə əlaqədar resurslardan həddindən artıq asılılıqla bağlı problemlərə diqqət yetirmək



55
QARABAĞIN DİRÇƏLİŞİNDƏ DARK (HÜZÜN ) TURİZMİNDƏN İSTİFADƏ İMKANLARI
Bakı, Şərgi Zəngəzur, Gəncə, Qarabağ, Mingəçevir, Quba kimi bölgələrdə hüzün turizm məkanları daha çoxdur



57
QARABAĞDA ALİ TƏHSİL KLASTERİNİ NECƏ FORMALAŞDIRMALI?
Qarabağda yaradılan universitet modeli üçüncu nəsil universitetlərin tələbləri əsasında formalaşacaqdır

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

UNEC



ƏLAQƏ
+99412 497 71 35

# UNEC KARYERA MƏRKƏZİ

"İş həyatına hazırlıq və şəxsi inkişafa dəstək

## XİDMƏTLƏRİMİZ

İş həyatına hazırlıq

Bacarıqlrın təkmilləşdirilməsi

İş dünyası ilə əlaqələrin gücləndirilməsi

KARYERA@UNEC.EDU.AZ WWW.UNEC.EDU.AZ AZ 1000, BAKI, AZƏRBAYCAN, İSTİQLALİYYƏT KÜÇƏSİ 6

**i.f.d., dos., Elşən Bağırzadə**
UNEC, Baş redaktorun müavini



# BÖYÜK QAYIDIŞ: UĞURU NECƏ TƏMİN ETMƏLİ?

Azərbaycan müttəfiqlərinin də dəstəyi ilə 44 günlük Vətən müharibəsi nəticəsində əsas milli problemlərdən biri olan Qarabağı düşmən işğalından azad etməyi bacarmışdır. Ancaq bu milli uğur, yeni bir milli vəzifəni – məcburi köçkünlərin Qarabağa Böyük Qayıdışını da uğurla reallaşdırılmasını şərtləndirmişdir. Dünya təcrübəsi göstərir ki, konfliktdən sonrakı dövrdə məcburi köçkünlərin böyük əksəriyyətinin əsas seçimi könüllü şəkildə, təhlükəsiz və insan ləyaqətinə uyğun şəraitdə əvvəlki yaşayış yerlərinə qayıtmaq və ya repatriasiya etməkdir. Repatriant adlanan bu qayıdanlar üçün qeyd edilən proses məcburi köçkün statusunun aradan qalxması və reinteqrasiya prosesi vasitəsilə konfliktə qədərki ərazilərdə yenidən dayanıqlı məskunlaşmaya və iqtisadi fəaliyyətlərə qovuşma deməkdir. Bu baxımdan təcrübə göstərir ki, effektiv təşkil edilmiş repatriasiya fiziki təhlükəsizlik təminatı, hüquqi təminat, maddi təminat və birgə yaşayışın təmini kimi bir çox önəmli komponenti özündə birləşdirir.

*Effektiv təşkil edilmiş repatriasiya fiziki təhlükəsizlik təminatı, hüquqi təminat, maddi təminat və birgə yaşayışın təmini kimi bir çox önəmli komponenti özündə birləşdirir*

## Əsas prinsiplər

Uğurlu repatriasiya bir sıra önəmli prinsiplərə əsaslanır. Birincisi, şübhəsiz ki, repatriasiya prosesi üçün fiziki təhlükəsizlik prioritet xarakter daşıyır. Fiziki təhlükəsizlik təmin edilmədiyi və ya yetərli səviyyədə təmin edilmədiyi təqdirdə, repatriasiya planlarının uğurla həyata keçirilməsi də çətinləşir. İkincisi, repatriasiya prosesi insan ləyaqətinin qorunması ilə həyata keçirilir. Prosesin təşkilində, xüsusilə də ictimaiyyətə təqdim edilən görüntülərdə bu prinsipin gözlənilməsi böyük əhəmiyyət daşıyır. Üçüncüsü, repatriasiyaya bir hadisə kimi deyil, bir proses kimi yanaşılması çox əhəmiyyətlidir. Xüsusilə də, Qarabağ kimi həm yenidənqurmanın, həm də yenidən məskunlaşmanın həyata keçiriləcəyi bir regionda bu prinsipin gözlənilməsinə daha çox ehtiyac vardır.

Dördüncüsü, repatriasiya prosesinə köhnənin eynilə təkrarlanması kimi baxılmır, yenidənqurma və yenidən məskunlaşmada daha effektiv yanaşmalara üstünlük verilir. Beşincisi, repatriasiya bölgələrinin iqtisadi və məskunlaşma strukturunun repatriantların



bilik, bacarıq və sosial strukturuna adekvatlığının mümkün ölçüdə təmininə çalışılır. Xüsusilə, Qarabağ kimi infrastrukturu, iqtisadiyyatı demək olar ki, tamamilə dağıdılmış və əhalisinin uzun müddət məcburi köçkün həyatı yaşadığı bölgə üçün bu prinsipin gözlənilməsi çox vacibdir. Bütövlükdə, effektiv bir repatriasiya üçün sistemli və kompleks xarakterli bir dövlət proqramının hazırlanması daha məqsədəuyğundur. Belə proqramlar isə, adətən repatriasiyaya hazırlıq, repatriasiyanın həyata keçirilməsi və post-repatriasiya dövrü üçün ilkin reinteqrasiya və reabilitasiyanın aparılması tədbirlərini özündə birləşdirir.

## Yenidənqurma və yenidən məskunlaşma forması

Böyük Qayıdışın uğuru, ilk növbədə repatriasiyanın kütləviliyindən asılı olacaqdır. Bunun isə dövlət tərəfindən yaşayış evləri/mənzillərlə təmin olunmadan və məşğulluq imkanlarının yaradılmasından böyük ölçüdə asılı olacağı görünür. Bu, dünyada oxşar repatriasiya təcrübələrinin demək olar ki, hamısında müşahidə edilən bir vəziyyətdir və Qarabağa repatriasiya prosesinin də bundan fərqli olacağı ehtimalı çox azdır.

Məcburi köçkünlərin mövcud sayı nəzərə alındıqda, Qarabağda ən azı 100 min yeni yaşayış vahidinin inşasına ehtiyac olacağı ortaya çıxır. Reallıq ondan ibarətdir ki, işğala qədər əsasən aqrar cəmiyyətin məskunlaşma modelinin üstünlük təşkil etdiyi Qarabağı müasir informasiya cəmiyyəti, Dördüncü Sənaye İnqilabı dövründə əvvəlki kimi bərpa etmək doğru olmaz. Yeni məskunlaşma modelində iqtisadi fəaliyyətlər üçün daha geniş ərazilərin qalmasına imkan verən, miqyas effektinə, aqlomerasiya effektinə şərait yaradan, dağınıq deyil, daha kompakt və modern yaşayış məntəqələrinin salınması prioritet olmalıdır.

Şübhəsiz ki, yaşayış məntəqələrinin salınmasında tətbiq olunacaq bu yeni yanaşma bir çox hallarda məcburi köçkünlərin məskunlaşma forması ilə

**QARABAĞIN YAŞIL İQTİSADİYYAT VƏ YAŞIL ENERJİ BÖLGƏSİ KİMİ YENİDƏN QURULMASI BÖLGƏDƏ DAYANIQLI MƏSKUNLAŞMA VƏ DAYANIQLI İQTİSADİ FƏALİYYƏTLƏR BAXIMINDAN BÖYÜK ƏHƏMİYYƏT DAŞIYIR**

**100**

**MİN YENİ YAŞAYIŞ VAHİDİNİN İNŞASINA EHTİYAC OLACAQ**

bağlı arzu və istəklərini tam şəkildə reallaşdırmağa imkan verməyəcəkdir. Fikrimizcə, bu istiqamətdə aparılacaq düzgün, elmi baxımdan əsaslandırılmış maarifləndirmə işləri mövcud uyğunsuzluğun məcburi köçkünlər tərəfindən də anlayışla qarşılanmasına gətirib çıxara bilər.

Yenidənqurma işlərində infrastruktur da müasir tipli yaşayış fondlarına uyğun olaraq, ən yüksək standartlara cavab verməli və smart texnologiyaların geniş istifadəsinə əsaslanmalıdır. Bu yanaşma, elektrik enerjisi təminatı, su təchizatı və kanalizasiya sistemləri, qaz təchizatı, nəqliyyat və kommunikasiya, sosial infrastruktur (təhsil, səhiyyə, mədəniyyət, idman), idarəetmə infrastrukturu kimi bütün infrastruktur sahələrinə münasibətdə əsas götürülməlidir. Xüsusilə, Qarabağın yaşıl iqtisadiyyat və yaşıl enerji bölgəsi kimi yenidən qurulması bölgədə dayanıqlı məskunlaşma və dayanıqlı iqtisadi fəaliyyətlər baxımından böyük əhəmiyyət daşıyır.

Qarabağda aparılacaq irimiqyaslı bərpa və yenidənqurma işlərinə, potensial repatriantların cəlb edilməsi bir neçə cəhətdən, o cümlədən də daimi məskunlaşmaya hazırlıq baxımından əhəmiyyətlidir. Onu da nəzərə almaq lazımdır ki, məcburi köçkünlər arasında hazırda xeyli sayda işsiz və stabil gəliri olmayan insanlar vardır. Ona görə də Qarabağdakı yenidənqurma işlərində əsas etibarilə əmək qabiliyyətli məcburi köçkünlərə üstünlük verilməsi daha məqsədəuyğundur.

Yenidənqurma işləri tamamlandıqdan sonra həmin işçilərin əksəriyyətinin bölgədə yaşayışa davam edəcəyi ehtimalı yüksəkdir.

Fikrimizcə, Qarabağın bərpası və yenidən qurulmasının ən vacib elementlərindən biri də bölgədə güclü yerli özünüidarəetmə - bələdiyyə institutlarının formalaşdırılması olmalıdır. Gələcəkdə bölgədə erməni əhalisi ilə də birgə yaşayışı nəzərə aldıqda, demokratik, şəffaf və effektiv yerli özünüidarəetmə institutlarının qurulmasının nə qədər əhəmiyyətli olduğu ortaya çıxır. Bu, həm də bölgənin iqtisadi inkişafına da mühüm töhfə verə biləcək institutlar olacaqdır.





## Maarifləndirmə kampaniyaları

***Repatriasiya ərazilərinin ilkin bərpasından sonra məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərə qayıdışında kütləviliyi təmin etmək üçün müvafiq şəkildə hazırlanmış informasiyaları özündə birləşdirən uğurlu maarifləndirmə kampaniyasının keçirilməsinə ehtiyac vardır.***

Maarifləndirmə kampaniyasında potensial repatriantlara repatriasiya bölgəsi olan Qarabağda mövcud vəziyyət, köç prosesinin təşkili, köç prosesindən sonra bölgənin inkişaf perspektivi haqqında detallı informasiyalar təqdim edilməsi məqsədəuyğun olacaqdır.

Maarifləndirmə kampaniyasında informasiyaların çatdırılma forması da önəmlidir. Potensial repatriantlar çox vaxt qərəzli mesajlar və şayiələr ilə çaş-baş qalırlar ki, bu da onların geri qayıtma imkanlarını və çətinliklərini obyektiv şəkildə qiymətləndirmlərinə mane olur. Onlara qərəzsiz və şəffaf məlumat lazımdır. İcmanın bütün üzvlərinə qayıdışla bağlı əsaslandırılmış qərarlar qəbul etmək imkanı vermək üçün məlumat birbaşa yaşlı məcburi köçkünlərə, qadınlara, uşaqlara və yeniyetmələrə - ənənəvi olduğu kimi yalnız kişi liderlərə deyil - çatdırılmalıdır. QHT-lər, qadınlar və lokal birliklər hədəf qruplara çatmağa daha çox kömək edə bilər. Məcburi köçkünlərin ilkin bərpası tamamlanmış, yeni tikililərin olduğu bərpa bölgələrinə səfərləri və artıq geri qayıtmış olanların monitorinqi ilə məşğul olan QHT-lərdən məlumat almaları çox vacibdir.



**KÖÇ PROSESİNİN ÖZÜNÜN ÖLKƏNİN ADINA YARAŞAN ŞƏKİLDƏ, TƏHLÜKƏSİZ VƏ İNSAN LƏYAQƏTİNİ QORUYARAQ HƏYATA KEÇİRİLMƏSİ OLDUQCA ƏHƏMİYYƏTLİDİR**

## Köç prosesi

Repatriasiya ilə bağlı kütləvi maarifləndirmə kampaniyaları başladıqdan sonra paralel olaraq repatriasiya etmək qərarı verənlərin müvafiq qeydiyyat mexanizminin yaradılması zəruridir. Bura repatriantlardan tələb edilən sənədlərin siyahısının müəyyən edilməsi və sənədləşmə mexanizminin yaradılması aiddir. Bu prosesin yekunu kimi repatriasiyanın yekun siyahılarının (siyahılar kim? nə vaxt? hara? və necə? repatriasiya olunacaq suallarına cavab verməlidir) tərtib edilməsi nəzərdə tutulur.

Təcrübə göstərir ki, potensial repatriantların əksəriyyəti köç prosesinin dövlət tərəfindən mütəşəkkil qaydada həyata keçirilməsinin tərəfdarı olurlar. Əslində BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı (UNHCR) da bu yanaşmanı tövsiyə edir. Fikrimizcə, mütərəqqi beynəlxalq təcrübə və Azərbaycanın böyük bir humanitar fəlakəti aradan qaldırdığını bütün dünyaya açıq və şəffaf şəkildə təqdim etmək baxımından köç prosesinin dövlət tərəfindən nizamlı qaydada təşkili daha məqsədəuyğundur. Müxtəlif obyektiv səbəblərdən köçü özləri təşkil etmək istəyən ailələr ola bilər, bu zaman da həmin məcburi köçkün ailələrinə dövlət tərəfindən sabit maliyyə yardımının göstərilməsi arzu olunandır.

Köç prosesinin özünün ölkənin adına yaraşan şəkildə, təhlükəsiz və insan ləyaqətini qoruyaraq həyata keçirilməsi olduqca əhəmiyyətlidir. Bu baxımdan həmin prosesin BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının  və digər müvafiq beynəlxalq təşkilatların nəzarəti altında təşkil edilməsinə əhəmiyyət vermək lazımdır. Digər bir məqam, köç prosesinin yerli və beynəlxalq KİV tərəfindən geniş şəkildə işıqlandırmasını təmin etməkdir. Bununla yanaşı, prosesi müşahidə etmək üçün insan hüquqları üzrə ixtisaslaşmış beynəlxalq QHT-lərin dəvət edilməsi də məqsədəuyğun olardı. Şübhəsiz ki, köç prosesinin təhlükəsizliyi Azərbaycanın güc strukturları tərəfindən çox böyük dəqiqliklə təmin edilməlidir.

Repatriantların repatriasiya ərazilərində ilkin yaşayış vasitələrini təmin etmələri üçün dövlət tərəfindən Repatriasiya Yardım Paketinin (RYP) tətbiq edilməsi məqsədəuyğun olardı. Dünya təcrübəsi göstərir ki, uğurlu repatriasiya proqramlarının ən vacib elementlərindən biri də məhz repatriasiya yardım paketidir. Belə ki, köç prosesi başlanana qədər hər bir repatriant ailəyə dövlət tərəfindən müvafiq RYP üzrə ödəmələrin tam həcmdə ödənilməsi daha məqsədəuyğundur. Fikrimizcə, hazırda məcburi köçkünlərin hər birinin müəyyən miqdarda aylıq müavinət aldığı nəzərə alındıqda bu ödəmələrin həyata keçirilmə mexanizminin də artıq mövcud olduğunu qeyd etmək olar. Belə ki, dövlət köç

prosesinin baş verdiyi ay üzrə müavinətlərlə yanaşı, bu repatriasiya yardım paketi üzrə ödəniş məbləğlərini də məcburi köçkünlərin fərdi hesablarına nağdsız qaydada ödənilməsini həyata keçirə bilər. Bu məqsədlə, Qarabağ Dirçəliş Fondu kimi fondlardan da vəsaitlər cəlb edilə bilər. Bu yardım paketinin hansı məbləğdə olması isə xüsusi ekspert qiymətləndirməsi ilə müəyyən edilə bilər. Repatriasiya prosesi geniş əhatəli, mürəkkəb və məsuliyyətli məsələ olduğu üçün proses iştirakçılarının simulyasiya təlimlərinə cəlb edilməsi də zəruridir. Repatriant qrupları komplektləşdirildikcə köç edənlər arasında izahat işlərinin aparılmasına başlanılmalıdır. İzahat işləri çərçivəsində köç prosesinin qaydaları və qrafiki barəsində bərpa edilən ərazilərdə təhlükəsizlik qaydaları haqqında repatriantlara müfəssəl məlumat verilməlidir. Bundan başqa, repatriantlara əgər olacaqsa, dövlət yardımının nəzərdə tutulan formaları, o cümlədən onlara verilən ünvanlı güzəştlər də elan olunmalıdır.

## Özünütəminat fəaliyyətləri və sahibkarlıq

Məcburi köçkünlərin özünütəminat fəaliyyətlərinin konsolidasiya edilməsinə də böyük önəm verilməlidir. Özünütəminat fəaliyyətləri fərdin, ev təsərrüfatının və icmanın kənar yardıma o qədər də ehtiyac duymadan öz resursları və bacarıqlarına dayanaraq özünün zəruri ehtiyaclarını ödəmə qabiliyyətidir. Məcburi köçkünlərin sahib olduğu bu qabiliyyət repatriasiyadan sonrakı ilk dövrlərdə onların iqtisadi təminatında mühüm rol oynayacaqdır.
Məcburi köçkünlərin özünütəminat fəaliyyətlərinin konsolidasiyası baxımından onlara yeni bacarıqlar qazandıracaq və mövcud bacarıqlarını inkişaf etdirəcək peşə təlimi proqramlarının böyük əhəmiyyəti olacağı qənaətindəyik. Xüsusilə nəzərə alsaq ki, Qarabağın bərpasında smart texnologiyalardan geniş istifadə nəzərdə tutulur, onda bu kimi təlim proqramlarının nə qədər əhəmiyyətli olduğu bir daha aydın olur. Bunun üçün Təhsil Nazirliyi, İqtisadiyyat Nazirliyi və digər müvafiq qurumların birgə həyata keçirəcəyi peşə təlimi proqramlarının hazırlanmasına ehtiyac vardır. Bu proqramlar hazırlanarkən həm repatriantların özünütəminat fəaliyyətlərindən, həm də Qarabağın bərpası və inkişafından irəli gələn tələblər nəzərə alınmalıdır.
Fikrimizcə, repatriantların özünütəminat fəaliyyətləri həm dövlət, həm də bütövlükdə cəmiyyət tərəfindən dəstəklənməlidir. Dövlətin dəstəyi əsasən ABAD, özünüməşğulluq, mikrokredit, aqrar yardım və peşə təlimi proqramlarının tətbiqi; torpaq islahatına qədər repatriantların müvəqqəti istifadəsinə torpaq, heyvan və.s verilməsi və beynəlxalq təşkilatlardan



**MƏCBURİ KÖÇKÜNLƏRİN ÖZÜNÜTƏMİNAT FƏALİYYƏTLƏRİNİN KONSOLİDASİYASI BAXIMINDAN ONLARA YENİ BACARIQLAR QAZANDIRACAQ VƏ MÖVCUD BACARIQLARINI İNKİŞAF ETDİRƏCƏK PEŞƏ TƏLİMİ PROQRAMLARININ BÖYÜK ƏHƏMİYYƏTİ OLACAQ**

qrantlar və maliyyə yardımları cəlb edilməsi, eləcə də onların texniki dəstək proqramlarından istifadə edilməsi istiqamətlərində ola bilər. Dövlətlə yanaşı, regiona investisiya qoyan sahibkarlar və ölkənin digər regionlarında yaşayanlar da satınalmaları ilə repatriantların özünütəminat fəaliyyətlərinə dəstək göstərə bilərlər.
Qarabağda ilkin reinteqrasiya və reabilitasiyanın uğurlu olması üçün bölgədə sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi zəruri şərtlərdən biridir. Müşahidələr göstərir ki, ölkə sahibkarlarının əhəmiyyətli hissəsi Qarabağın iqtisadi dirçəlişində bu və ya digər formada iştirak etməkdə maraqlıdırlar. Ancaq onu da nəzərə almaq lazımdır ki, bu maraqların reallaşdırılması bölgədə həyat təminatı sistemlərinin və infrastrukturun bərpasından, dövlətin bu bölgə üçün təqdim edəcəyi güzəşt və dəstək paketlərindən əhəmiyyətli dərəcədə asılıdır.

## Böyük Qayıdışın maliyyələşdirilməsi

Böyük Qayıdış, şübhəsiz ki, bir çox istiqamətlər üzrə böyük həcmli xərclər tələb edir. Tipik xərc istiqamətlərinə repatriasiya potensialının öyrənilməsi, təhlükəsizliyin təmini, yaşayış fondunun bərpası, yaşayış üçün zəruri infrastrukturun bərpası, maarifləndirmə kampaniyalarının keçirilməsi, yekun repatriasiya siyahılarının hazırlanması, repatriantların və onların mallarının daşınması, repatriasiya yardım paketi və repatriasiyadan sonra ilkin reinteqrasiya və reabilitasiyanı göstərmək mümkündür.
Bu xərclərin maliyyələşdirilməsinə gəldikdə isə dünya təcrübəsində çox çeşidli mənbələrdən istifadə olunduğunu görürük və fikrimizcə, Azərbaycanda da bu mənbələrdən müəyyən ölçülərdə istifadə edilə bilər. Şübhəsiz ki, dövlət büdcəsi, özəl sektor investisiyaları, ianələr və repatriantların vəsaitləri bu istiqamətdə ilkin mənbələr kimi qarşıya çıxır. Ancaq beynəlxalq donorların yardım və güzəştli kreditləri də bu baxımdan çox önəmli mənbələr kimi qəbul edilməlidir. Buraya BMT qurumları (UNDP, UNICEF, ILO, FAO, WHO və.s), beynəlxalq və regional maliyyə institutları (IBRD, ADB, EBRD, IsDB və.s), ikitərəfli donorlar (ABŞ, İngiltərə, Almaniya, Yaponiya, Türkiyə və.s), çoxtərəfli donorlar (Avropa İttifaqı kimi) və beynəlxalq qeyri-hökumət təşkilatları aid edilə bilər.



**i.f.d., Cəbrayıl Vəliyev**
UNEC, Redaktor



# QARABAĞDA ƏNƏNƏVİ MƏDƏNİYYƏT VƏ SƏNƏTKARLIQ SAHƏLƏRİ ÜZRƏ **BİZNESİN İNKİŞAF ETDİRİLMƏSİ**

44 günlük II Qarabağ müharibəsi, rəhbər, xalq və ordumuzun gücü və həmrəyliyi ilə, dövlətimizin qələbəsi ilə nəticələnmişdir. Qələbədən sonra işğaldan azad edilmiş ərazilərimizə Böyük Qayıdış planlaşdırılır ki, bu da həmin ərazilərin öncə minadan təmizlənməsini, yaşayış üçün lazım olan infrastrukturun qurulmasını və məskunlaşacaq əhalinin məşğulluğunun təmin edilməsi məqsədilə iş yerlərinin yaradılmasını zəruri edir. Bütün bu proseslər bu ildən başlayaraq, yaxın illərdə ölkənin siyasi, iqtisadi və sosial həyatında ən vacib prioritet istiqamətlərdən biri kimi qəbul edilməkdədir. Əhalinin məşğulluğunun təmin olunması real iqtisadiyyatın aparıcı ənənəvi sahələrinin inkişafı ilə yanaşı, digər sahələrin də inkişaf etdirilməsini tələb edir.

*Əhalinin məşğulluğunun təmin olunması real iqtisadiyyatın aparıcı ənənəvi sahələrinin inkişafı ilə yanaşı, digər sahələrin də inkişaf etdirilməsini tələb edir*

Ənənəvi mədəniyyət və sənətkarlıq sahələri ümumi olaraq, "Cultural and Creative Industries" (CCI) - "Mədəni və Yaradıcı Sənayelər" kimi adlandırılır. Bu yanaşma Birləşmiş Millətlərin UNIDO (Unitied Nations Industrial Development Organization) təşkilatının müxtəlif zamanlarda müxtəlif ölkələr üçün bu sahədə həyata keçirdikləri proyektlərdə də öz əksini tapmışdır. Yaradıcı sənayelər mənbəyini fərdi yaradıcılıq, bacarıq və istedaddan götürərək zənginlik və iş yerlərinin yaradılması potensialına malik olan sənayelər kimi müəyyən edilmişdir. Mədəni sənayelər isə maddi və ya qeyri-maddi bədii və yaradıcı məhsullar istehsal edən və mədəni sərvətlərin istismarı və biliyə əsaslanan mal və xidmətlərin istehsalı (həm ənənəvi, həm də müasir) vasitəsilə gəlir əldə etmək potensialına



malik olan sənayelər kimi müəyyən edilir. Yaradıcılıq, bədii obyekt və ya forma, problemin həlli və ya həll üsulu kimi, yeni bir şey meydana gətirmək qabiliyyəti kimi qəbul edilməkdədir. Sənət əsərinin yaradılması mühitdə əvvəllər mövcud olan elementlərin yeni birləşməsinin meydana gəlməsidir. Bu konsepsiya sənətkarlıq istehsalına tətbiq olunarsa, irs, ənənə kimi əvvəllər mövcud olan elementlərə yeni baxışın sərgilənməsini əhatə edir. Nəzərinizə çatdırmaq istərdim ki, yaradıcı və mədəni sənayelərin inkişaf etdirilməsi inkişaf etməkdə olan ölkələrdə sənayelərin inkişafı üçün əsas iqtisadi fəaliyyət sahələrindən biri kimi qəbul edilsə də, inkişaf etmiş ölkələrdə də bu sahələrə geniş diqqət ayrılır və müxtəlif siyasətlər həyata keçirilir. Doğrudur, texnologiyanın sürətli inkişafı ilə yaradıcı sənaye sahələrinə çox sayda yeni istiqamətlər də əlavə olunmuşdur. Mədəni və yaradıcı sənayelər həm inkişaf etməkdə olan ölkələrdə, həm də inkişaf etmiş ölkələrdə davamlı böyüyən sahələrdir.
Azərbaycanda tarixən sənət istehsalı geniş yayılmış, şəhər və kənd əhalisinin həm günlük qazanc mənbəyi rolunu oynamış, həm də ticarətin inkişafına yol açmışdır. XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycanda 50-dən artıq sənət növü mövcud olmuşdur. Həmin dövrdə kustar sənət və xırda əmtəə istehsalı xarakteri daşıyan bir sıra spesifik sənət növləri (xalçaçılıq, şərbaflıq, şalbaflıq, bəzzazlıq, misgərlik, silahsazlıq, dəmirçilik, daşyonma və oyma sənəti, xarratlıq, dülgərlik, pinəçilik və s.) labüd surətdə kənd yerlərində də geniş yayılmışdı. Ənənəvi mədəniyyət və sənətkarlıq sahələrinin tərkibində günümüzdə davam etdirilən sənətkarlıq növləri ilə bərabər, tarixən mövcud olmuş ancaq demək olar ki, müəyyən səbəblərdən unudulmuş və ya məşğul olanların sayı azalmış peşələr də vardır ki, bu sahələrin inkişaf etdirilməsi ilə həmin peşələrə yenidən müraciət ediləcək və unudulmanın qarşısı alınacaqdır.
Mədəniyyətimizin, musiqimizin beşiyi sayılan Azərbaycanın qədim bölgələrindən biri Qarabağ bölgəsi özünün tarixi, maddi-mədəniyyət abidələri, zəngin ədəbiyyatı, incəsənəti və musiqi mədəniyyəti ilə tanınır və mədəniyyət mərkəzi kimi qəbul edilir. Tarixin bütün mərhələlərində Qarabağda ənənəvi mədəniyyət və sənətkarlıq sahələri geniş yayılmışdır. Daşişləmə, dulusçuluq, metalişləmə, toxuculuq, təsviri sənət, zərgərlik, xalçaçılıq, müxtəlif musiqi alətlərinin hazırlanması və digər sənət növləri özünəməxsus yer tutmuşdur. Ənənəvi mədəniyyət və sənətkarlıq sahələrindən ibarət olan yaradıcı sənayelərin inkişaf etdirilməsi xüsusilə özünüməşğulluq siyasəti çərçivəsində kiçik biznes subyektlərinin yaradılması və məşğulluğun təmin olunmasında xüsusi əhəmiyyət kəsb edir. Rəqabətin getdikcə daha güclü olduğu bir dövrdə, “Creative Industries” (CI) yeni məşğulluq mənbəyi kimi Qarabağda, xüsusilə kəndlərin və kənd yerlərinin dirçəldilməsinə mühüm töhfənin verilə biləcəyi bir mühit təmin edə bilər. Məhz bu baxımdan Qarabağda ənənəvi mədəniyyət və sənətkarlıq sahələrinə digər sahələr kimi əhəmiyyət verilməsi vacibdir. Bu sahələr üzrə yeni biznes subyektlərinin qurulması məskunlaşacaq əhalinin məşğulluqla təmin olunması ilə bərabər yeni iqtisadi rayonlarımızın iqtisadiyyatında iştirakçılığın gücləndirilməsinə yol açacaqdır.
Qarabağda ənənəvi mədəniyyət və sənətkarlıq sahələrinin inkişaf etdirilməsi kiçik və orta biznesin inkişaf etdirilməsi və yayılmasına dəstəklə birlikdə sosial iqtisadi inkişafda əhali qruplarının iştirakının və inklüzivliyin təmin olunması kimi siyasətlərlə də üst-üstə düşməkdədir. Mədəni və yaradıcı sənayelərin inkişaf etdirilməsinin iqtisadiyyata əlavə dəyər qazandırması ilə birlikdə faydalarını aşağıdakı kimi sıralaya bilərik:
- Məşğulluğun təmin olunması ilə məskunlaşacaq bölgə əhalisinin həyat keyfiyyətinin yaxşılaşdırılması;
- Sahibkarlıq təşəbbüskarlığını təşviq etməsi;
- Mədəni müxtəlifliyin yenidən bərpası və bunu yeni yaranacaq biznes subyektləri vasitəsilə gəlirli

**“CREATIVE INDUSTRIES” SAHƏLƏRİ ÜZRƏ YENİ BİZNES SUBYEKTLƏRİNİN QURULMASI MƏSKUNLAŞACAQ ƏHALİNİN MƏŞĞULLUQLA TƏMİN OLUNMASI İLƏ BƏRABƏR YENİ İQTİSADİ RAYONLARIMIZIN İQTİSADİYYATINDA İŞTİRAKÇILIĞIN GÜCLƏNDİRİLMƏSİNƏ YOL AÇACAQDIR**





sahələrə çevirmək potensialının mövcudluğu;
- Müxtəlif sahəvi icmaların və assosiasiyaların yaranması, bu icma və assosiasiyaların sahələrin inkişafı üçün fəaliyyətlərini artırmaları;
- Ənənəvi mədəniyyət və sənətkarlıq sahələrinin inkişafının bölgənin tanıtımı və turizm cəlbediciliyinin artırılmasına kömək göstərməsi;
-Yerli əhalinin və turistlərin istirahətinin təmin olunmasına dəstək və s. bu kimi faydalara nümunə göstərə bilərik.

Digər sənaye sahələri kimi mədəni və yaradıcı sənayelərin inkişafı və alt sahələrini dəstəkləmək üçün strateji siyasət çərçivəsinin olması vacibdir. Ənənəvi və yeni mədəniyyət və sənətkarlıq sahələrinin inkişaf potensialının təkmilləşdirilməsi, məhdudiyyətlər və maneələrin aradan qaldırılması üçün müəyyən siyasət çərçivəsi olmalıdır. Misal üçün, YUNESKO bu siyasəti təşviq etmək və davamlılığını təmin etmək üçün konseptual çərçivə təklif etmişdir. Çərçivə sektoru alt sektorları müəyyən edir və ehtiyacların qiymətləndirilməsi üçün model təqdim edir.

Avropa Parlamenti də tövsiyələrlə birlikdə Mədəniyyət Sənayeləri haqqında qətnamə qəbul etmişdir. Bu tövsiyələri də diqqətə aldığımız zaman inkişaf etməkdə olan ölkələrlə bağlı sahələrin inkişafı üçün daha uyğun hesab edilən tövsiyələr bunlardır:
- Yaradıcı bizneslərin müvafiq maliyyə dəstəyinə çıxışının təmin edilməsi, eyni zamanda maliyyə sektorunun da bu sahəyə dəstəyin hansı faydaları təmin edəcəyi barədə məlumatlandırılması;
- Bu sahədə fəaliyyət göstərəcək kiçik və orta biznes subyektləri üçün adekvat maliyyələşdirməni təmin etmək;
- Bu sahədə fəaliyyət göstərənlərin mükafatlandırılması və təşviqi sisteminin mövcudluğu;
- Sahələr üzrə müxtəlif peşə məktəblərinin açılması;
- Müxtəlif mədəni festivalların, sərgilərin, oyun və yarışların keçirilməsi, mədəni marşrutların hazırlanması və təbliği – Bu tədbirlər zamanı ənənəvi mədəniyyət sənayesi və sənətkarlıq məhsullarının tanıtımı və satışının təmin olunması tədbirləri;
- Marketinq tədbirlərinin keçirilməsi, bu sahələrin məhsullarının satışına uyğun müxtəlif satış kanallarının açılmasına dəstəyin göstərilməsi;
- Ənənəvi mədəniyyət və sənətkarlıq sahələri ilə turizmin qarşılıqlı fəaliyyəti və inkişafı üçün alətlər mexanizmlərinin hazırlanması,
- Mədəniyyət və sənətkarlıq sahələrini əhatə edən mədəni və yaradıcı sənayenin inkişaf etdirilməsinin və təşviqinin gələcək inkişaf siyasətlərinə daxil edilməsi.

Nəticə olaraq qeyd etmək istərdik ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarımızda iqtisadiyyatın digər sahələrinin bərpası ilə yanaşı, ənənəvi mədəniyyət və sənətkarlıq sahələrinin bərpası istiqamətində biznes subyektlərinin yaradılmasını təşviq etmək və dəstəkləmək dövlət siyasəti çərçivəsində həyata keçirilməlidir. Bu sahələrin inkişaf etdirilməsi bölgə iqtisadiyyatının bərpasını və reinteqrasiyasını sürətləndirəcəkdir. Eyni zamanda, həmin sahələrin inkişaf etdirilməsinin bölgələrimizdə məskunlaşacaq əhalinin məşğulluq probleminin həllinə dəstəklə birlikdə bölgənin müxtəlif potensialının düzgün qiymətləndirilməsi və istifadə olunması baxımından faydalı olacağı qənaətindəyik.



**i.e.d., ŞƏFA ƏLİYEV**
UNEC Qarabağ İqtisadi Araşdırmalar Mərkəzinin rəhbəri



# POST-KONFLİKT ƏRAZİLƏRƏ QAYIDIŞIN DÜNYA TƏCRÜBƏSİ: **BAŞLICA CƏHƏTLƏR VƏ ÇIXARILACAQ DƏRSLƏR**

Dünya tarixində kifayət qədər dəhşətli və dağıdıcı müharibələr olmuş, konfliktlər baş vermişdir. Nəticədə, çoxsaylı insan tələfatı ilə yanaşı, yaşayış evləri, şəhərlər, kəndlər xarabazarlığa çevrilmiş, yerlə-yeksan olmuşdur. Heç bir müharibənin acı nəticələri və dağıntıları insanların yaddaşından silinməmişdir və bu gün də insanlığa xas olmayan müharibə və post-konflikt nəticələri müəyyən düşüncələri ortaya qoymağın, müvafiq ibrət dərslərinin çıxarılmasının vacibliyini şərtləndirir. Bu proseslərdə ən ağrılı və mürəkkəb məsələlərdən biri müharibə nəticəsində doğma yurdlarını itirmiş məcburi köçkünlərin həmin ərazilərə qayıdış problemidir.

*Ağrılı və mürəkkəb məsələlərdən biri müharibə nəticəsində doğma yurdlarını itirmiş məcburi köçkünlərin həmin ərazilərə qayıdış problemidir*

Dünya təcrübəsindən yanaşdıqda bu istiqamətdə müəyyən bərpa və qayıdış modelləri, dövlətlərin metodoloji yanaşmaları diqqət çəkir. Bəşəriyyətin ən çox – 50 milyondan 80 milyona qədər insan itirdiyi II Dünya Müharibəsindən sonrakı dövrdə olan təcrübəyə baxmaq maraqlı olardı. Belə ki, həmin dövrdə təkcə keçmiş SSRİ-də 1710 şəhər və şəhər tipli qəsəbələr, həmçinin 70 min kənd, 82 min məktəb, 32 min sənaye müəssisəsi dağıdılmışdır. SSRİ-də bu məsələlərin həlli üçün 4-5 illik planlardan istifadə olunmuş və bərpa işləri aparılmışdır. Avropanın sosialist ölkələrində bərpa işlərinə keçmiş SSRİ tərəfindən daha çox resurslar yönəldilmişdir və burada əsas məqsəd Qərblə, ABŞ-la müqayisədə daha güclü mövqeyin formalaşdırılması olmuşdur. Bir neçə misal, Varşava şəhəri



müharibə nəticəsində 84% dağıdılmışdır, sənaye infrastrukturu isə 90% məhv olunmuşdur. Artıq SSRİ hökuməti tərəfindən 1945-ci il fevralın 3-də Varşavanın yenidən qurulması ilə bağlı qərar verilmişdir. Digər bir misal, tamamilə dağıdılmış Minsk şəhərinin yenidən bərpa edilməsini istəmirdilər və Belarusun paytaxtını başqa yerə köçürmək planı var idi. Amma son nəticədə həmin şəhərin öz yerində, dağıdılmış ərazidə bərpa edilməsi qərara alındı və resursların qısa müddət ərzində səfərbər olunması hesabına başa gəldi. Həcminə və səmərəliliyinə görə daha çox cəlbedici görünən və ABŞ-ın dövlət katibi Corc Marşall tərəfindən Harvard Universitetində 1947-ci ildə səsləndirilən və Avropanın dirçəldilməsi üçün nəzərdə tutulan strateji plan ("Marşall planı") bu günə kimi aktuallığı ilə seçilir. ABŞ-ın Avropaya planlı və qısa müddət ərzində kömək göstərməsi nəticəsində həm Qərbi Avropa dirçəldi və eyni zamanda, ABŞ iqtisadiyyatı gücləndi. 1950-ci ildə Avropa Ödəniş İttifaqı yaradıldı və reabilitasiya, iqtisadi artım üçün resurslardan istifadə etmək asanlaşdı, Almaniya sürətlə böhrandan çıxmağa başladı. 1950-1960-cı illərdə Qərbi Avropa ölkələrinin iqtisadiyyatı bərpa proseslərini sürətləndirə bildilər və bu proseslərdə Almaniya "Marşall planı"nda nəzərdə tutulan vəsaitlərin 60%-ni özünün sənayesinin inkişafına cəlb edə bilmişdir. 1950-ci ildə Almaniyada sənaye istehsalı 1936-cı il nisbətdə 14,4% artmışdır və sonrakı illərdə sənaye istehsalı hər il 10-15 % artım nümayiş etdirmişdir, nəticədə Qərbi Alman "iqtisadi möcüzəsi"nin əsası qoyulmuşdur.
ABŞ-ın dəstəyi və maliyyə köməyi ilə Almaniya Federativ Respublikasının sürətlə dirçəldilməsi təmin olunmuş və bu ölkə Avropa iqtisadi inteqrasiyasının dayaqlarını formalaşdırmışdır.
ABŞ və Avropa müttəfiqliyi bu gün də dünyada onların aparıcı rolunu təmin etməkdədir.
II Dünya Müharibəsinin nəticələrindən baxsaq, Yaponiyanın bərpa prosesləri və metodoloji yanaşmaları daha böyük maraq kəsb edir.
Külə dönmüş Xirosimanın bərpa edilməsi və dirçəldilməsi buna nümunə ola bilər. Yaponiyanın müxtəlif bölgələrindən, həmçinin xaricdən cəlb olunan resursların və gələn köməyin sayəsində şəhər bərpa olunmuşdur. Yapon hökuməti tərəfindən 1949-cu ildə Xirosimanın tikintisinə dair xüsusi qanun qəbul olunmuşdur və əsas məqsəd şəhərin obrazını dəyişmək, onu dünyada dayanıqlı sülh simvoluna çevirmək olmuşdur.
1947-ci ildən Yaponiyada bütün istiqamətlər üzrə islahatlar aparılmış və Yaponiyanın dirçəldilməsi proseslərinə başlanılmışdır.
Qeyd edək ki, keçmiş SSRİ-nin süqutundan sonra dünyanın coğrafiyası dəyişdi, yeni müstəqil dövlətlər yarandı, milli zəmində və ərazilər kontekstində münaqişələr, müharibələr baş verdi, separatçılıq görünməmiş həddə çatdı. Avropanın Balkan bölgəsində, keçmiş SSRİ-nin bir sıra respublikalarında, son dövrlərdə isə ərəb ölkələrində dağıdıcı milli konfliktlər, vətəndaş toqquşmaları və müharibələr geniş xarakter aldı. Bu arzuolunmaz konfliktlərin və müharibələrin fəsadları kifayət qədər düşündürücüdür.
Öz müstəqilliyini bərpa edən Azərbaycan 1990-cı illərin əvvəllərində ciddi problemlərlə üzləşdi. Beynəlxalq səviyyədə olan havadarlarının və imperialist xislətli "sahiblərinin" sayəsində Ermənistan ölkəmizin 20% torpaqlarını işğal etdi. Ermənistandan vəhşicəsinə qovulan soydaşlarımız da daxil olmaqla, 1 milyondan çox qaçqın və məcburi köçkünlərimiz ağır şəraitdə məskunlaşmağa məcbur oldular. Belə bir dövrdə Azərbaycan dövləti tədricən öz resurslarını və özünüinkişafetmə potensialını səfərbər edərək siyasi və iqtisadi sabitliyi bərpa etməyə və gücləndirməyə məcbur idi. Bu tarixi missiyanın öhdəsindən Ümumilli Liderimiz Heydər Əliyev gələ bildi. 1990-cı illərin ortalarından başlayaraq, neft strategiyası reallaşdırıldı, ölkədə makroiqtisadi və makromaliyyə sabitliyi

təmin olundu, məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması tədbirləri görüldü və torpaqlarımızın işğaldan azad olunması istiqamətində məqsədli tədbirlərin görülməsinə başlanıldı.
2003-cü ilin sonlarından başlayaraq, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın iqtisadi inkişaf modeli yeni mərhələyə qədəm qoydu, sosialyönlü iqtisadi inkişaf prioritetləri ön plana çıxarıldı, iqtisadi, sosial və institutsional islahatlar aparıldı, ölkəmizin iqtisadi gücü və qüdrəti artmağa başladı. Ordu quruculuğu ən müasir texnologiyalar və təcrübəyə əsaslandı, yeni qoşun növləri və hərbi birləşmələr formalaşdırıldı, hərbiçilərimizin peşəkarlıq səviyyəsi artırıldı, hərbi-sənaye kompleksi yaradıldı və ordunun maddi-texniki bazası gücləndirildi. Bunlarla bərabər, Azərbaycan beynəlxalq səviyyədə özünün haqq işinin dünya ictimaiyyəti və liderləri tərəfindən qəbul olunması istiqamətində davamlı səylər göstərdi və ölkəmizin imici xeyli yüksəldi.
İqtisadi baxımdan güclənmiş və dünya ölkələri arasında nüfuz qazanmış Azərbaycan milli ordumuzun rəşadəti sayəsində 2020-ci il sentyabr ayının 27-dən başlanan II Qarabağ Müharibəsində 44 gün ərzində erməni silahlı qüvvələrini darmadağın etdi və diz çökdürdü, Ermənistan rəhbərliyi təslimçilik aktına qol çəkdi. Böyük Qarabağ Zəfərindən sonra isə qarşıda daha çətin vəzifələr, ilk növbədə Böyük Qayıdış iqtisadiyyatının formalaşdırılması və məcburi köçkünlərin doğma yurdlarına qayıtmaları problemlərinin həll edilməsi məsələləri durur. Qeyd edək ki, 30 ilə yaxın davam edən işğal nəticəsində 20 min vətəndaşımız həyatını itirmiş, 900 yaşayış məntəqəmiz, 150 min ev, 70 min ictimai xarakter daşıyan bina, 693 məktəb, 855 uşaq bağçası, 695 tibb müəssisəsi, 6 min müəssisə dağıdılmışdır. Avtomobil yolları, su xəttləri, təbii qaz və elektrik enerjisi kommunikasiyaları məhv olunmuşdur. 280 min hektar meşələr və 1 milyon hektara yaxın yararlı torpaqlar deqradasiyaya uğradılmışdır və region ekoloji fəlakət zonasına çevrilmişdir. Təsadüfü deyildir ki, Ağdamı Qarabağın Xirosiması və "ruhlar şəhəri" adlandırırlar.
Post-konfilikt ərazilərin bərpa olunasında və Böyük Qayıdışın təmin edilməsində beynəlxalq təcrübənin obyektiv reallıqlardan baxılması və dəyərləndirilməsi vacibdir. Həmin istiqamətdə mövcud yanaşmaların, metodologiyaların adaptivliyinin müəyyənləşdirilməsi tədbirləri görülmədən, istifadə üçün tətbiq edilməsi məqsədəuyğun deyildir. Hesab edirik ki, artıq ölkəmizdə bu istiqamətdə dünya təcrübəsini müasir zaman kəsiyindən keçirməklə və sintez etməklə, milli konseptual baxışlar, dövləti

**İQTİSADİ BAXIMDAN GÜCLƏNMİŞ VƏ DÜNYA ÖLKƏLƏRİ ARASINDA NÜFUZ QAZANMIŞ AZƏRBAYCAN MİLLİ ORDUMUZUN RƏŞADƏTİ SAYƏSİNDƏ 2020-ci İL SENTYABR AYININ 27-dən BAŞLANAN II QARABAĞ MÜHARİBƏSİNDƏ 44 GÜN ƏRZİNDƏ ERMƏNİ SİLAHLI QÜVVƏLƏRİNİ DARMADAĞIN ETDİ VƏ DİZ ÇÖKDÜRDÜ**



yanaşmalar və fəaliyyət strategiyasının əsas istiqamətləri formalaşmaqdadır. Bunlarla bərabər, bir qrup yanaşmaları və mexanizmləri diskussiya predmeti və prioritet istiqamətlər kimi ümumiləşdirmişik:
- Post-konflikt ərazilərə qayıdışın dünya təcrübəsindən bəhrələnmək vacibdir, qayıdışın dünya təcrübəsi hər bir ölkənin inkişaf xüsusiyyətləri və prioritetləri ilə uzlaşdırılmalıdır;
- Post-konflikt ərazilərin bərpasında və dirçəldilməsində dövlətlə cəmiyyət arasında harmoniya təmin edilməli, dövlət-özəl sektor əməkdaşlığı ön plana çıxarılmalıdır;
- Böyük Qayıdışın böyük məsuliyyəti əsas etibarı ilə dövlətin öz çiynində daşınmalıdır və dövlət öz resurslarına daha çox güvənməlidir;
- Post-konflikt ərazilərin potensial və xüsusilə dost dövlətlərdən olan investorlar üçün cəlbediciliyi təmin olunmalı və müvafiq şərait yaradılmalıdır;
- İşğaldan azad olunan ərazilərin bərpası və dirçəldilməsi üzrə investisiya-innovasiya layihələrinin hesabatlılığına və şəffaflığına xüsusi önəm verilməlidir;
- Post-konflikt ərazilərdə istehsal və sosial infrastrukturun yaradılması və inkişaf etdirilməsində alternativ maliyyə mənbələrinin formalaşdırılması, maliyyə mexanizmlərinin işlənməsi, maliyyə-kredit infrastrukturunun yaradılması prosesləri daha sürətlə təmin olunmalıdır;
- Post-konflikt ərazilərdə iri layihələrin maliyyələşdirilməsi proseslərinə potensial xarici investisiya kompaniyalarının, fondlarının və digər maliyyə institutlarının intensiv olaraq cəlb edilməsi işləri aparılmalıdır;
- Region üçün xüsusi məşğulluq təminatı modeli işlənilməli və sahibkarlığın, biznesin inkişaf etdirilməsi istiqamətində çoxvariantlılıq prinsiplərindən, müxtəlif məqsədli dövlət proqramlarından və qrantlardan istifadə olunmasına zərurət vardır;
- Post-konflikt ərazilərin yüksək texnologiyalar və o cümlədən, "ağıllı" texnologiyalar əsasında inkişafının prioritetliyi əsas götürülməklə, Böyük Qayıdış prosesinə cəlb olunacaq məcburi köçkünlərin maarifləndirilməsi, bilik və bacarıqlarının artırılması, rəqəmsal texnologiyaların mənimsənilməsi istiqamətində sistemli və ardıcıl tədbirlərin görülməsinə ehtiyac vardır.



**dos., Azər Mehtiyev**
UNEC



# QARABAĞDA SƏNAYENİN İNKİŞAFI **PERSPEKTİVLƏRİNƏ BİR BAXIŞ**

İşğaldan azad edilmiş ərazilərin bərpası, məskunlaşdırılması və dirçəldilməsi çox yaxın gələcəkdə Azərbaycanda iqtisadi artımın və sosial-iqtisadi inkişafın mühüm "təkan nöqtəsi" olacaqdır. Müxtəlif təbiət abidələrinə, heyranedici relyef quruluşuna və iqlim şərtlərinə, nadir bitki və heyvan növlərinə, geniş münbit torpaqlara və meşə sahələrinə, zəngin təbii ehtiyatlara və kifayət qədər su ehtiyatlarına (o cümlədən mineral sulara) malik bu ərazidə iqtisadiyyatın ən müxtəlif sahələrinin inkişafı üçün potensial imkanlar mövcuddur.

*İşğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatın ən müxtəlif sahələrinin inkişafı üçün potensial imkanlar mövcuddur*

Bu ərazilərin iqtisadi potensialının hərəkətə gətirilməsi ölkədə yüksək əlavə dəyər yaradan çox sayda yeni iş yerlərinin yaradılmasına, ölkə iqtisadiyyatının və ixracının şaxələndirilməsinə, qeyri-neft sektoru sahələrinin, xüsusilə qeyri-neft sənaye sahələrinin inkişafına mühüm töhfə verə bilər.
Beynəlxalq təcrübədə adətən regionlarda sənaye inkişafı strategiyalarının iki tipi fərqləndirilir:

• yerli resursların istifadəsinə əsaslanan sənaye inkişaf strategiyaları (industrial development strategy bu utilizing local resource (İSLR)) – bu strategiya yerli faydalı qazıntılar və digər təbii ehtiyatlar, kənd təsərrüfatı xammalı, meşə və su resursları, ənənəvi texnologiyalar və icma mədəniyyətləri, mövcud insan resursları və s. kimi yerli resurslar hesabına sənayenin inkişafını və əlavə dəyər yaradılmasını nəzərdə tutur;

• xarici kapitalın cəlb edilməsinə əsaslanan sənaye inkişaf strategiyaları (industrial development strategy bu introdusing external capital (ISEC) - bu strategiya torpaq, nəqliyyat-logistika sistemi, elektrik, qaz, su, rabitə və digər təməl (baza) infrastrukturunun qurulduğu və ekoloji tələblərə uyğunlaşdırılmış sənaye zonalarında istehsal müəssisələrinin yaradılmasını nəzərdə tutur. Bu strategiya zamanı ərazidə sənaye-istehsal klasterlərinin yaradılmasına xüsusilə üstünlük verilir.

Əlbəttə ki, belə təsnifləşdirmə sənaye inkişafına yanaşmaları göstərmək üçündür. Əslində əksər ölkələrin təcrübəsində bu strategiyaların hər ikisi ya mərhələlərlə, ya da yanaşı tətbiq olunur.

İşğaldan azad edilmiş ərazilərə yönəlik sənayeləşmə siyasətinin hədəfində yalnız mövcud yerli potensiala əsaslanan lokal əhəmiyyətli sənayenin qurulması deyil, müasir (hətta gələcək) dövrün çağırışları nəzərə alınmaqla davamlı və dayanıqlı inkişafı

təmin edən innovasiya əsaslı və ixracyönümlü sənayeləşmə durmalıdır. Bunun üçün ərazidə müasir biliklərə və texnologiyalara əsaslanan yeni sənaye potensialının yaradılması hökumətin regiona yönəlik sənaye siyasətinin diqqət mərkəzində olmalıdır.
Məlum olduğu kimi, SSRİ dövründə bu rayonlarda yerli və gətirilmə xammal əsasında işləyən yerli və ölkə əhəmiyyətli bir sıra sənaye müəssisələri fəaliyyət göstərmişdir. Lakin ərazilərin işğalından sonra həmin sənaye müəssisələri tamamilə dağıdılmış, ərazilərin əksər "sənaye təcrübələri" artıq yox olmuşdur.  İndi bu ərazilərdə sənayenin yaradılmasına, mövcud faydalı qazıntılar və təbii ehtiyatlar istisna olmaqla, demək olar sıfırdan başlanmalıdır.
İlk növbədə bunu qeyd etməliyik ki, işğaldan azad edilmiş ərazilərin məskunlaşmaya hazırlığı istiqamətində istehsal və nəqliyyat infrastrukturunun yenidən qurulması sahəsində həyata keçirilən işlər ərazidə sənayenin inkişafı üçün çox əhəmiyyətli zəmin formalaşdırmaqdadır. Belə ki, həm əhalinin, həm də müəssisə və təşkilatların, o cümlədən sənaye obyektlərinin gələcəkdə tələb olunan səviyyədə elektrik təchizatının təmin edilməsi üçün bütün ərazilərdə həm su elektrik stansiyalarının, həm elekrik yarımstansiyalarının, həm də alternativ yaxud bərpa edilən mənbələr üzrə elektrik stansiyalarının qurulması işləri sürətlə davam edir. Ərazilərdə bütün rayonları bir-biri ilə və ölkənin digər əraziləri ilə bağlayan müasir beynəlxalq standartlara uyğun avtomobil və dəmir yolları çəkilməkdədir. İran ərazisindən keçməklə Azərbaycanı Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək avtomobil və dəmir yolunun çəkilməsi, habelə Zəngəzur dəhlizinin açılması ölkəmizin həm daxili, həm də beynəlxalq nıqliyyat-logistika imkanlarını genişləndirəcəkdir. Ərazidə üç beynəlxalq hava limanının tikilməsini də nəzərə alsaq, onda bölgənin necə bir şaxələnmiş beynəlxalq logistika şəbəkəsinə malik olacağını daha aydın təsəvvür etmək olar.
Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının malik olduqları təbii amillər - təbii ehtiyatları və təbii-iqlim şərtləri – burada müxtəlif sənaye istehsallarının yaradılmasına zəmin yaradır.
Belə ki, rəsmi məlumatlara əsasən işğaldan azad edilmiş ərazilərdə müxtəlif təyinatlı 167 sayda faydalı qazıntı yataqları (o cümlədən, beş qızıl, üç mis və digər əlvan metallar, altı civə, 100-dən çox tikinti materialları yataqları və s.) vardır.
Ərazilərin bərpası, sosial infrastrukturun qurulması və əhalinin məskunlaşdırılması prosesində yerli ehtiyatların geniş və səmərəli istifadəsinə nail olmaq üçün regionda çox sayda kiçik və orta ölçülü tikinti materialları istehsalı müəssisələrinin yaradılması bu iqtisadi rayonlarda ciddi sənaye

**İRAN ƏRAZİSİNDƏN KEÇMƏKLƏ AZƏRBAYCANI NAXÇIVAN MUXTAR RESPUBLİKASI İLƏ BİRLƏŞDİRƏCƏK AVTOMOBİL VƏ DƏMİR YOLUNUN ÇƏKİLMƏSİ, HABELƏ ZƏNGƏZUR DƏHLİZİNİN AÇILMASI ÖLKƏMİZİN HƏM DAXİLİ, HƏM DƏ BEYNƏLXALQ NƏQLİYYAT-LOGİSTİKA İMKANLARINI GENİŞLƏNDİRƏCƏK**





potensialının formalaşmasına imkan verə bilər. Əlverişli torpaq və təbii-iqlim şərtlərinə malik bu iqtisadi rayonlarda həm çox geniş çeşiddə bitkiçiliyin, həm də heyvandarlığın inkişafı imkanları vardır. Bu da ərazidə kənd təsərrüfatı xammalının (ərzaq təyinatlı bitki və meyvələrin, texniki bitkilərin, yemçilik bitkilərinin, heyvandarlıq məhsullarının və s.) emalına əsaslanan qida məhsulları və içki istehsalı, toxuculuq sənayesi, gön-dəri məmulatları və ayaqqabı istehsalı, ərazinin zəngin florasına əsaslanan əczaçılıq məhsulları istehsalı və digər sənaye sahələrinin inkişafı üçün mühüm zəmin kimi çıxış edir. Bu zaman dəyər yaradılnası zənciri üzrə əlaqəli istehsallarla bağlı klasterlərinin yaradılması sənayenin inkişaf strategiyasının əsas istiqamətlərindən biri ola bilər.
Son illər ölkənin regionlarında sahibkarlığın və istehsal sahələrinin inkişaf etdirilməsinə yönəlik Azərbaycan hökumətinin ardıcıl olaraq həyata keçirdiyi iqtisadi siyasəti və dövlət dəstək tədbirlərini Qarabağda sənayenin inkişafının mühüm amillərindən biri kimi vurğulamaq olar. Bu baxımdan regionların investisiya reytinqinin aparılması, investisiya təşviqi sənədi əsasında investorlara vergi güzəştlərinin və digər preferensiyaların təqdim edilməsi, qeyri-neft ixracının stimullaşdırılması və s. kimi tədbirlərin əhəmiyyəti çox böyükdür. Bunlarla yanaşı, Azərbaycan Respublikası Prezidentinin "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 10 dekabr 2021-ci il tarixli Sərəncamında hökumətə tapşırılmışdır ki, "işğaldan azad edilmiş ərazilərdə iqtisadi canlanmanın sürətləndirilməsi və investisiya cəlbediciliyinin artırılması, müasir və effektiv istehsal, ticarət və xidmət infrastrukturunun yaradılması, innovativ texnologiyaların tətbiqi, sənaye potensialının reallaşdırılması, optimal güzəştlərin və

stimullaşdırıcı mexanizmlərin hazırlanması və sahibkarlıq mühitinin yaxşılaşdırılması" üçün əlverişli şərait yaradılması məqsədilə əlavə güzəşt və dəstək mexanizmlərini hazırlayıb təqdim etsin. Ölkədə sənayenin inkişafına yönəlik dövlət siyasətinin reallaşdırılmasında geniş tətbiq olunan mühüm mexanizmlərdən biri sənaye və texnologiya parklarının, habelə sənaye məhəllələrinin yaradılması təcrübəsidir. Artıq Ağdam şəhərinin yaxınlığında 190 ha ərazidə Ağdam Sənaye Parkının, Cəbrayıl rayonu ərazisində isə 200 hektarlıq sahədə "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının yaradılmasına başlanılmışdır. Bu istiqamətdə siyasətin genişləndirilməsi və bölgənin digər ərazilərində də sənaye parklarının, sənaye məhəllələrinin və xüsusi sənaye zonalarının yaradılması işinin təşkili məqsədəuyğundur. Bu işlərin sürətləndirilməsi və dövlət-biznes əməkdaşlığı şəraitində daha səmərəli təşkili üçün ərazidə olan şəhər və rayonların baş planlarının hazırlandığı indiki mərhələdə bütün şəhər və qəsəbələrin ərazilərində sənaye təyinatlı torpaqların müəyyən edilməsi zəruridir. Müəyyən edilmiş sənaye təyinatlı torpaqların ərazisində istehsal müəssisələrinin yaradılması üçün zəruri olan bütün xarici infrastrukturun qurulması da dövlət tərəfindən həyata keçirilir. Bu halda iş adamları və investorlar sənaye müəssisələrinin tikintisi üçün torpaq sahəsi tapmaq, onun xarici infrastrukturunu qurmaq, ekoloji və digər təhlükəsizlik işləri görmək kimi əlavə xərclərdən azad olur, vəsaitlərini bilavasitə istehsal müəssisələrinin qurulmasına yönəldə bilərlər.
Qarabağda sənayenin inkişaf perspektivlərindən danışarkən texnoloji inkişaf (modern və perspektiv texnologiyaların cəlb edilməsi baxımından) və insan resurslarının keyfiyyəti (biznes-sistemlərin qurulması və menecerlik bacarıqları, spesifik bilik və bacarıqlara malik mütəxəssislərin mövcudluğu baxımından) kimi amilləri diqqətdə saxlamaq xüsusilə vacibdir. Qiymətləndirməmiz sənayenin inkişafı perspektivləri baxımından bölgənin nisbətən zəif tərəflərinin hazırda məhz bu amillərlə bağlı olduğunu göstərir. Çünki bölgənin hazırda malik olduğu sənaye inkişaf amilləri ərazidə əsasən aşağı texnoloji istehsalların yaradılmasına imkan verir. Qarabağ ərazisində sənayenin inkişaf perspektivlərini isə daha çox orta və yüksək texnoloji istehsalların qurulmasına yönəldilməsi məqsədəuyğundur. Bu ərazidə sənayenin inkişafı müasir elmi-texniki nailiyyətlərə və yüksək texnologiyalara əsaslanmalı, IV Sənaye inqilabının çağırışları nəzərə alınmaqla həyata keçirilməlidir. Bunun üçün texnologiya şəhərlərinin – texnopolislərin yaradılması təcrübəsindən faydalanmaqla, bölgədə universitet-elm-sənaye əməkdaşlığı əsasında Qarabağ Texnologiya Vadisinin yaradılması çox əhəmiyyətli bir layihə ola bilər. Burada yüksək texnologiyaların tədrisinə əsaslanan universitet, kollec və peşə təhsilinin bilavasitə istehsal təcrübəsi ilə əlaqələndirilməsi, habelə yeniliklərin bilavasitə istehsala tətbiqi təmin edilə bilər. Əsasən ixracyönümlü məhsul və xidmətlərin istehsalını hədəfləyən belə bir texnologiya vadisi bütün dünyada ölkəmizin yeni tanıtım obrazı ola bilər.
Belə bir layihənin reallaşdırılması prosesə texnologiya bölgələrinin layihələndirilməsi və qurulması üzrə təcrübəli mütəxəssislərin cəlb edilməsi, burada yaradılacaq təhsil müəssisələrinə dünyanın tanınmış universitetlərindən kadrların dəvət edilməsi, məhz sənaye istehsalı sahəsində təcrübəyə malik xarici iş adamlarının, investorların və mütəxəssislərin cəlb edilməsi, burada iş adamları və investorlar üçün xüsusi əlverişli şərtlərin yaradılması, habelə ərazinin idarə edməsi üçün zəruri institutsional mühitin qurulması əsasında mümkün ola bilər.



**i.e.n., İsmayıl İsmayılov**
UNEC, Əmək Bazarının Monitorinqi Mərkəzinin rəhbəri



# MƏCBURİ KÖÇKÜNLƏRİN PEŞƏ BACARIQLARININ ARTIRILMASI VƏ MƏŞĞULLUQLARININ TƏMİN EDİLMƏSİ MEXANİZMLƏRİ

Müasir dövrdə elmi-texniki tərəqqinin sürətlə inkişafı, iqtisadiyyatın bütün sahələrində yeni innovativ texnologiyaların tətbiqi, rəqəmsalaşmaya keçid əmək bazarında kadrlara olan tələblərin də dəyişməsinə, onların yüksək ixtisas, təhsil səviyyəsinə, praktiki bacarıqlara, peşəkarlığa malik olmasını tələb edir. İnformasiya cəmiyyətində elm, bilik və hətta ideyalar bilavasitə məhsuldar qüvvəyə çevrilərək həm cəmiyyətin, həm də iqtisadiyyatın inkişafında başlıca rol oynadığından ixtisassız və aşağı ixtisaslı işçilərin məşğulluğunun təmin olunması çətinləşir. Çünki istehsalın kompüterləşdirməsi, mexanikləşdirmə və avtomatlaşdırma səviyyəsinin yüksəlməsi, müasir istehsal vasitələrinin, maşınların, texnoloji avadanlıqların, dəzgahların rəqəmli-proqramla əlaqəli işləməsi işçilərdən yalnız ixtisası üzrə müəyyən biliklər deyil, həm də proqram qurğusu ilə rəftar bacarığı tələb edir. İşçilərin əməyi öz məzmununa və xarakterinə görə mühəndis əməyinin bir növünə çevrilir, yəni daha çox yaradıcı xarakter kəsb edir. Bu da məğulluğun təmin olunmas üçün peşəkar kadrların hazırlanmasında yeni yanaşmaları və onların ixtisaslarının müntəzəm surətdə artırılmasına xüsusi diqqət yetirilməsini zəruri edir.

> *Ölkə Prezidenti 2021-ci ilin 7 iyul tarixində çox mühüm bir Fərman imzalayaraq Azərbaycanda iqtisadi rayonların yeni bölgüsünü təsdiqləmiş və bununla da ölkə iqtisadiyyatının idarə olunması ilə bağlı yeni mexanizmlərin formalaşdırılmasına başlanılmışdır.*

**Yeni iqtisadi rayonlaşma və məcburi köçkünlərin əmək bazarının əsas göstəriciləri**

Məcburi köçkünlərin məşğulluqlarının təmin edilməsi də onların peşə bacarıqlarının artırılması və əmək bazarının yeni tələblərinə uyğunlaşdırılması ilə bilavasitə bağlıdır. 44 günlük Vətən müharibəsində Ali Baş komandan İlham Əliyevin rəhbərliyi ilə

Azərbaycanın Müzəffər Ordusunun 30 ilə yaxın işğalda olan rayonlarımızı düşməndən azad etməsi və Böyük Qayıdışa hazırlıqların başlaması məcburi köçkünlərin məşğulluğunun təmin edilməsi perspektivləri ilə bağlı yeni yanaşmalar tələb edir.

Belə ki, ölkə Prezidenti 2021-ci ilin 7 iyul tarixində çox mühüm bir Fərman imzalayaraq Azərbaycanda iqtisadi rayonların yeni bölgüsünü təsdiqləmiş və bununla da ölkə iqtisadiyyatının idarə olunması ilə bağlı yeni mexanizmlərin formalaşdırılmasına başlanılmışdır. Fərmanla işğaldan azad edilən ərazilərin bərpa olunduqdan sonra məcburi köçkünlərin məskunlaşacağı və məşğulluğunun təmin olunacağı iki iqtisadi rayon – Qarabağ iqtisadi rayonu (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonlarını əhatə edən) və Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonlarını əhatə edən) yaradılıb.

Bu iqtisadi rayonların yaradılmasının əsas səbəbi kimi də işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə edilməsi göstərilib. Bu isə təbii ki, əraziyə geri dönməsi təmin ediləcək insanların məşğulluğunun təmin edilməsi üçün onların sözügedən iqtisadi rayonlarda qurulması nəzərdə tutulan iqtisadi sahələr üzrə hazırlanmasını tələb edir. Təbii ki, bu zaman Qarabağ zonasının özünəməxsus xüsusiyyətləri, zəngin təbii ehtiyatları, geniş imkanları ilə yanaşı, əhalinin ənənəvi məşğuliyyət formaları da nəzərə alınmalıdır.

Qeyd edək ki, yeni iqtisadi rayonlaşma üzrə məşğul əhalinin sayına diqqət yetirsək görərik ki, həm Qarabağ, həm də Şərqi Zəngəzur iqtisadi rayonları üzrə iqtisadi fəal əhalinin sayı ilbəil artır. Buna müvafiq olaraq, həm məşğul əhalinin, həm də muzdlu işçilərin sayında artım baş versə də, pandemiya səbəbindən 2020-ci ildə bu göstəricilərdə azalma qeydə alınıb.

**Cədvəl 1.** Qarabağ iqtisadi rayonu üzrə əmək bazarının göstəriciləri (ilin sonuna)

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|
| **İqtisadi fəal əhalinin sayı, min nəfər** | 399.1 | 406.8 | 411.3 | 415.1 | 418.0 | 422.0 |
| **Məşğul əhalinin sayı, min nəfər** | 379.2 | 386.3 | 391.4 | 394.9 | 398.2 | 392.0 |
| **Muzdlu işçilərin sayı, min nəfər** | 70.7 | 70.3 | 68.4 | 68.7 | 69.5 | 67.7 |
| **Orta aylıq nominal əməkhaqqı, manat** | 242.0 | 238.8 | 242.2 | 279.5 | 344.9 | 409.9 |

**Mənbə:** www.stat.gov.az/source/regions/

Qeyd edək ki, bu azalma Naxçıvan MR istisna olmaqla, bütün iqtisadi rayonlar üzrə qeydə alınıb. Belə ki, ölkə üzrə məşğul əhalinin sayı 1,3%, Bakı şəhərində 1,1%, Gəncə-Daşkəsəndə 1,8%, Qarabağ, Qazax-Tovuz, Mərkəzi Aran və Şirvan-Salyan iqtisadi rayonlarında 1,6%, Şərqi Zəngəzurda 1,4%, Şəki-Zaqatalada 1,3%, Abşeron-Xızı və Lənkəran-Astara iqtisadi rayonlarında 1,2%, azalmışdır (Diaqram 1).

Bu isə ölkədə rəqabətədavamlı iqtisadiyyatın formalaşdırılmasını, milli sahibkarlığın inkişafı üçün əlverişli mühitin formalaşdırılması ilə yanaşı, innovativ yönümlü kadr hazırlığını, yeni ideyaların sürətlə reallaşmasına imkan verən kiçik və orta biznesin inkişafını, yeni texnologiyalarla idaretməni həyata keçirən menecerlərin olmasını tələb edir.

**Məcburi köçkünlərin məşğulluğunun təmin edilməsi perspektivləri və problemləri**

Məcburi köçkümlərin həm indi, həm də yaxın illərdə realaşacaq Böyük Qayıdışdan sonrakı dövrdə məşğulluğun təmin edilməsi də xeyli dərəcədə bu istiqamətlərdə həyata keçirilən işlərin səmərəliliyindən asılı olacaq. Burda həm də insan kapitalından səmərəli istifadə, eyni zamanda bilik iqtisadiyyatının, innovasiya və informasiya texnologiyalarının tətbiqi, intellektual potensialın inkişafı üçün yeni əlverişli mühit yaradılması da mühüm əhəmiyyət daşıyacaq.

Qeyd edək ki, regionllarda iqtisadi sahələrini keyfiyyətli kadr təminatının reallaşdırılması hazırda Azərbaycanda əsas sosial-iqtisadi problemlərdən biridir. Bu problemin əsas səbəbi kimi əmək bazarında təklif olunan işçi qüvvəsi ilə işəgötürənlərin tələbləri arasında kəmiyyət və keyfiyyət uyğunsuzluğunu, eləcə də zəruri istiqamətlər üzrə ixtisaslı mütəxəsis hazırlığındakı problemləri göstərmək olar. Bu problemlərin məcburi köçkünlərin həm indi, həm də Böyük Qayıdışdan sonra məşğulluğunun təmin edilməsində ciddi maneəyə çevrilməməsi üçün indidən zəruri addımlar atılmalıdır. Bunun üçün ilk növbədə həm Qarabağ, həm də Şərqi Zəngəzur iqtisadi rayonları üzrə iqtisadi fəal əhalinin hazırki peşə-ixtisas səviyyəsi üzrə məlumatlar dəqiqləşdirilməlidir. İkincisi, qeyd olunan iqtisadi rayonlarda inkişafı nəzərdə tutulan prioritet sahələr üzrə iqtisadi fəaliyyətin həyata keçirilməsi üçün lazım olacaq işçi qüvvəsinin sayı, tərkibi, ixtisas səviyyəsi haqqında tam və etibarlı proqnozlar hazırlanmalıdır. Üçüncüsü isə, Böyük Qayıdışa qədər Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına qayıdacaq məcburi köçkünlərin zəruri peşə-ixtisas biliklərinə yiyəənməsi təmin olunmalıdır.

Bunun üçün müxtəlif dövrlərdə ölkəmizdə

**Cədvəl 2.** Şərqi Zəngəzur itisadi rayonu üzrə əmək bazarının göstəriciləri (ilin sonuna)

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|
| **İqtisadi fəal əhalinin sayı, min nəfər** | 164.2 | 167.5 | 169.3 | 170.5 | 171.6 | 172.8 |
| **Məşğul əhalinin sayı, min nəfər** | 154.3 | 157.2 | 159.0 | 159.7 | 160.9 | 157.0 |
| **Muzdlu işçilərin sayı, min nəfər** | 25.2 | 23.8 | 23.1 | 22.3 | 22.3 | 22.5 |
| **Orta aylıq nominal əməkhaqqı, manat** | 258.3 | 245.5 | 259.8 | 330.3 | 414.1 | 500.3 |

**Mənbə:** www.stat.gov.az/source/regions/

işlənib hazırlanmış regionların kadrlara ehtiyacı haqqında məlumatların əldə edilməsi üsullarının tədqiq edilməsi, onlardan müasir şəraitə uyğun gələnlərindən istifadə olunması mümkündür. Eləcə də, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının kadrlara ümumi tələbatını, onların peşə-ixtisas səviyyəsini, keyfiyyətini və s. proqnozlaşdırmağa, qiymətləndirməyə imkan verən xüsusi metodologiya da hazırlamaq olar.

***Qeyd edək ki, bu zaman Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında məcburi köçkünlərin məşğulluğunu təmin etmək üçün regionun kadrlara ümumi ehtiyacını iki komponent üzrə qiymətləndirməyə imkan verən modelin qurulması məqsədəuyğun olar:***

1. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yeni iş yerlərinin yaradılması ilə bağlı kadrlara və onların peçə-ixtisas səviyyəsinə ehtiyacın təyin edilməsi;
2. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının mövcud məşğul əhalisinin təqaüdə çıxması, bölgəyə dönməkdən imtina edənlərin olması və sair səbəblərlə bağlı yeni kadrlara yaranacaq ehtiyacın proqnazlaşdırılması.

Birinci istiqamət üzrə ehtiyacın düzgün qiymətləndirilməsi üçün regiondakı ənənəvi məşğulluq sahələrini, dövlətin hansı sahələri inkişaf etdirməyi nəzərdə tutduğu, investisiyaların hansı sahələrə yönələcəyini, hər il yaradılacaq iş yerlərinin sayını və s. nəzərə almaq lazımdır. Bu göstəricilər arasında əlaqə çoxfaktorlu reqressiya modeli ilə təmin edilə bilər.
Regionda təqaüdə çıxan, bölgəyə dönməkdən imtina edənlərin olması və s. səbəblərlə bağlı yeni kadrlara yaranacaq ehtiyacı müəyyən etmək üçün riyazi modellərdən istifadə oluna bilər.



**REGİONLLARDA İQTİSADİ SAHƏLƏRİN KEYFİYYƏTLİ KADR TƏMİNATININ REALLAŞDIRILMASI HAZIRDA AZƏRBAYCANDA ƏSAS SOSİAL-İQTİSADİ PROBLEMLƏRDƏN BİRİDİR**

## Nəticə

Qeyd olunanlar fikrimizcə, məcburi köçkünlərin peşə bacarıqlarının artırılması və məşğulluğunun təmin edilməsi üçün aşağıdakı istiqamətlərin nəzərə alınmasını zəruri edir:

1. Böyük Qayıdışa qədər Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının işçi qüvvəsinin peşə bacarıqlarının artırılması üçün xüsusi və dəqiq kadr hazırlığı siyasəti işlənib hazırlanmalı və bu zaman əmək bazarında gözlənilən tələblər nəzərə alınmalıdır.
2. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında mövcud və inkişaf etdirilməsi nəzərdə tutulan iqtisadi sahələrin işçi qüvvəsinə tələbatı düzgün müəyyən edilməlidir.
3. Məcburi köçkünlərin peşə-ixtisas hazırlığında inkişaf etmiş ölkələrin təcrübəsi əsas götürülməli, hazırlanan işçi qüvvəsinin keyfiyyəti və rəqabət qabiliyyəti artırılmalı, ETT-nin nailiyyətləri nəzəri və təcrübi biliklərlə tədris olunmalıdır.
4. Məcburi köçkünlərin peşə biliklərinə yiyələnməsini, ixtisas səviyyəsini artırmasını təmin etmək zəruri maarifləndirmə işləri həyata keçirilməli, xüsusən gənclərin peşə təhsilinə cəlb edilməsi təmin edilməlidir.

**Diaqram 1.** *İqtisadi rayonlar üzrə məşğul əhalinin sayı (ilin sonuna) (min nəfər)*




**Mənbə:** www.stat.gov.az

**i.e.d, prof., ÜMÜDVAR ƏLİYEV**
UNEC



# QARABAĞDA AQRAR SEKTORUN **İNKİŞAFINA YENİ YANAŞMA**

Azərbaycan iqtisadiyyatında tarixən aqrar sektor böyük xüsusi çəkiyə malik olmuşdur. Erməni işğalı nəticəsində Qarabağın təbii resurslarının iqtisadi dövriyyədən çıxarılması ÜDM-də aqrar sektorun payının azalması ilə müşahidə olundu. Regionun işğaldan azad olması nəticəsində 10 min kv.km. ərazimiz yenidən özümüzə qayıtmışdır. Bu ərazilərin yenidən iqtisadi dövriyyəyə cəlb edilməsi (reinteqrasiya) iqtisadiyyatın bütün sahələrində iqtisadi inkişafa təkan verməklə yanaşı, neftdən asılılığın minimuma endirilməsinə, aqrar sektorun, o cümlədən də bütövlükdə qeyri-neft sektorunun inkişafına, onun ÜDM-də xüsusi çəkisinin artmasına gətirib çıxaracaq. Coğrafiyası kifayət dərəcədə rəngarəng olan Qarabağ (Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları) aqrar sektorun inkişafı üçün çox zəngindir. Heyvandarlığın, əkinçiliyin, balıqçılığın, arıçılığın və digər sahələrin inkişafı üçün təbii şərait kifayət dərəcədə əlverişlidir. Təbii otlaq və biçənəklərin, əkinçiliyin əsası olan münbit torpaqların üstünlük təşkil etməsi, təbii su hövzələrinin çoxluğu və s. aqrar sektorun potensial inkişaf mənbələridir.

*Tezliklə əhalinin Qarabağda məskunlaşdırılması iqtisadiyyatın digər sahələrinin inkişafı ilə yanaşı, aqrar sektorun da inkişafına güclü təkan verəcək*

Tezliklə əhalinin Qarabağda məskunlaşdırılması iqtisadiyyatın digər sahələrinin inkişafı ilə yanaşı, aqrar sektorun da inkişafına güclü təkan verəcək. Bu regionda bütün sahələrin yenidən qurulacağını nəzərə alaraq, müasir dünyanın inkişaf etmiş ölkələrinin aqrar sektorun inkişaf etdirilməsi sahəsində qabaqcıl təcrübəsinə əsaslanaraq mütəxəssislər tərəfindən aqrar sektorun innovativ inkişafına yeni yanaşma ortaya qoyulmalıdır. Bu yeni yanaşma əkinçilik sahələrinin optimal nisbətinin müəyyənləşdirilməsinə, meşə fondundan, su ehtiyatlarından səmərəli istifadəyə, mal-qaranın, xırda buynuzlu davarların (onların yunlarından alınan liflər möhkəmliyi və uzunluğuna görə o qədər də keyfiyyətli deyil, yüngül sənayedə xammal kimi az yararlıdır) cins tərkibinin dəyişdirilməsi və s. məhsuldarlığın yüksəldilməsinə, məhsul buraxılışının həcminin artırılmasına, ÜDM-də onun xüsusi çəkisinin artmasına, əhalinin aqrar sektor məhsullarına (xüsusi ilə orqanik məhsullara) olan tələbatının daxili istehsal hesabına ödənilməsinin təmin edilməsinə yönəldilməlidir.



Mütəxəsislər tərəfindən regionda kənd təsərrüfatı məhsulları istehsalının rayonlaşdırılması (dağlıq, dağətəyi, aran, suvarılan, dəmyə ərazilər) xəritəsinin işlənib tərtib edilməsi kənd təsərrüfatı məhsulunun istehsalının artımında əhəmiyyətli rol oynaya bilər. Bitkiçiliyin hansı növlərinin yanaşı əkilib becərilməsinin faydalılığı müəyyənləşdirilməlidir. Avropa ölkələrində bu sahədə çox böyük təcürbə var. Ölkənin iqlim şəraiti nəzərə alınmaqla əkin növbəliliyi müəyyənləşdirilməlidir. Məsələn, arpa biçinindən sonra həmin sahələrdə (aran ərazilərdə) kələm əkib becərməyin, taxılçılıqla kartofçuluğun bir təsərrüfat ilində əkilib becərilməsinin nə dərəcədə faydalı olması elmi cəhətdən əsaslandırılmalıdır. Yazlıq, payızlıq taxıl əkini təcrübəsi genişləndirilməlidir. Burada elm adamlarının və təcrübə sahiblərinin sözü həlledici olmalıdır. Artıq bizim ölkəmizdə də aqrar istehsalın sözdə deyil, işdə də elmi əsaslarla inkişaf etdirilməsinin vaxtı catmışdır.

Müasir dünyada bütövlükdə iqtisadiyyatın inkişafı, o cümlədən də aqrar istehsalın inkişafı elmi yeniliklərdən və onun tətbiqi imkanlarından əhəmiyyətli dərəcədə aslıdır. Elmi-texniki, texnoloji yeniliyin geniş miqyaslı tətbiqinə nail olmadan istənilən nəticələrin əldə edilməsi mümkün deyil. Bu gün Azərbaycan innovativ texnika və texnologiyanın elmi axtarışına vəsait sərf etməkdən daha çox, dünyanın qabaqcıl ölkələrində sınaqdan çıxmış texnika və texnologiyanın idxalına üstünlük verməlidir (neft sənayemizə tətbiq olunan xarici texnologiyanın səmərəliliyi göz qabağındadır). Xarici ölkələrdə istehsal olunmuş müasir taxıl yığan, pambıq yığan kombaynlar bütün komfortu ilə bərabər məhsul itkisini minimuma endirir və keyfiyyətli məhsul toplanmasına şərait yaradır. Rusiya istehsalı olan Niva markalı taxıl kombaynından istifadə 40%-ə qədər məhsul itkisinə səbəb olurdu, dağ yamaclarında yetişdirilən məhsulların yığılmasında bu kombaynlardan istifadə etmək ümumiyyətlə mümkün deyildi. Niderlanddan idxal olunan kombaynlar isə itkiləri minumuma endirməklə yanaşı, müxtəlif relyeflərdə işləmək imkanına malikdir.

Bu gün elmlə iqtisadiyyatın müxtəlif sahələrinin inteqrasiyası daha da aktualdır. Sahəvi milli elmi-tədqiqat institutları və təşkilatları da kənd təsərrüfatının inkişafında əvəzsiz rol oynaya bilər. Aqrar elm və ona yaxın olan elm sahələri aqrar sektorun inkişafını təmin edə biləcək bütün resurslardan elmi cəhətdən əsaslandırılmış səmərəli istifadə mexanizmi işləyib hazırlamağı bir vəzifə kimi qarşıya qoymalıdırlar.

Azərbaycan Respublikası su ehtiyatları ilə o qədər də zəngin olmasa da, Qarabağ bölgəsi bol su ehtiyatlarına malikdir. Lakin, bölgənin bol su ehtiyatlarına malik olmasına baxmayaraq, heç də bütün ərazilərdə ənənəvi qaydada suvarılan əkinçiliyin həyata keçirilməsi mümkün deyil. Müasir qurğu və aparatlardan və relyefə uyğun çiləmə üsulundan istifadə su ehtiyatlarından səmərəli istifadəsi ilə yanaşı, məhsuldarlığın

**AQRAR ELM VƏ ONA YAXIN OLAN ELM SAHƏLƏRİ AQRAR SEKTORUN İNKİŞAFINI TƏMİN EDƏ BİLƏCƏK BÜTÜN RESURSLARDAN ELMİ CƏHƏTDƏN ƏSASLANDIRILMIŞ SƏMƏRƏLİ İSTİFADƏ MEXANİZMİ İŞLƏYİB HAZIRLAMAĞI BİR VƏZİFƏ KİMİ QARŞIYA QOYMALIDIRLAR**

**QARABAĞ BÖLGƏSİ BOL SU EHTİYATLARINA MALİKDİR**



artırılmasında da əhəmiyyətli rol oynayar. Dəmyə yetişdirilməsi zəruri olan ərazilərdə məhsulların əkilib-becərilməsi üçün isə bu spesifik cəhətlər nəzərə alınmaqla quraqlığa davamlı toxumların yetişdirilməsi aqrar elm sahəsində çalışanların diqqət mərkəzində olmalıdır. Qarabağda smart layihələrin (ağıllı şəhər, ağıllı kənd) reallaşması əhalinin işğal öncəsi məskunlaşdığı ərazilərə nisbətən daha az ərazilərdə məskunlaşmasını şərtləndirəcək. Əlverişsiz relyefə malik, infrastrukturun formalaşdırılması çox xərc tələb edən ərazilərdə məskunlaşmaya ehtiyac qalmayacaq. Bu da kənd təsərrüfatı təyinatlı torpaqların genişlənməsinin bir mənbəyinə çevriləcək. Kənd təsərrüfatının inkişaf etdiyi qərb ölkələrinin təcrübəsindən yararlanaraq ətlik və südlük mal-qaranın bağlı şəraitdə saxlanılmasına keçməklə məhsuldarlığı artırmaqla yanaşı, otlaq sahələrini strateji sahələrin, xüsusi ilə taxılçılığın inkişafı üçün əkin dövriyyəsinə qaytarmaq mümkün olacaq. Taxılçılığın inkişafı üçün əkin dövriyyəsinə 200 min hektar əlavə torpaq sahəsinin cəlb edilməsi təxminən 1 mln. ton taxıl istehsalı deməkdir. Bu bölgə (Ağdam, Füzuli rayonları) taxılçılığın inkişafı üçün əlverişli şəraitə, münbit torpaq fonduna malikdir. Beynəlxaq ekspertlərin hesablamalarına görə əgər ölkə əhalisinin hər nəfərinə 500 kq. taxıl istehsal olunarsa, həmin ölkə özünü taxılla təmin etmiş hesab olunur. Nəzərə alsaq ki, son illər ildə təxminən 3 mln. tondan çox taxıl istehsal olunur, əlavə imkanların hərəkətə gətirilməsi ilə taxılla təminatımızı yaxşılaşdıra bilərik. Mənə elə gəlir ki, Azərbaycanda yetişdirilən taxılı una çevirə bilən texnologiya (dəyirman) üzərində də düşünməyə dəyər. Nəticədə bir-neçə yüz min ton (hətta milyon ton) taxıl, un və un məmulatları idxalından azad olar və bu məqsədlə sərf olunan dönərli valyuta digər məqsədlər üçün istifadə olunar.

Əhalinin Qarabağda məskunlaşacağının tədricən, mərhələlərlə həyata keçiriləcəyini nəzərə alaraq, şəxsi təsərrüfatlara, ailə təsərrüfatlarına dövlət dəstəyi ilə cins mal-qaranın verilməsi (regionun bir hissəsində alp çəmənliklərinin mövcudluğu cins mal-qaranın yem bazası kimi uyğundur) məqsədəuyğun olardı. Süni mayalanma yolu ilə iri buynuzla mal-qaranın cins tərkibinin dəyişdirilməsi istiqamətində müəyyən işlərin genişləndirilməsinə ehtiyac var. Ailə təsərrüfatına verilən bir cins mal-qaradan 4 il ərzində əlavə olaraq təbii artım yolu ilə bir südlük və bir ətlik cins mal-qara əldə etmək imkanı var. Bununla nəinki ət, süd, yağ məhsullarına olan tələbatımız ödənilər, həm də həmin məhsulların ixracını həyata keçirmək mümkün olar. Təbii ki, müəyyən müddət bu prosesə müvafiq dövlət orqanı tərəfindən ciddi nəzarət həyata keçirilməlidir. Xüsusilə kənd təsərrüfatı istehsalında sığorta sisteminin işlək mexanizminin yaradılması zəruridir. Məlumdur ki, kənd təsərrüfatı istehsalında riskin səviyyəsi yüksək olduğundan sığorta şirkətləri bu sahənin sığortalanmasında bir o qədər də maraqlı deyillər. Digər tərəfdən sığorta sistemində bürokratik maneələr hələ də qalmaqdadır. Hesab edirəm ki, dövlət vəsaiti hesabına əldə edilən mal-qaranın, o, cümlədən də Qarabağda müəyyən müddət kənd təsərrüfatı məhsulları istehsalının dövlətin dəstəyi ilə sığortalanması müsbət nəticə verə bilər.





**Etimad Rəhimli**
UNEC-in Türk Dünyası İqtisadi Araşdırmalar Mərkəzinin tədqiqatçısı



**i.f.d. Nurhoca Akbulayev**
UNEC-in Türk Dünyası İqtisadi Araşdırmalar Mərkəzinin tədqiqatçısı



**i.f.d., dos. Oqtay Quliyev**
UNEC-in Türk Dünyası İqtisadi Araşdırmalar Mərkəzinin rəhbəri

# ZƏNGƏZUR KORİDORU VƏ QARABAĞIN İQTİSADİ DİRÇƏLİŞİNDƏKİ ROLU

Zəngəzur dəhlizinin Azərbaycan üçün strateji, siyasi, geosiyasi və iqtisadı faydaları vardır. Dəhlizin ölkə iqtisadiyyatına qazandıracağı faydalarını sadalamazdan əvvəl bu iqtisadi faydanın yaranması üçün vacib olan şərtləri də vurğulamaq lazımdır. Hər şeydən əvvəl dəhlizin statusu, buradakı gömrük rejimi, dəhliz boyunca yerləşəcək xidmət sahələrini (yanacaq doldurma məntəqələri, kafe-restoranlar və digər) göstərəcək ölkə və ən əsası isə dəhlizin təhlükəsizliyidir. Mövcud yollara alternativ olan bu dəhlizdə tranzit axınının təşkili üçün başlıca amil, dəhliz boyunca və dəhlizə qədərki ərazilərdə tam təhlükəsizliyin təmin edilməsidir. Əgər bu dəhlizdə tam təhlükəsizlik təmin edilərsə və bu təhlükəsizliyin zəmanəti mövcud olarsa, bu nəqliyyat yolu şərqdən qərbə doğru gedən önəmli yol axınlarına alternativ təşkil edə bilər. Təbii ki, nəqliyyat yolunun əsas strateji tələb göstərəcəyi amil Azərbaycanın quru yolu ilə birbaşa Naxçıvan Muxtar Respublikasına, oradan da Türkiyəyə bağlana bilməsi olacaqdır. Bu nəqliyyat yolu sərnişindaşımanın və yükdaşımanın intensivliyini artıracaq. Rahat nəqliyyat xətti daha çox ixracatı və azalan daşıma xərclərini şərtləndirəcək. Özəlliklə, region amili üzrə düşünsək, Naxçıvan Muxtar Respublikası ilə Türkiyənin şərqində yerləşən şəhərləri arasında ciddi bir mal ticarəti mövcuddur. Bu kimi malların Naxçıvanın xaricində ölkənin digər hissələrinə girməsinin önü açılacaqdır. Daha rahat nəqliyyat yolu həm də daha çox Türkiyəli turistlərin gəlməsinə də gətirib çıxaracaqdır.

> *Nəqliyyat yolunun əsas strateji tələb göstərəcəyi amil Azərbaycanın quru yolu ilə birbaşa Naxçıvan Muxtar Respublikasına, oradan da Türkiyəyə bağlana bilməsi olacaqdır*

Nəqliyyat yolu Bakı-Qazax magistralının Araz hövzəsinə, oradan isə İran sərhədi boyunca və Zəngəzur dəhlizinə birləşəcək hissəsinin tamamında yeni təsərrüfatların yaranmasına səbəb olacaq. Qarabağ bölgəsinə gedən əsas avtomobil yolu axını, bu yeni reallıqları özü ilə gətirəcəyi düşünülməkdədir. Lakin, dəhlizdə




nəqliyyat axınının olması amili Qarabağa gedən nəqliyyat axınının yaradacağı yolboyu təsərrüfat tələbindən ən azı 2-3 dəfə daha çox təsərrüfat tələbi yaradacaqdır. Füzulidə hal-hazırda mövcud olan aeroportun bölgənin tranzit axınına qatacağı iqtisadi dəyər ilə birlikdə Zəngəzur dəhlizinin də işlək olması Araz boyunca ciddi bir infrastrukturun və təsərrüfatın yaranmasına səbəb olacaqdır. Yolun təkcə Azərbaycan-Naxçıvan-Türkiyə, oradan isə Avropaya gedən yollara doğru bir yol ötürücü dəhliz kimi yox, Asiya və Avropa arasındakı keçişlərdə önəmli bir dəhliz olaraq baxmağımız lazımdır. Yola olan tələbi təxmin edərkən Rusiyanın cənub əyalətləri və İranın şimal əyalətləri ilə Türkiyə arasındakı mal ixracatının həcmi və çeşitliliyi ön planda tutulmalıdır. Hal-hazırda Bakı-Qazax magistralı ilə Azərbaycan üzərindən Türkiyəyə və oradan Avropaya tranzit gedən malların həcmi, çeşitliliyi və çatacaqları ünvan da yola olan tələbin başqa bir göstəricisidir. Əlbəttə ki, yolun azalması və bir ölkənin gömrük məntəqəsindən keçilməsi daşıyıcılar üçün önəmli bir alternativdir. Yola olan tələbin və bu nəqliyyat dəhlizində, dəhlizə qədərki yollara olan tələbin təxminindəki, tranzit daşıma meyarları bunlardır. Bu tranzit daşımanın ölkə iqtisadiyyatına verəcəyi maddi dəyəri hesablamaq üçün ekonometrik simulyasiyalar edərək hər hansı bir təxmin etmək üçün olduqca tezdir. Lakin, ölkəmizdən keçən mövcud nəqliyyat xətlərindən tranzit əhəmiyyətli keçəcək yük və minik maşınlarının sayları ilə düşünsək, buradakı nəqliyyat vasitələrinin bəlkə də yarısından çoxunun Zəngəzur dəhlizi yolunu seçəcəyini düşünə bilərik.

Zəngəzur dəhlizi istiqamətində yerləşəcək xidmət infrastrukturlarının sayı və yerləşmə yerləri ilə bağlı təxminlər etmək üçün bir neçə ssenari ilə proqnozlar aparıla bilər. Belə ki, Zəngəzur dəhlizinə uzanan yolun ətrafındakı qəsəbələrin tam infrastrukturlu və əhali yaşadığını, daimi bölgəyə gələn insan sayını və ətrafdakı fəal iş yeri saylarını mümkünə yaxın rəqəmlərlə təxmin edərək bölgədə yerləşməli olan xidmət sahələrinin yerini və miqdarını Maşın öyrənmə (Machine Learning) alqoritmləri ilə müəyyən etmək mümkündür. Günümüzdə, yeni nəqliyyat qovşaqlarının keçəcəyi coğrafiyada yerləşəcək xidmət infrastrukturlarının sayını və yerini bu kimi statistik-riyazi metodlar ilə proqnozlaşdırmaq mümkündür. Burada, yaşayış olan kəndlərə yaxınlıq, yaxın diapazondakı əhali sayı, hava limanı və avtovağzallara yaxınlıq, yoldan keçən avtomobil sayı kimi dəyişənlərdən istifadə edərək ərazidə yerləşəcək olan xidmət və istehsal müəssisələrinin sayını və yerini proqnozlaşdırmaq olar. Ayrı-ayrı xidmət sahələri üçün bu proqnozların aparılmasından sonra biz bölgədə yerləşəcək olan xidmət və istehsal yerlərinin sayı və işçi qüvvəsi həcmi ilə bağlı proqnozlar verə bilərik. Bu sayları proqnoz etdikdən sonra ölkənin başqa bir regionunda olan bu saydakı və eyni profildəki istehsal və xidmət müəssisəsinin məcmu gəlirə təsirini, ödədiyi vergi miqdarını və işləyən insan sayı ilə eyniləşdirərək dəhlizin ölkə iqtisadiyyatına verəcəyi iqtisadi dəyərin bir qismini proqnozlaşdıra bilərik. Yuxarıda sadaladığımız proqnoz, sadəcə yolboyu yerləşəcək olan ticari infrastrukturun iqtisadi faydasını verəcəkdir.

c.ü.f.d., b/m. Firuzə Cəfərova



# MƏSKUNLAŞMANIN YENİ MODELİ PERSPEKTİVLƏR, PROBLEMLƏR

**44 günlük Vətən müharibəsi Azərbaycanın qələbəsi ilə başa çatdıqdan sonra azad edilmiş torpaqlara məcburi köçkünlərin qayıtması, əhalinin bu torpaqlarda yenidən məskunlaşması, qayıdışı planlı və sistemli olaraq böyük dövlət proqramı çərçivəsində həyata keçirilməsini nəzərdə tutur.** Məskunlaşmanın modelinin təhlilinə keçməzdən əvvəl qeyd etmək lazımdır ki, sistemli məskunlaşmanın ilk mərhələsi təbii ki, ərazilərin minalardan təmizlənməsindən başlayır. İnsanların təhlükəsizliyi naminə bu proses zaman və zəhmət tələb edir və hələ yekunlaşmadığı üçün müharibənin bitməsindən 16 aydan çox vaxt keçməsinə baxmayaraq, məskunlaşma başlamayıb. Paralel olaraq, tamamilə dağıdılmış infrastrukturun yenidən yaradılması, həyati vacib obyektlərin – işıq, qaz, su xətlərinin, yolların çəkilməsi, relyefin çətinliyi, üstəlik sərhəddə və təmas xəttində hələ də düşmən təxribatlarının davam etməsi də məskunlaşma prosesini ləngidən amillərdəndir.

*Səbəblər aradan qaldırıldıqdan sonra növbəti mərhələ insanların doğma yurdlarında məskunlaşmasına start verilməsi olacaq*

Qeyd olunan səbəblər aradan qaldırıldıqdan sonra növbəti mərhələ insanların doğma yurdlarında məskunlaşmasına start verilməsi olacaq. Bu prosesin hansı prinsiplərlə, hansı layihələrlə həyata keçəcəyi ölkə rəhbərliyinin diqqət mərkəzindədir və artıq bu layihələrin işlənməsinə başlanıb. Sistemli məskunlaşmanın növbəti mərhələsində yaşayış məntəqələrinin qurulmasının həyata keçirilməsi nəzərdə tutulur. Qarabağın azad edilmiş torpaqlarında işğaldan əvvəl 8 rayon mərkəzi, 676 kənd olub. Rayon mərkəzlərinin yenidən bərpası, qurulması müzakirə mövzusu olmasa da, irili-xırdalı kəndlərin hər birinin yenidən qurulması müzakirə və mübahisələrə səbəb olub, bu istiqamətdə yeni yanaşmanı qaçılmaz edir. Azad edilmiş torpaqlarda elə kəndlər var ki, əvvəllər cəmi 10-15 evdən ibarət olub və yaxud bəzi kəndlər də faktiki olaraq rayon mərkəzinə ya bitişik, ya da çox qısa məsafədə yerləşib. Müasir dövr yeni kənd modellərini tələb edir və bu baxımdan məskunlaşmanın köhnə model üzrə aparılması məqsədəuyğun hesab edilmir. Buna misal olaraq, Ağdam şəhərinin yeni planında ətrafdakı 4 kəndin də şəhərə birləşdirilməsini qeyd etmək olar. Digər rayon mərkəzlərinin də planları hazırlanarkən bu tendensiyanın davam edəcəyi şübhəsizdir. Məskunlaşma yalnız yaxın kəndlərin rayon mərkəzlərinə birləşdirilməsi ilə yekunlaşmamalıdır. Çünki bir neçə kəndin



də bir ərazidə birləşdirilməsi bir sıra amillərdən effektli olacaq və torpaqlardan səmərəli istifadə edilməsinə şərait yaradacaqdır.
“Ağıllı kənd” modelinə üstünlük verilməsi Zəngilan rayonunun Ağalı kəndinin simasında artıq özünü göstərib. Digər kəndlərimizin də müasir tələblərə uyğun olaraq qurulması və məskunlaşdırılması həm mənəvi, həm iqtisadi baxımdan insanların rahat həyat tərzini təmin edəcəkdir. Düzdür, burada insanları keçmişinə bağlayan məqamları unutmaq olmaz. Köhnə qəbiristanlıqlar düşmən tərəfindən dağıdılıb, insanlar isə doğmalarının qəbirlərini bərpa etməklə onların xatirəsini yaşatmaq istəyirlər. Burada da planlı hərəkət edərək kəndlərin birləşdirilməsi kimi, qəbristanlıqların da köçürülməsini dövlət nəzarəti altında həll etmək mümkündür. Məskunlaşan insanların bunu anlayışla qarşılayacağına inanırıq.
Azad edilmiş ərazilərdə yeni bərpa layihələri yaşayış, istehsal, sosial xidmətlər, “ağıllı kənd təsərrüfatı”, alternativ enerji sahələri kimi mühüm prinsiplər üzərində qurulacaq. Bu isə məskunlaşmanın özünəməxsus yeni modelini təşkil edəcək. İşğaldan azad edilmiş ərazilərimizdə yeni məskunlaşma modelinə əsasən yeni iş yerlərinin açılması, əhalinin məşğulluğu da təmin ediləcək. Eyni zamanda, sosial obyektlərin inşası həmin ərazilərdə müxtəlif xidmətlərin həyata keçirilməsinə münbit şərait yaradacaq. Məskunlaşma prosesində iş yerlərinin yaradılması, sosial xidmətlərin göstərilməsi məsələnin kompleks şəkildə həllinə yol açacaq.
Qarabağın azad edilmiş əraziləri əkinçilik və heyvandarlıq üçün olduqca əlverişli yerlərdir və işğaldan əvvəl yerli əhalinin əsas məşğulluğu da məhz kənd təsərrüfatı sahəsi olub. Yeni məskunlaşma modelində kəndlərin birləşdirilməsi torpaq sahələrinə qənaət və onlardan səmərəli istifadə deməkdir. Bu bölgədə kənd əhalisinin şəxsi torpaq mülkiyyətindən istər əkinçilikdən, istərsə də heyvandarlıqdan əldə etdiyi məhsullar ərzaq və qida bolluğunun yaranmasına, qloballaşan dünyada təbii ərzaq məhsullarının qıtlığının aradan qalxmasına (ən azı respublika ərazisində), qida təhlükəsizliyinə, sağlam qidalanmağa şərait və imkan yaradacaq, üstəlik dünya bazarlarına da yol açmaqla ölkəyə valyuta axınını artırmış olacaqdır.
Azad edilmiş torpaqlarda yeni məskunlaşma modelinin inkişafı üçün yerli şəraitin geniş imkanları mövcuddur və bu yalnız kənd təsərrüfatı ilə yekunlaşmır. İşğaldan azad edilmiş Kəlbəcər rayonu ərazisində də çoxsaylı su elektrik stansiyalarının tikilməsi üçün çox əlverişli şərait olduğunu bilirik. Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoymaqla faktiki olaraq yeni dəmiryol infrastruktutunun yaradılması, bir neçə aqrar sənaye parklarının planlaşdırılması kənd təsərrüfatının sənayeləşdirilməsinə geniş imkanlar açır.
Yalnız yerli əhalinin imkanları səviyyəsində deyil, yeni məskunlaşma modeli xarici investorların da buraya cəlb olunmasına əlverişli şərait yaradır. Qlobal miqyasda Şərqi Zəngəzurda azad iqtisadi zonanın yaradılması bir çox ölkələrin marağındadır. Burda yaradılacaq iqtisadi zona ərazidə iqtisadi artım məsələsini həll edəcək. Çünki burada tam bir boşluq mövcuddur.



Azərbaycan ərazisinin təxminən 10%-ni təşkil edən azad iqtisadi zona bir müddətdən sonra ölkə iqtisadiyyatına da töhfəsini verə bilər. Burada həm təbii resurslar, həm əmək resursları, həm energetika resursları və s. imkanlar olacaq. İşğaldan əvvəl də Qarabağ regionu və Şərqi Zəngəzur ölkə iqtisadiyyatının, xüsusilə də kənd təsərrüfatının 12-13%-ni təşkil edirdi. Bu regionların potensialından istifadə olunması imkan verir ki, region qeyri-neft sektorunun inkişafı baxımından birincilər sırasında olsun. Məskunlaşmanın yeni modeli olan "ağıllı şəhər", "ağıllı kənd" layihələrinin həyata keçirilməsi bu regionların potensialını artıracaq, eyni zamanda da Azərbaycanın müdafiə təhlükəsizliyinin, iqtisadi təhlükəsizliyinin təmin edilməsi üçün böyük imkanlar yaradacaqdır.
Məskunlaşmanın yeni modeli əsasında burada iqtisadi həyatın yenidən qurulması, onun bərpasına xidmət edən strukturların yaradılması mexanizmi Qarabağ bölgəsini digər iqtisadi zonalardan xeyli dərəcədə fərqləndirəcək. Burada önəmli olan məsələ şəxsi təsərrüfatların düzgün istiqamətləndirilməsi, onlara dövlət dəstəyi, eyni zamanda dövlət mülkiyyətində olacaq istehsal obyektlərinə nəzarətin şəffaflığıdır. Dövlətin nəzarəti müasir idarəetmə mədəniyyətinin tələblərinə cavab verməlidir.
Azad edilmiş ərazilərdə kənd təsərrüfatı məhsullarının emalı üçün sənaye müəssisələrinin yaradılması olduqca vacibdir. Şərab istehsalı, meyvə şirəsi istehsalı, dənli bitkilərin seleksiya təcrübə stansiyaları, tərəvəz konservləşdirilməsi müəssisələri, onların qablaşdırılması üçün şüşə və karton istehsalının və digər köməkçi obyektlərin istifadəyə verilməsi iqtisadi səmərəliliyi xeyli yüksəldəcəkdir. Belə olan halda, bu məhsulların kənara daşınıb emal olunmasına ehtiyac olmayacaq, məhsulların əksər hissəsi bu regionlar daxilində istehsal olunacaqdır. Hasilat sənayesi ilə emal sənayesi arasında optimal nisbət yaranacaq. Bu isə o deməkdir ki, səmərəsiz daşınmaya yol verilməyəcəkdir. Qeyd etmək lazımdır ki, məskunlaşmanın yeni modelinin yalnız dövlət tərəfindən həyata keçirilməsi bir sıra problemlər yarada bilər. Birincisi, ərazilərin miqyası və məskunlaşan əhalinin sayı kifayət dərəcədə böyük olduğundan dövlət vəsaitinin qısa müddətə yenidənqurma işləri üçün yetərli olacağı inandırıcı görünmür. Hətta, vəsait yetsə belə, məskunlaşmanın zamanı xeyli uzana bilər. Bu isə ilk növbədə məskunlaşmağı səbirsizliklə gözləyən əhali arasında, yüngül ifadə etsək, narazılığın yaranmasına səbəb ola bilər. Artıq indidən bu narazılıq bu və ya digər şəkildə özünü büruzə verir. Deməli, məskunlaşacaq əhalinin imkanlarından da istifadə etmək zərurəti yaranır. Dövlətin məskunlaşma planına (burada kəndlərin yenidənqurulma planı, memarlıq işləri və s. aiddir) əməl etməklə əhaliyə imkan yaradılmalıdır ki, məskunlaşmada öz vəsaitlərindən də istifadə edə bilsinlər. Dövlət bəlli kompensasiya, güzəştli kredit imkanları yarada bilər, fərdi evlərin layihələndirilməsində köməklik göstərə bilər, amma sonadək bütün xərcləri üzərinə götürə bilməz. Həm də bu rəngarənglik yox, standart arxitektura yaradacaq, bu isə istər eksteryer, istərsə də interyer baxımdan zövqsüzlüyə yol aça bilər. Qarabağın tarixi arxitektura ənənələrinə söykənərək yeni, modern üslubda "ağıllı kənd" layihələrində fərdi yanaşmaya imkan yaradılmalıdır.
Məskunlaşmanın yeni modeli yalnız əhalinin doğma yurdlarına dönməsi, investisya yatırımları, istehsal müəssisələrinin, səhiyyə, təhsil ocaqlarının yaradılması deyil, eyni zamanda bu yerlərdə yeni insan faktorunun formalaşması deməkdir. Azərbaycan tarixinin həm ağrılı, həm şanlı səhifələrini özündə yaşadan Qarabağ bölgəsində yeni insanın formalaşması istinad nöqtəsi kimi milli dəyərlərə, vətənpərvərliyə, bu yerlərin mədəni zənginliyinə əsaslanmalıdır.
Məskunlaşmanın yeni modeli intellektual əqlin nəticəsi kimi, bu yerlərdə potensial intellektli insan resurslarının formalaşmasında böyük rol oynayacaqdır.

**MƏSKUNLAŞMANIN YENİ MODELİ OLAN "AĞILLI ŞƏHƏR", "AĞILLI KƏND" LAYİHƏLƏRİNİN HƏYATA KEÇİRİLMƏSİ BU REGİONLARIN POTENSİALINI ARTIRACAQ, EYNİ ZAMANDA DA AZƏRBAYCANIN MÜDAFİƏ TƏHLÜKƏSİZLİYİNİN, İQTİSADİ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİ ÜÇÜN BÖYÜK İMKANLAR YARADACAQDIR**





**"PMD Group" MMC-nin İdarə Heyətinin sədri Dəyanət Sədullayev**

# UNEC EKSPERT
# JURNALINA MÜSAHİBƏ

**Biografiya**

*Dəyanət Sədullayev Azərbaycanda daşınmaz əmlakın idarə edilməsi və inkişafı üzrə aparıcı şirkətlərdən biri olan "PMD Group" MMC-nin İdarə Heyətinin sədridir.*

*Dəyanət Azərbaycan Dövlət İqtisad Universitetinin 2003-cü ildə bakalavr və 2005-ci ildə magistr məzunu olmuşdur. 2015-ci ildən "PMD Group" MMC-də fəaliyyətə başlamış və şirkətdə maliyyə direktoru, baş direktorun müavini və son olaraq, 2021-ci ildən bəri İdarə Heyətinin sədri kimi fəaliyyət göstərir. PMD-yə qoşulmamışdan əvvəl Dəyanət həm yerli, həm də beynəlxalq şirkətlərdə yüksək vəzifələrdə fəaliyyət göstərmiş və biznes strategiya və əməliyyatlarının idarə edilməsi, qurulması, maliyyə məsləhəti xidmətləri sferalarında geniş təcrübə qazanmışdır.*

*Cənab Sədullayev Harvard Biznes Məktəbinin "Daşınmaz Əmlakın İdarə Edilməsi" Proqramını bitirmiş, Alyaska ştatının Sertifikatlı Mühasibi (CPA) və Amerika Auditorlar Palatasının (AICPA) daimi üzvüdür. Ailəlidir, 2 övladı var.*

**Salam Dəyanət müəllim, işlərinizdə uğurlar arzulayaraq sizə bir neçə sual ünvanlamaq istərdik. Hamıya məlumdur ki, PMD Group və ona daxil olan şirkətlər müasir yaşayış komplekslərinin, infrastruktur layihələrin, ticarət mərkəzlərinin tikintisini, onların idarə olunması və inkişafını həyata keçirən ölkəmizdəki ən böyük daşınmaz əmlak şirkətlərindən biridir.**

**Vətən müharibəsindən sonra işğaldan azad edilmiş cənnət Qarabağımızda və Şərqi Zəngəzurda müxtəlif infrastruktur layihələrin həyata keçirilməsinə, iri həcmli yaşayış komplekslərinin tikintisinə ehtiyac yaranmışdır. Bu fəaliyyətlərdə PMD Group-un iştirakı və həyata keçirdiyiniz mövcud layihələr haqqında ətraflı məlumat verməyinizi xahiş edirik.**

**AĞDAM ŞƏHƏRİNDƏ 2 ƏHƏMİYYƏTLİ**
**LAYİHƏ**
**İCRA EDİR**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu siyasəti və müzəffər ordumuzun şücaəti nəticəsində tarixi torpaqlarımızın işğaldan azad olunması və ölkəmizin ərazi bütövlüyünün bərpa olunması hamımızı ürəkdən sevindirir. Hal-hazırda Qarabağda dövlətimiz tərəfindən genişmiqyaslı yenidənqurma və bərpa layihələri icra edilir. Qarabağın Azərbaycana iqtisadi reinteqrasiyasının ilkin mərhələsində hava limanlarının tikintisi, nəqliyyat infrastrukturunun formalaşdırılması, o cümlədən dəmir yollarının salınması kimi mühüm infrastruktur layihələri ya artıq həyata keçirilmiş, ya da hazırda icra mərhələsindədir.

Dövlətimizin uğurlu siyasəti

**PMD GROUP**
**OLARAQ, TARİXİ ABİDƏLƏRİN QORUNUB SAXLANILMASI VƏ GƏLƏCƏK NƏSİLLƏRƏ ÇATDIRILMASI ÜÇÜN İCRA ETDİYİMİZ BƏRPA VƏ YENİDƏNQURMA LAYİHƏLƏRİMİZ İLƏ BÖYÜK QÜRUR DUYURUQ**



özəl sektor nümayəndələri olaraq bizi də bu əhəmiyyətli missiyaya qoşulmaq üçün ruhlandırır. PMD Group olaraq işğaldan azad olunmuş ərazilərin yenidən qurulması prosesinə öz töhfəmizi verməyə başladığımız üçün qürur duyuruq. Hal-hazırda biz Ağdam şəhərində 2 əhəmiyyətli layihə icra edirik. İşğal nəticəsində öz yurd-yuvasından didərgin düşmüş vətəndaşlarımızın doğma torpaqlara qayıtmasına dəstək olmaq bizim üçün böyük əhəmiyyət kəsb edir. Beləliklə, bu sahədə atılan vacib addımlardan biri olaraq, PMD Group-un sifarişi ilə "PMD Projects" MMC Ağdam şəhərində ilk yaşayış kompleksinin inşasına başlamışdır. 1.55 hektar ərazini əhatə edən kompleksdə ilkin mərhələ üçün 209 mənzildən ibarət olan 6 binanın tikilməsi nəzərdə tutulur.

İşğaldan əvvəlki dövrdə Qarabağ regionu Azərbaycanın turizm sferasında da mühüm rol oynamışdır. Törədilən vandalist əməllər nəticəsində dağıdılmış infrastruktura baxmayaraq, tarixi, təbiəti və coğrafi mövqeyinə görə azad edilmiş rayonlarımızda mühüm turizm potensialı hələ də qalır. Regiondakı turizm sahəsinə öz töhfəmizi vermək üçün PMD Group-un sifarişi ilə "Park Forest Otel Ağdam" layihəsinin icrası da "PMD Projects" MMC tərəfindən başlanmışdır. 2.16 hektar ərazidə tikilməsi nəzərdə tutulan kompleks 110 nömrədən ibarət olacaq, həmçinin ziyarətçilər üçün konfrans mərkəzi, açıq havada üzgüçülük hovuzu, uşaq oyun meydançası, gəzinti yolları və istirahət zonaları da təmin ediləcək. 13 fevral 2022-ci il tarixində Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva hər iki layihənin təməlqoyma mərasimində iştirak etmişdilər. Hal-hazırda layihələr icra planına uyğun olaraq həyata keçirilir və həmin plana uyğun müddətdə tamamlanması nəzərdə tutulur.

**Aydındır ki, doğma yurd-yuvalarından illərdir didərgin düşən vətəndaşlarımızın öz torpaqlarına tədricən qayıtması ilə yeni layihələrin icrasına da tələb yaranacaqdır. Ümumiyyətlə, gələcəkdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında planlaşdırdığınız layihələrdən bəhs edə bilərsinizmi və bu layihələr əsasən hansı istiqamətlərdə nəzərdə tutulur?**

İşğaldan əvvəl Qarabağ bölgəsi Azərbaycan iqtisadiyyatının əhəmiyyətli bir hissəsi olmuşdur. Həmin dövrlərdə regiondakı kənd təsərrüfatı, emal sənayesi, turizm, enerji istehsalı, mineral sular, baramaçılıq, şərabçılıq və başqa iqtisadi sektorların inkişafı xüsusilə seçilirdi. İllərlə işğalçılar tərəfindən dağıdılmasına və baxımsızlığa məruz qalmasına baxmayaq, Ermənistan azad olunmuş ərazilərimizdəki sərvətlərimizdən tam olaraq faydalana bilməyib. Qarabağ bölgəsindəki milli yeraltı və yerüstü sərvətlərimizin dəyərliliyinin aktuallığını nəzərə alsaq, bu regiondakı potensial Azərbaycanın iqtisadiyyatı üçün böyük əhəmiyyət kəsb edir. Vətən müharibəsindəki şanlı qələbəsindən sonra ölkəmizin qarşısında duran ən mühüm məsələlər işğaldan azad edilmiş torpaqlarda sosial-məişət vəziyyətinin standatlara uyğun səviyyəyə çatdırılması üzrə tədbirlərin görülməsi, öz doğma yurdlarından məhrum olmuş insanların həmin ərazilərdə məskunlaşdırılması və regiondakı stabil iqtisadi həyatın təmin olunması ilə bağlıdır.

Prezident İlham Əliyevin "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında Sərəncamında da qeyd edilir ki, əldə olunan iqtisadi üstünlüyün, xüsusilə, işğaldan azad edilmiş ərazilərin mövcud iqtisadi potensialının xalqımızın rifahı üçün istifadə olunması məqsədəuyğundur.

Bu istiqamətdə dövlətimiz mühüm əhəmiyyət kəsb edən bir çox layihələr icra etmiş və davamlı olaraq etməkdədir. PMD Group olaraq, regiondakı iqtisadi aktivlik inkişaf etdikcə gələcəkdə yeni layihələr ilə öz töhfəmizi verməyə hazırıq. Qeyd etmək lazımdır ki, PMD Group ölkəmizin ən böyük daşınmaz əmlak şirkətlərindən biri olaraq Qarabağda hazırki strateji istiqamətləri çərçivəsində fəaliyyət göstərməyi nəzərdə tutur. Həmçinin, PMD Group korporativ sosial məsuliyyət tədbirləri çərçivəsində son vaxtlar daha da aktiv fəaliyyət göstərir, müxtəlif tədbirlər təşkil edir və ya o tədbirlərdə iştirak edir, eləcə də icra olunan layihələrin sayını genişləndirir. Bizim digər layihələrimiz və korporativ sosial məsuliyyət xarakterli fəaliyyətimiz barədə şirkətimizin sosial şəbəkə hesablarında mütəmadi məlumatlar paylaşılır.

**Bildiyimiz kimi, cənnət guşəmiz Qarabağ və işğaldan azad edilmiş rayonlarımızda müxtəlif memarlıq abidələrimiz mövcud olmuş və bu abidələrimizin çoxu mənfur düşmənlərimiz tərəfindən amansızca yararsız və görkəmsiz hala salınmışdır. PMD Group Azərbaycanda, xüsusilə Bakı şəhərində tarixi və mədəni abidələrimizin bərpa və reabilitasiyası istiqamətində bir neçə uğurlu layihə icra etmişdir. Bunu nəzərə alaraq, işğal nəticəsində dağıdılmış tarixi və mədəni abidələrimizin bərpa və reabilitasiyası haqqında nələr söyləyə bilərsiniz?**

Bizim tariximiz və memarlıq abidələrimiz xalqımızın bəşər sivilizasiyasının inkişafına olan əhəmiyyətli töhfəsini göstərir. Ölkəmizdə olan memarlıq nümunələri tariximizin ayrılmaz bir hissəsidir və xalqımızın keçmişini özündə birləşdirən bu dəyərləri qoruyub saxlamaq vacibdir. PMD Group olaraq, tarixi abidələrin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılması üçün icra etdiyimiz bərpa və yenidənqurma layihələrimiz ilə böyük qürur duyuruq. Bu günə qədər şirkətimiz Molokan binası (hazırki Bakı Kitab Mərkəzi), Şərq Bazarı kimi layihələri təhvil vermiş, Yusif Məmmədəliyev 15 və Hacı Zeynalabdin Tağıyev 12 ünvanlarında yerləşən tarixi əhəmiyyətli binaları bərpa etmişdir.

Çox təəssüf ki, ölkəmizin qədim tarixini əks etdirən Qarabağdakı memarlıq nümunələrinin əksəriyyəti işğalçıların vandalist əməlləri nəticəsində tamamilə dağıdılmışdır. Azad olunmuş ərazilərdə yalnız bir neçə məscid və abidə bərpa olunacaq potensiala malikdir və onların bərpası milli və mədəni tariximizin qorunması üçün mühümdür. Hazırda Heydər Əliyev Fondu bu sahədə olan geniş təcrübəsi ilə Qarabağda bir çox əhəmiyyətli layihələr icra etməkdədir. Şuşada Gövhərağa Məscidi, bir sıra tarixi evlər, Ağdamda Cümə Məscidi Fondun bərpa etdiyi tarixi abidələrimiz siyahısındadır. Təbiidir ki, tarixi və mədəni irsimizin qorunması, onların gələcək nəsillərə çatdırılması istiqamətində Heydər Əliyev Fondunun fəaliyyətləri təqdirəlayiqdir.



**Vasif Əliyev**
UNEC

# QARABAĞDA KONQRES TURİZMİNİN **İNKİŞAF PERSPEKTİVLƏRİ**

Konqres turizminin seçimindəki xüsusiyyətlər həm turizm həm də, konqres turizmi baxımından turistik cazibə elementləri əhəmiyyətlidir. Konqres turizminin bir ölkədə kortəbii şəkildə baş verməsi gözlənilə bilməz. Bunun mümkün olması üçün ölkənin coğrafi mövqeyi, iqlimi, təbii gözəllikləri, tarixi və mədəni sərvətləri ilə yanaşı, müəyyən infrastruktur imkanları olmalıdır. Buna görə də ümumi turizm üçün uyğun olan hər bir destinasiya konqres turizmi üçün yetərli olacağını demək düzgün olmaz. Mütəxəssislər vurğulayırlar ki, konqres turizmi baxımından şəhərlər ölkələrə nisbətən daha çox üstünlük təşkil etməli və təbliğ edilməlidir. Qurultayın keçiriləcəyi şəhərin müəyyənləşdirilməsində nəzərə alınan amillər aşağıdakılardır:

- Şəhərin cəlbediciliyi (tarixi, təbii, iqtisadi və sosial-mədəni elementlər),
- Konqres obyektlərinin və qurğularının standartları,
- Təşkilatçıların peşəkarlığı,
- Mehmanxanaların növləri və keyfiyyəti,
- Nəqliyyat və əlçatanlıq,
- Təhlükəsizlik və sağlamlıq,
- Qida və içki, alış-veriş, istirahət,
- Təklif olunan xidmətin qiymətinə uyğun olması

Ancaq bütün bu amillərin bütövlükdə təsirli olması ilə bəzi xüsusi vəziyyətlərin digərlərindən fərqli təsirlər yarada biləcəyi görünür. Məsələn, destinasiya haqqında müxtəlif məlumatların internetdən əldə edilməsi təyinat yerinin seçilməsində təsirli olduğu ifadə edilir. Əslində, bir bölgənin konqres məkanı olması üçün o bölgənin müasir zəmanənin tələblərinə uyğun gəlməsi labüddür.

*Bir bölgənin konqres məkanı olması üçün o bölgənin müasir zəmanənin tələblərinə uyğun gəlməsi labüddür*

### Konqres Mərkəzlərinin Xüsusiyyətləri

Bu gün dünyanın bir çox ölkəsi konqres mərkəzinə çevrilməyə çalışır. Lakin konqres turizmi sahəsində mərkəzə çevrilmək lazımi infrastruktur keyfiyyət göstəricilərinin yuxarı olmasını tələb edir. İnfrastrukturdakı çatışmazlıqlar sistemin düzgün işləməsinə mane olacaq və təşkilatçı seçiminə mənfi təsir göstərəcək. Lakin bu imkanlar özlüyündə həmin ölkədə və ya regionda konqres turizminin inkişafı üçün kifayət etmir. ABŞ-da aparılan araşdırmada Qida və içki xidmətinin keyfiyyəti, Qonaq otaqlarının sayı, ölçüsü və həcmi, Hesab-faktura prosesinin mümkünlüyü, Qeydiyyatın qəbulu və gedişi proseslərinin səmərəliliyi, Görüş üçün personalın təyin edilməsi, Havalandırma kimi dəstək xidmətlərinin mövcudluğu, Obyekt və




işçi heyəti ilə keçmiş təcrübə, Obyekt daxilində qolf meydançası, tennis kortu kimi istirahət zonaları, Hava limanına yaxınlıq, Hava yolundan başqa digər nəqliyyat növləri ilə müqayisədə daşınma asanlığı, İştirakçıların əvvəlcədən qeydiyyatı kimi xüsusi xidmətlərin göstərilməsi, Sərgi sahələrinin olması, Suit otaqlarının sayı və ölçüsü, alış-veriş, restoranlar və əyləncə məkanlarına yaxınlıq, obyektin müasirliyi, bu məsələlərin hər biri üçün 100% üzərindən 80%-dən çox bal toplayan bölgə dünya səviyyəli konqres mərkəzi sayıla bilər. Konqres təşkilatçıları öz reklamlarında və şüarlarında bu detalları tez-tez vurğulayırlar.

## Qarabağın sahib olduğu imkanlar

Qarabağ ölkəmizdə konqres turizmi sahəsində potensialı olan vilayətlərdən biridir. Qarabağ bölgəsindəki bölgələr zəngin mədəni irsi, tarix boyu bir çox sivilizasiyalara ev sahibliyi etmiş coğrafiyası, əsasən də öyrənilməmiş təbii potensialı ilə bu ərazidə kifayət qədər istifadə olunmayan bir məkandır.
Prezident İlham Əliyevin göstərişi ilə ermənilər tərəfindən güllələbaran edilmiş dahi şəxsiyyətlərimizin – Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün büstləri gətirildi və mərkəzi meydanda qoyuldu. Üç məsciddə təmir-bərpa işləri başlandı, Vaqif Poeziya günləri və "Xarıbülbül" festivalı da bərpa olundu. Bütün bu mədəni fəaliyyətin bərpasında Heydər Əliyev Fondunun rolu danılmazdır. Qısa bir müddət ərzində Şuşada "Qarabağ" və "Xarıbülbül" hotelləri istifadəyə verildi. Qarabağda 3 hava limanının tikilməsi də təsadüfi deyildir. Füzuli Hava Limanı artıq fəaliyyətə başlamışdır, Zəngilan və Laçın Hava Limanlarının da yaxın vaxtlarda fəaliyyətə başlaması istisna olunmur. Bu isə Qarabağın incisi hesab olunan və Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinə gəlmək istəyən, Kəlbəcərin füsunkar təbiəti, ekoturizm imkanları, İstisu kurortuna üz tutan istər yerli, istərsə də xarici turistlərin bu hava limanlarından istifadə etməklə səyahətlərini daha rahat və asan gerçəkləşdirmələrinə imkan yaradacaqdır. Gələcəkdə Füzuli-Xocavənd-Şuşa-Laçın, Füzuli-Cəbrayıl-Zəngilan, Zəngilan-Qubadlı-Kəlbəcər-Laçın, Bərdə-Ağdam istiqamətlərində turizm marşrutlarının təşkili nəzərdə tutulur. Şuşanın Azərbaycanın Mədəniyyət paytaxtı elan edilməsi turistlərin də diqqətindən yayınmayacaq. Artıq şəhərdə rəngarəng tədbirlərin təşkili, festivallar, turizm məhsullarının təqdimi, beynəlxalq sərgilərin və digər mədəni-kütləvi görüşlərin keçirilməsi böyük maraq doğurur. Qarabağın turizm fəaliyyətinin bərpası üçün bəzi otellər açılmış, bəziləri də yaxın zamanda istifadəyə veriləcəkdir. Misal olaraq aşağıdakı otelləri vermək olar:

**QARABAĞIN YAŞIL IQTISADIYYAT VƏ YAŞIL ENERJI BÖLGƏSI KIMI YENIDƏN QURULMASI BÖLGƏDƏ DAYANIQLI MƏSKUNLAŞMA VƏ DAYANIQLI IQTISADI FƏALIYYƏTLƏR BAXIMINDAN BÖYÜK ƏHƏMIYYƏT DAŞIYIR.**

**100**

**MİN YENİ YAŞAYIŞ VAHİDİNİN İNŞASINA EHTİYAC OLACAQ**

## Qarabağ otel

Beş mərtəbədən və 150 nömrədən ibarət "Otel və Konfrans Mərkəzi"ndə otaqlar, restoranlar, konfrans korpusları, daxili həyətlər olacaq.

## Park Forest Otel Ağdam

Bildirildi ki, 2,16 hektar ərazidə inşa ediləcək "Park Forest Otel Ağdam" mehmanxanası 110 nömrədən ibarət olacaq. Mehmanxananın ərazisində əsas bina ilə yanaşı, konfrans mərkəzi, açıq havada üzgüçülük hovuzu, uşaq oyun meydançası, gəzinti yolları və istirahət zonaları yaradılacaq. Tikinti işlərinin 2024-cü ilin dekabrında başa çatdırılması nəzərdə tutulub.




**Xarıbülbül" hoteli**
Məlumat verildi ki, hoteldə ümumilikdə 49 otaq var. Onların hamısı qonaqların qalması və rahat istirahət etməsi üçün bütün zəruri infrastrukturla təchiz olunub. Bu cür obyektlərin istifadəyə verilməsi Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşanın turizm potensialının möhkəmləndirilməsində çox mühüm rol oynamaqla yanaşı, işğaldan azad edilmiş ərazilərimizdə, o cümlədən tarixi Şuşa şəhərində icra olunan sosial layihələrin ardıcıl və sürətlə davam etdiyini göstərir.

**Qarabağda Konqres Turizm imkanlarının SWOT analizi**
Hal-hazırki vəziyyəri nəzərə alaraq, əlimizdə kifayət qədər statistik göstərici olmadığından SWOT analizi vasitəsi ilə Konqres Turizminin inkişaf perspektivlərini tədqiq etmək daha uyğun görünür:

**Güclü tərəflər:**
• Ölkənin maliyyə və bank sektorunda baş verən beynəlxalq yeniliklərə ayaq uydurması, onlayn ödəniş, kredit kartı, pul köçürməsi, və s. fəaliyyətləri həyata keçirmək asandır.
• Turizm Agentliyində tədbir və konqres turizminin strateji və əməliyyat planlarına cəlb edilməsi, məsələyə önəm verilməsi.
• Tədbir və konqres turizminə ictimai təşəbbüslər və hökumət dəstəyinin olması.
• Tədbir və konqres turizminin təşviqi, reklam və marketinq fəaliyyətlərinə önəmli büdcə ayrılması
• Ölkə nəqliyyatında rast gəlinən nəqliyyat sıxlığı və s. problem yoxdur.
• Konqres Bürosu kimi təşkilatların sayı azdır.
• Tədbir və konqres prosesində qarşıya çıxan bürokratik maneələrin azlığına diqqət edilməsi.

**Zəif Tərəflər:**
• Qarabağın konqres mərkəzlərinin, hotellərinin və s. təşkilatların konqres və iclas otaqlarının azlığı.
• Yaşayış və iaşə obyektlərinin qıtlığı.
• Erməni işğalı nəticəsində təbii, tarixi və mədəni dəyərlərin məhv edilməsi, zədələnməsi.
• Nəqliyyat şəbəkəsi və infrastruktur inkişaf etdirilib və inkişaf etməkdə davam edir.
• Səyahət agentlikləri və Konqres təşkilatçısı şirkətləri azdır.
• Konqres və toplantı təşkilatlarında istifadə oluna biləcək texnoloji infrastruktur və avadanlıqların olmaması.
• Tədbir və konqres turizmi çərçivəsində qiymətləndirilə bilən ixtisaslı kadrların qeyri-kafi olması.
• İnvestisiya stimullarının kifayət qədər olmaması.
• Turistik istiqamətlər arasındakı məsafə.
• İstirahət fəaliyyəti üçün seçimlərin olmaması.
• Az sayda yerli, milli və beynəlxalq tədbirlər təşkil edilmişdir.

**Fürsətlər:**
• Dünyanın bir çox ölkəsi tədbir və konqres. təşkilatçıları yeni bölgələrlə maraqlanmağa başlayıb.
• Tədbir və konqres turizminin digər turizm növləri ilə asanlıqla inteqrasiya oluna bilən xüsusiyyəti.
• Coğrafi yer, iqlim və s. amillərin uyğunluğu.
• Təşkil olunan tədbirlərdə iştiraka tələbatın hər il daha da artması.
• Avropa ölkələrinə yaxınlıq.
• Tədbir və konqres turizmi fəaliyyətləri ilin bütün aylarında həyata keçirilə bilər.
• Tədbir və konqres turizmi ilə inteqrasiya oluna bilən alternativ turizm növlərinə tələbatın artması və bu baxımdan Qarabağın yüksək rəqabət qabiliyyəti.

**Təhdidlər:**
• Azərbaycanın Qarabağ bölgəsində "Təhlükəsiz ölkə" anlayışını sarsıdan terror aktları müharibənin davam etməsi və xüsusilə ondan təsirlənən sərhədyanı şəhərlər.
• Rəqiblərin Qarabağın potensial mənfi təsirlərindən istifadə etməsi, mənfi imic yaratmaq cəhdləri.
• Bəzi xarici turoperatorlar Azərbaycanı öz tur planlarından çıxarır.
• Avropa İttifaqının üzv ölkələrin turizm üzrə təşkilatlarına öz aralarında dəstəyi.
• Sektor üzrə ölkələr arasında gərginliyin əks olunması.

**Yalçın Köçərli**
UNEC



# QARABAĞDA MƏDƏNİYYƏT TURİZMİNİN **İNKİŞAF ETDİRİLMƏSİ YOLLARI**

Turizmin iqtisadiyyatda rolu onun sosial-mədəni inkişafda, iqtisadi artımda, tarazlı iqtisadi siyasətdə və beynəlxalq iqtisadi əlaqələrdə xüsusi çəkisi ilə müəyyənləşir. İqtisadi inkişafın müasir mərhələsində həm ənənəvi sahələr üzrə, həm də yüksək texnologiyalar, informasiya və bilik iqtisadiyyatı sahələrində müqayisəli üstünlüklərin təyin edilməsi ilə qlobal iqtisadi sistemdə Qarabağ destinasiyasının iştirakı və ixtisaslaşması əsas prioritetlərdən hesab olunur. Həmçinin, qlobal problemlərin həll edilməsi prosesində və beynəlxalq inkişafın humanitar, innovativ və texnoloji potensialının formalaşmasında işğaldan azad olunmuş ərazilərin yaxından iştirak etməsi təmin edilməlidir.

> *Qlobal problemlərin həll edilməsi prosesində və beynəlxalq inkişafın humanitar, innovativ və texnoloji potensialının formalaşmasında işğaldan azad olunmuş ərazilərin yaxından iştirak etməsi təmin edilməlidir*

Qarabağda mədəni turizmin əsas cəhətlərindən biri onun mövsümi deyil, ilin bütün fəsillərində həyata keçirilməsini təmin etməkdir. Qarabağda mədəni turizmin inkişaf səviyyəsi sivil və mədəni tərəqqinin göstəricisidir. Vandal Ermənistan dövləti tərəfindən tarixdən silinməsi nəzərdə tutulmuş tarixi abidələrimizin bərpası mədəni turizmin inkişafını sürətləndirən vasitələrdən biri kimi əsaslandırılmalıdır.

Bütövlükdə Qarabağın qədimliyini, bəşər sivilizasiyasının formalaşmasındakı rolunu sübuta yetirmək və Qarabağ mədəniyyətinin mədəni irs nümunələrinin dünyaya tanıdılması vətəndaş kimi hər birimizin üzərinə mühüm vəzifələr qoyur. Azərbaycanın hərbi-diplomatik uğuru və beynəlxalq birliyin respublikamıza etimadının təzahürü kimi mədəni layihələrə birbaşa dəstək nümayiş etdirməsi dövlət başçısının qlobal miqyasda nüfuzunun göstəricisi kimi qiymətləndirilir.

Qarabağda mədəni turizmin inkişaf amili kimi Qarabağın beynəlxalq imicinin formalaşdırılması, Qarabağ brendindən istifadə üzrə uzunmüddətli fəaliyyət planının işlənib hazırlanması və fəaliyyət göstərməsi, rebrendinq seçimi, mədəni turizm həvəskarlarının məmnuniyyətinin artırılması kimi vəzifələr aktuallıq kəsb edir.



Qarabağda mədəni turizmi kreativ iqtisadiyyatın zəruri inkişaf amili kimi dəyərləndirmək mümkündür. Qarabağda mədəniyyət turizmin inkişaf etdirilməsinin əsas yolu Qarabağın böyük mədəni irsi, qədim və zəngin tarixi, müsiqi mədəniyyəti, xalçaçılıq ənənələri, folklor, milli kulinariya və dini abidələrin təbliğidir.
Destinasiyada mədəniyyət turizminin inkişafı məqsədilə Azərbaycanın Beynəlxalq Turizm Sərgilərində Qarabağ stendi ilə çıxış etməsi, Beynəlxalq aviaşirkətlərin ekonom sinifdən olan təyyarələrlə Qarabağa səfər edən turistlərə nəqliyyat xidmətləri göstərməsi əsas marketinq tədbirlərindən hesab edilə bilər. Destinasiyada Qarabağ mədəniyyətinin incilərini özündə əks etdrən suvenir, xalça, geyim aksessuarlarının istehsalı müəssisələrinin yaradılması, Qarabağ mətbəxi nümunələrinin satış prosesinin hava limanlarında və “Zəfər yolu” marşrutu üzrə butiklərdə həyata keçirilməsi həm yerli, həm də xarici turistlərdə böyük maraq oyadacaq.
Qarabağda tarix və mədəniyyət qoruqlarında müvafiq infrastrukturun yaradılması mədəniyyət turizminin inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Qeyd olunan tədbirlərin iqtisadi səmərəsi regional inkişafa birbaşa təsir göstərməklə, yerli və xarici investorların Qarabağ iqtisadiyyatına investisiya qoyuluşuna, yeni iş yerlərinin yaradılmasına, məşğul əhalinin sayının artmasına təsir göstərəcək.
Qarabağda mədəni turizmin inkişaf etdirilməsinin əsas istiqamətlərindən biri bərpa edilmiş, o cümlədən bərpası nəzərdə tutulan mədəni abidələrimizin pasportlaşdırılması və yerləşdikləri ərazilərə turizm marşrutlarının müəyyən edilməsidir. Ölkəmizdə qonaq olacaq mədəni turizm həvəskarlarının işğaldan azad olunmuş ərazilərin mədəniyyəti ilə tanışlığı prioritet istiqamətlərdəndir. Bakı şəhərinə gələn turistlərin Dövlət Turizm Agentliyinin xətti ilə Qarabağ destinasiyasına səfərlərinin təşkili regionun turizm əhəmiyyətliliyini artırmış olacaq. Qarabağ destinasiyasının inkişafı birbaşa mədəni turizmin inkişafı ilə bağlıdır.
Cənab prezident işğaldan azad olunduqdan sonra Azıx mağarasını ziyarəti zamanı onu tarixi sərvətimiz kimi qeyd edərək bu ərazinin əhəmiyyəti barədə geniş fikir bildirmişdir. 30 il işğaldan sonra Azərbaycan tarixinin rəmzi olan dünyanın dördüncü, Qafqazın isə birinci yaşayış məskəni olan Azıx mağarasının bərpası və turistlərin istifadəsinə təqdim olunması Xocavənd rayonunda mədəni turizmin inkişafına böyük töhvə hesab edilə bilər. Qeyd etməliyik ki, 2001-2009-cu illər Azıx mağarasında qeyri-qanuni arxeoloji qazıntılar zamanı əmək alətləri, sümükdən olan alətlər Londona aparılıb. Bu əraziyə yaxın olan Füzuli aeroportu beynəlxalq və milli turizmin inkişafında, o cümlədən turistlərin komfortlu daşınmasında əsas infrastrukturlardan biridir.
2021-ci il iyunun əvvəlində Heydər Əliyev Fondu tərəfindən Şuşada üç dini binanın, Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa və Saatlı məscidlərinin bərpasına başlanmışdır. 2021-ci il 22 iyunda Azərbaycan Respublikasının Prezidenti Şuşa Şəhər Dövlət Qoruğunun yaradılması haqqında sərəncam imzalamışdır. Prezident İlham Əliyevin tapşırığına əsasən Cıdır düzünə yaxın ərazidə yerləşən Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi yenidən qurularaq onun tarixi görkəmi tam bərpa edilməklə 2021-ci il 29 avqustda açılışı olmuşdur. Azərbaycan müsiqi





mədəniyyətinin inkişafında böyük xidmətlər göstərən xalq artisti Bülbülün ev muzeyi yenidən bərpa olunub. Mədəniyyətimizin beşiyi olan tarixi Şuşa qalasının bərpası zamanı onun tarixi görünüşü olduğu kimi qorunub saxlanılıb.
Vaqif poeziya günlərinin, “Xarıbülbül” Musiqi Festivalının hər il Beynəlxalq səviyyədə Şuşada keçirilməsi mədəni turizmin inkişafına dəstək ola bilər. 2021-ci ilin mayın 12-də Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə 30 ildən sonra Qarabağda keçirilən ilk “Xarı Bülbül” Beynəlxalq Musiqi Festivalında avar, azərbaycanlı, kürd, ləzgi, rus, talış, tat, tatar, saxur, gürcü musiqiçiləri çıxış etmişdir. 2021-ci il sentyabrın 18-24-də Şuşada Üzeyir Hacıbəyov adına XIII Beynəlxalq Musiqi Festivalı keçirilmiş, bu festivalda Azərbaycanın bədii kollektivləri və solistləri ilə yanaşı, ABŞ və Polşa musiqiçiləri də çıxış etmişdir.
Qarabağ destinasiyasında mədəni turizmin inkişafı tədbir proqramlarının rəngarəngliyindən asılı olacaq. Tədbir proqramlarının geniş olması turistlərin bu ərazidə qalma müddətinin artması, Qarabağ kulinariyasının geniş təbliği, xalçaçılıq nümunələrinin nümayişi və satışı iqtisadiyyatının inkişafına səbəb olacaq. Xüsusilə vurğulamaq lazımdır ki, Şuşa şəhərində abadlıq işlərinin geniş vüsət alması, o cümlədən 4 və 5 ulduzlu hotellərin inşası qeyd olunan tədbirlər zamanı turistlərin göstərilən sosial-mədəni xidmətlərlə məmnun edəcək. Vandal Ermənistan dövləti tərəfindən talan edilmiş, yandırılmış və dağıdılmış Azərbaycan Xalçası Dövlət Muzeyinin filialı, Şuşa Dövlət Dram Teatrı, Şərq musiqi alətləri fabriki, Dövlət Rəsm Qalereyasının bərpa edilərək yenidən fəaliyyətə başlaması ərazidə mədəni turizmin inkişafını sürətləndirəcək tədbirlərdən hesab edilə bilər.
Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosu tərəfindən “Yolumuz Qarabağa” adlı turizm marşrutları konsepsiyasında “Yolumuz Füzuliyə” və “Yolumuz Ağdama” marşrutu üzrə səfərlər mədəni turizmin inkişaf prosesini sürətləndirmiş olacaq.
Ağdam rayonu üzrə Kəngərli kəndində VI əsrə aid Məbəd, XVIII əsrə aid Ağdam şəhərində Pənah xanın imarəti Qarabağ mədəniyyətinin əsas incilərindən hesab edilməklə bərpa edilməlidir. Ağdam Cümə Məscidinin ölkə prezidenti tərəfindən onun bərpası haqqında və əvvəlki görkəminə qaytarılması bu ərazinin mədəni turizm baxımından inkişafına səbəb olacaq.
Ağdamın İmarət deyilən ərazisində XVIII əsrə aid abidələr, Xan qızı Xurşidbanu Natavanın və onun oğlunun dağıdılmış türbələrinin bərpası istiqamətində tədbirlər mütləqdir. Qədim mədəniyyət mərkəzi olan Ağdamda çörək muzeyinin bərpası mədəni turizmin bu ərazidə inkişafı istiqamətində atılmış addım kimi qiymətləndirilə bilər. Dünyada ikinci, MDB-də isə birinci və yeganə hesab edilən Ağdam Çörək Muzeyinin bərpası xarici turistlərin marağına səbəb ola bilər. Bu layihə əsasında Çörək Muzeyinə yaxın ərazidə Ağdamın kulinariya ənənələrini əks etdirən milli brendlərin patentləşdirilməsi, iaşə müəssisələrinin yaradılması və məhsulların hazırlanma prosesinin turistlərin iştirakı ilə həyata keçirilməsi bu ərazinin turizm potensialının daha geniş istiqamətdə inkişafına səbəb olacaq. Milli musiqi sənətinə töhfələr vermiş Ağdamın musiqi xadimlərinə həsr olunmuş muzeyin yaradılması, qədim çalğı alətlərinin, muğam sənətinin incilərinin muzeydə nümayiş etdirilməsi mədəniyyət turizminə töhfə kimi qiymətləndirilə bilər.

**QARABAĞDA KEÇİRİLƏN İLK “XARI BÜLBÜL” BEYNƏLXALQ MUSİQİ FESTİVALINDA AVAR, AZƏRBAYCANLI, KÜRD, LƏZGİ, RUS, TALIŞ, TAT, TATAR, SAXUR, GÜRCÜ MUSİQİÇİLƏRİ ÇIXIŞ ETMİŞDİR**



**Gülnar Mirzəyeva**
UNEC



# QARABAĞDA “YAŞIL İQTİSADİYYAT” PERSPEKTİVLƏRİ

Yaşıl iqtisadiyyat inkişaf etmiş ölkələrdə daha çox ekoloji problem olduğu halda inkişaf etməkdə olan ölkələrdə daha çox iqtisadi problemdir və yeni iş yerlərinin yaradılması ilə bağlıdır. Yaşıl iqtisadiyyatın inkişafı hər iki ölkə qrupu üçün həlledici əhəmiyyət kəsb edir və nəticədə səmərəliliyə, məhsuldarlığın artmasına və yeni iş yerlərinin yaradılmasına gətirib çıxarır. Xüsusilə də inkişaf etməkdə olan ölkələrdə yaşıl iqtisadiyyatın inkişafında dövlət qurumları arasında sıx koordinasiya tələb olunur, çünki bir çox hallarda bu ölkələr iqtisadi siyasətlə ekoloji siyasət arasında ziddiyyətli fəaliyyətlər həyata keçirirlər. Azərbaycan 2015-2030-cu illər üçün BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin uğurla həyata keçirilməsini təmin etmək üçün çalışır. Bu kontekstdə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” sənədinə əsasən növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair aşağıdakı beş Milli Prioritet reallaşdırılmalıdır:

*İnkişaf etməkdə olan ölkələrdə yaşıl iqtisadiyyatın inkişafında dövlət qurumları arasında sıx koordinasiya tələb olunur, çünki bir çox hallarda bu ölkələr iqtisadi siyasətlə ekoloji siyasət arasında ziddiyyətli fəaliyyətlər həyata keçirirlər*

1. dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;
2. dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
3. rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
4. işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış;
5. təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi.

Ölkəmizdə yaşıl iqtisadiyyatın inkişafı 5 prioritetin beşincisində öz əksini tapmışdır. Bu prioritet kontekstdə qlobal iqlim dəyişikliyinin miqyasını nəzərə alaraq, ekoloji cəhətdən təmiz texnologiyaların tətbiqinə üstünlük verilməsi, təmiz enerji mənbələrindən istifadə, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpasını təşviq etmək hədəflənmişdir.

Yaşıl iqtisadiyyatın 5 əsas prioritetdən biri olduğunu nəzərə alaraq, ölkəmizdə yaşıl iqtisadiyyata keçidin təmin edilməsi istiqamətində bir çox işlər həyata keçirilir. Bu prioritet çərçivəsində strateji dövrdə aşağıdakı iki hədəfə səmərəli şəkildə nail olunması nəzərdə tutulur:

1. Yüksək keyfiyyətli ekoloji mühit;
2. Yaşıl enerji sahəsi.

2021-ci il mayın 3-də isə Prezident



“Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində “yaşıl enerji” zonasının yaradılması ilə bağlı tədbirlər haqqında” sərəncam imzalamışdır. Dövlət başçısı bu ərazilərdə “yaşıl enerji” zonasının yaradılması ilə əlaqədar müvafiq konsepsiyanın və baş planın hazırlanması üçün ixtisaslaşmış beynəlxalq məsləhətçi şirkətin cəlb edilməsi məqsədilə 2021-ci ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Energetika Nazirliyinə 1 milyon 391min 40 ABŞ dollarının manat ekvivalenti məbləğində vəsait ayrılmasını qərara almışdır. Eyni zamanda, regionda “yaşıl artım”ın həyata keçirilməsi, ağıllı şəhərin yaradılması, resurs səmərəliliyinin təmin edilməsi, bərpa olunan enerji resurslarından istifadənin artırılması istiqamətində işlər aparılır. İşğaldan azad edilmiş ərazilərdə külək, günəş, hidro, geotermal və bioenerji kimi bərpaolunan enerji potensialından səmərəli istifadə, enerji səmərəliliyi texnologiyaları, müasir enerji idarəetmə yanaşmaları əsasında regionun enerji təminatını həyata keçirmək üçün yaşıl enerji zonasının yaradılması ilə əlaqədar müvafiq konsepsiyanın hazırlanması məqsədilə Azərbaycan Respublikası Energetika Nazirliyi ilə Yaponiyanın “TEPSCO” şirkəti arasında müqavilə imzalanmışdır. Layihə çərçivəsində sözügedən ərazilərdə iqtisadi inkişaf və əhalinin məskunlaşmasından asılı olaraq enerjiyə tələbat və enerji təchizatı ssenariləri əhatə ediləcək, bərpaolunan enerjinin şəbəkəyə inteqrasiyası, şəhərsalma, nəqliyyat, enerji effektivliyi, tullantıların idarə edilməsi, ağıllı şəbəkələr, yaşıl maliyyələşdirmə və digər məsələlərə baxılacaq. Yaşıl enerji sahəsində beynəlxalq təcrübəyə malik “TEPSCO” şirkəti tərəfindən Yaponiya, Malayziya, İndoneziya, Vyetnam, Braziliya və Tailandda ağıllı şəhər layihələri çərçivəsində yaşıl həllər təklif edilib. Qarabağın bərpaolunan enerji istehsalı üçün potensialı böyükdür. Yer səthinə düşən günəş radiasiyasının miqdarına görə Qarabağın cənub düzənlik hissəsi Naxçıvan Muxtar Respublikası ərazisindən sonra ikinci yerdə dayanır. Burada bir kvadratmetr üfüqi səthə düşən günəş radiasiyası ildə 1600-1700 kilovat/saat təşkil edir. Bu ərazilərin ümumi günəş enerjisi potensialı 3000-4000 meqavatdır. Qarabağda, eləcə də külək enerjisi istehsal etmək mümkün olacaq. Belə ki, regionun dağlıq hissəsində 100 metr hündürlükdə küləyin orta illik sürətinin saniyədə 7-8 metr olduğu geniş ərazilər mövcuddur. Ümumilikdə Qarabağın dağlıq ərazilərində külək enerjisinin potensialı 300-500 meqavat kimi qiymətləndirilir. Eyni zamanda, Şuşada termal su ehtiyatları var. Qarşıda dayanan vəzifələrdən biri də termal mənbələrdən enerji məqsədli istifadənin mümkünlüyünü tədqiq etməkdir.

**YAŞIL ENERJİ SAHƏSİNDƏ BEYNƏLXALQ TƏCRÜBƏYƏ MALIK “TEPSCO” ŞİRKƏTİ TƏRƏFİNDƏN YAPONİYA, MALAYZİYA, İNDONEZİYA, VYETNAM, BRAZİLİYA VƏ TAİLANDDA AĞILLI ŞƏHƏR LAYİHƏLƏRİ ÇƏRÇİVƏSİNDƏ**

## YAŞIL HƏLLƏR

**TƏKLİF EDİLİB**





Bu gün Azərbaycanda dayanıqlı inkişafın bir komponenti olaraq yaşıl iqtisadiyyatın qurulması istiqamətində bir çox fəaliyyət həyata keçirilir. Ölkədə iqtisadiyyatın yaşıl formasına keçid prosesinin sürətləndirilməsinə ehtiyac var və bilavasitə Qarabağ bölgəsi bu yaşıl iqtisadiyyata keçidin sürətləndirilməsində önəmli yerə sahibdir. Qarabağda görüləcək işlər Strateji Fəaliyyət Planı üzrə vahid konsepsiya əsasında həyata keçiriləcəkdir. Nəzərdə tutulmuş bölgədə müasir şəhərsalma konsepsiyası əsasında ən təkmil innovasiyaların tətbiqi sayəsində yenidənqurma işləri həyata keçirilir. Eyni zamanda, azad edilmiş ərazilərdə alternativ enerji mənbələrinin mövcudluğu nəzərə alınaraq buranın yaşıl enerji zonasına çevrilməsi böyük əhəmiyyət kəsb edir. Beynəlxalq təcrübə nəzərə alınmaqla bölgənin şəhər və kəndləri "smart-city" ("ağıllı şəhər") və "smart-village" ("ağıllı kənd") konsepsiyası əsasında yenidən qurulacaqdır ki, bu da, öz növbəsində yaşıl iqtisadiyyata öz töhvəsini verəcək.

İşğaldan azad edilmiş ərazilərin milli iqtisadiyyata sürətli inteqrasiyasının təmini, dayanıqlı inkişafı, o cümlədən, layiqli yaşayış şəraitinə nail olunması üçün həyata keçirilən genişmiqyaslı quruculuq və bərpa işləri çərçivəsində Ağdam rayonunda Ağdam Sənaye Parkının yaradılması üçün Azərbaycan Respublikası Prezidenti müvafiq Fərman imzalamışdır. Ağdam Sənaye Parkı müasir texnologiyaların tətbiqi yolu ilə sənaye sahəsində rəqabətqabiliyyətli məhsul istehsalı, emalı, həmçinin təkrar emalı və satışı, habelə xidmətlər göstərilməsi üçün istifadə edilən, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən ərazi kimi qurulub inkişaf etdiriləcəkdir. İşğaldan azad edilmiş ərazilərimizin sənaye potensialının inkişaf etdirilməsi məqsədilə yaradılan Ağdam Sənaye Parkının eko-sənaye parkına çevrilməsi yaşıl iqtisadiyyata keçid prosesində ən vacib addımlardan biri olacaq.

Ağdam Sənaye Parkı yeni yarandığı üçün yaşıl iqtisadiyyat prinsipləri əsasında qurulması baxımından digər sənaye parklarına görə üstünlüyə sahibdir. Həm sənaye parkı menecment sistemi yeni qurulacağı üçün həm də yeni rezidentlərin olacağı üçün sənaye simbiyozlarının yaradılması da mümkün olacaqdır. Bu da resursların səmərəli istifadəsinə, tullantıların azaldılmasına və ətraf mühitə vurulan zərərin azalmasına səbəb olacaq.

Qarabağın yaşıl turizm üçün də potansialı böyükdür: Qarabağın yenidənqurulması və bərpası zamanı yaradılacaq infrastruktur ekoturizm başda olmaqla hər növ dayanıqlı turizmin inkişaf etdirilməsi üçün şərait yaradacaq.

Yaşıl iqtisadiyyatın əsas vəzifələrindən olan ətraf mühitdə karbon emissiyalarının azaldılmasını nəzərə alsaq, ictimai nəqliyyatda daha təmiz nəqliyyat vasitələrinin təmin edilməsi ilə Qarabağda yaşıl nəqliyyat sistemi yaradıla biləcək. Qarabağın yaşıl enerji zona elan edilməsi, ağıllı şəhər və ağıllı kənd layihələrinin icra edilməsi, eko-sənaye parkının yaradılması, bərpa olunan enerji mənbələrindən istifadə eyni zamanda, yaşıl bacarıqların inkişaf etdirilməsi zərurəti yaradacaq və yaşıl işlərin inkişaf etdirilməsinə təkan verəcək.



**Ülviyyə Rəsul**
UNEC



# QARABAĞIN MÜQAYİSƏLİ RƏQABƏT ÜSTÜNLÜYÜ **HANSI SAHƏLƏRDƏ OLA BİLƏR?**

İşğaldan azad edilmiş ərazilərin bərpası, məskunlaşması və milli iqtisadiyyata inteqrasiyasını təmin etmək hazırda ölkənin qarşısında duran başlıca vəzifələrdən biridir. Bunun üçün həmin ərazilərdə istehsal, sosial, sosial-mədəni və idarəetmə infrastrukturunun tamamilə yenidən qurulması, məskunlaşacaq əhalinin məşğulluğu üçün iş yerlərinin yaradılması tələb olunur.

İşğaldan azad olunmuş ərazilərdə yeni yaradılan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında iqtisadiyyatın bərpası və inkişafı zamanı əsas məsələ mövcud potensial və imkanlardan düzgün yararlanmaq, müasir tələblərə cavab verən, özündə innovativ yanaşmaları təcəssüm etdirən və ən vacibi, çevik, işlək mexanizm əsasında yaradılmış kompleks bir iqtisadi sistem qurmaqdır. Bu proses zamanı bölgəyə müqayisəli rəqabət üstünlükləri verən amillərin diqqətə alınması vacibdir. Müqayisəli rəqabət üstünlüyü dedikdə digər bölgələrlə müqayisədə məlum ərazidə daha səmərəli istehsal və xidmət sahələrinin yaradılması imkanları nəzərdə tutulur.

*Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları özünün təbii iqlim və relyef şərtləri, münbit torpaqları və zəngin təbii ehtiyatları ilə ölkənin digər bölgələrindən fərqlənir*

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları özünün təbii iqlim və relyef şərtləri, münbit torpaqları və zəngin təbii ehtiyatları ilə ölkənin digər bölgələrindən fərqlənir. Sovet dövründə bu ərazilərin özünəməxsus ixtisaslaşması və yerli əhalinin müvafiq sahələr üzrə böyük təcrübəyə malik olmasına rəğmən işğal dövründə baş verən proseslər bu imkanlardan hazırda faydalanmağı mümkünsüz edir. Bununla belə ərazinin təbii iqlim üstünlükləri ilə yanaşı, yenidən məskunlaşmanın ortaya çıxardığı yeni imkanlar ərazidə iqtisadi baxımdan daha səmərəli istehsalın yaradılmasını təmin edə bilər. Bu yeni imkanlara ilk növbədə ərazidə qurulmaqda olan modern istehsal infrastrukturunu və nəqliyyat loqistika şəbəkəsini aid etmək olar. Belə ki, hazırda bu ərazilərdə nəqliyyat, elektroenergetika və digər istehsal infrastrukturlarının qurulması istiqamətində işlər sürətlə həyata keçirilməkdədir.




2021-ci ildə işğaldan azad edilmiş ərazilərdə 9 ədəd 110 kV-luq yarımstansiya tikilmiş, 360 km-dən artıq 110 kV-luq elektrik xətti çəkilmiş, Ağdam rayonunda Regional Rəqəmsal İdarəetmə Mərkəzi istifadəyə verilmiş, Şuşa şəhərində istehlakçılara elektrik xətləri çəkilmiş və elektrik təsərrüfatı yaradılmışdır. Bununla yanaşı, ortamüddətli dövrdə “Xudafərin” və “Qız Qalası” su elektrik stansiyalarının yeni yaradılacaq “Cəbrayıl” yarımstansiyasına inteqrasiya edilməsi, 10 ədəd yeni 110 kV-luq yarımstansiyanın tikintisi nəzərdə tutulur. Kəlbəcər, Laçın, Qubadlı və Tərtər rayonlarında işğaldan azad edilmiş ərazilərdə 45 ədəd su elektrik stansiyası mövcuddur. Bu kiçik su elektrik stansiyalarının bərpası regionun elektrik enerjisi ilə təminatında əhəmiyyətli rol oynaya bilər. Artıq Qubadlı rayonunda 8 MVt gücündə “Güləbird” su elektrik stansiyası, Tərtər rayonunda ümumi gücü 7,8 MVt olan “Suqovuşan-1” və “Suqovuşan-2” su elektrik stansiyaları, Kəlbəcər rayonunda 4,4 MVt gücündə “Kəlbəcər-1” su elektrik stansiyası bərpa edilmişdir.

Ərazidə müasir tələblərə cavab verən və nəinki ölkənin bölgələrini bir-biri ilə bağlayan, habelə Azərbaycanın qonşu ölkələrə çıxışını təmin edəcək nəqliyyat-loqistika infrastrukturunun yaradılması prosesi sürətlə davam etdirilməkdədir. Belə ki, Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu, Tərtər rayonunun Suqovuşan qəsəbəsinə və Talış kəndlərinə gedən avtomobil yolu, Xanlıq-Qubadlı yolu və Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu istifadəyə verilmiş, Göygöl və Kəlbəcər rayonlarını birləşdirən Toğanalı-Kəlbəcər avtomobil yolunun, Kəlbəcər-Laçın avtomobil yolunun, Talış-Tapqaraqoyunlu-Qaşaltı-Naftalan avtomobil yolunun, Xudafərin-Laçın yolunun inşası üzrə işlər isə həyata keçirilməkdədir. Qeyd edilənlərlə yanaşı, Füzuli rayonunda Beynəlxalq Hava Limanı istifadəyə verilmiş, Zəngilan Hava Limanının tikintisi üzrə işlər aparılır. Bundan başqa, Horadiz-Ağbənd və Bərdə-Ağdam dəmir yolu xəttinin, Füzuli-Şuşa dəmir yolu xəttinin tikintisi ilə bağlı işlərə də başlanılmışdır.

Azərbaycanın bu ərazisində nəqliyyat infrastrukturunun bərpa edilməsi ölkənin tranzit potensialından istifadə və Naxçıvanın nəqliyyat əlaqələrinin yaxşılaşdırılması baxımından da əhəmiyyətlidir. Belə ki, Rusiya, Azərbaycan, İran və Türkiyə arasında dəmir yolu xərtlərinin əlaqələndirilməsinə imkan verən Zəngəzur dəhlizinin və İrandan keçməklə yaradılacaq nəqliyyat (avtomobil və dəmir) yollarının istifadəyə verilməsi Şimal-Cənub və Qərb-Şərq dəhlizləri üzrə yük dövriyyəsinin artırılmasına, bununla bağlı xərclərin azaldılmasına imkan verəcək. Bu baxımdan, regionun infrastruktur potensialı kifayət qədər yüksək qiymətləndirilir və əraziyə rəqabət üstünlüyü qazandırır.

Ərazinin torpaq və iqlim şərtləri regionda məhsuldar kənd təsərrüfatı istehsalına, çox sayda



kiçik və orta müəssisələrdən təşkil olunmuş aqrar-sənaye kompleksinin formalaşdırlmasına və turizmin inkişafına geniş imkan yaradır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadiyyatının əsasını təbii ki, kənd təsərrüfatı təşkil edəcəkdir. Regionun Ağdam, Füzuli və Tərtər rayonlarında mövcud torpaq sahələrinin 50%-dən çoxu, Cəbrayıl rayonunda təqribən 45%-i, Zəngilan və Qubadlı rayonlarında təqribən 35%-i, Laçın və Kəlbəcər rayonlarında isə təqribən 10%-i əkinə yararlı sahələrdir. Regionun bütün inzibati rayonlarında heyvandarlığın inkişafı üçün imkanlar mövcuddur: bu ərazinin təqribən 38,0%-ni örüş və otlaqlar təşkil edir. Təsadüfi deyil ki, işğaldan əvvəlki dövrdə respublika üzrə mövcud iribuynuzlu mal-qaranın təqribən 15%-i, xırdabuynuzlu heyvanların isə 20%-ə qədəri bu ərazilərin payına düşürdü. Heyvandarlığın inkişafındakı müasir meylləri nəzərə alsaq, gələcəkdə bu ərazilərin heyvandarlıq məhsulları istehsalı potensialının daha böyük olduğunu söyləyə bilərik. Bu regionun arıçılıq və baramaçılıq potensialı da yüksək qiymətləndirilir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının turizm potensialı da yüksəkdir. Bütövlükdə, Şuşa, Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan və Xocəvənd rayonları mədəni, sağlamlıq, istirahət, ekoturizm kimi müxtəlif turizm xidmətlərinin göstərilməsi sahəsində rəqabət üstünlüklərinə malikdir. Kəlbəcərdə "İstisu" sanatoriyası bərpa edilə, dağ-turizm kompleksi yaradıla bilər. Eyni zamanda, Laçında 20-dən artıq müalicə əhəmiyyətli suyun olduğunu və ərazinin dağlıq relyefə malik olduğunu nəzərə alaraq, müalicə-istirahət komplekslərinin və dağ turizmini inkişaf etdirmək mümkündür. Ərazinin tarixi abidələri (məsələn, Azıx mağarası, Xudafərin körpüsü, multikulturalizmin ifadəsi olan dini abidələr və s.) və işğalın nəticələrini özündə əks etdirəcək yeni muzeylərin yaradılması tarixi turizmin inkişafına mühüm töhfə verəcəkdir.
Ərazinin müqayisəli rəqabət üstünülüyünü təmin edəcək sahələrdən biri də tikinti materialları istehsalıdır. Bu iqtisadi zonalara daxil olan rayonların demək olar hamısı müxtəlif növ tikinti materialları ehtiyatlarına malikdir. Ümumilikdə ərazidə 100-dən çox tikinti materialları üzrə faydalı qazıntı ehtiyatları mövcuddur. Ərazilərin bərpası və məskunlaşması prosesində həyata keçirilən geniş miqyaslı tikinti işlərində məhz bu regionun tikinti materialları ehtiyatlarından istifadə olunması həm daha səmərəli ola bilər, həm də çoxsaylı iş yerlərinin yaradılmasını təmin edə bilər.
Hesab edirik ki, bu regionun inkişafı onun yalnız mövcud təbii müqayisəli üstünlükləri əsasında deyil, həm də məqsədyönlü şəkildə məhz bu region üçün yeni yaradılmış rəqabət üstünlüklərinə əsaslanmalıdır. Bu baxımdan ərazidə yüksək əlavə dəyər yarada biləcək mürəkkəb texnoloji istehsal sahələrinin yaradılması məqsədəuyğundur. Bölgənin konfliktsonrası reabilitasiyası, həyat təminatı və infrastruktur sistemlərinin, istehsal müəssisələrinin, sosial obyektlərin, mədəniyyət təsisatlarının, yəni həyat üçün hər bir şeyin faktiki olaraq tamamilə yenidən ("sıfırdan") yaradılmasını nəzərdə tutulur. Əlbəttə, bu proses böyük miqdarda resurslar tələb edəcək. İşğaldan azad olunmuş ərazilərdə köhnənin (yəni, iqtisadiyyatın işğaldan əvvəlki strukturunun) bərpasındansa, müasir çağırışlara uyğun yeni iqtisadi strukturun yaradılması daha səmərəli ola bilər. Bu baxımdan, Maykl Hammerin biznes proseslərinin fundamental və radikal yenidən layihələndirilməsi üçün təklif etdiyi 3 prinsipini xatırlamaq vacibdir: "təmiz vərəq", böyük həcmli innovasiyalar və müasir informasiya texnologiyaları. Yəni, bu 3 prinsipi gözləməklə bu region üçün yeni bir müqayisəli rəqabət üstünlüyü yarada bilərik: "Təmiz vərəq" - işğal olunmuş ərazilərdə iqtisadi strukturların yaradılmasına tamamilə yeni yanaşma tətbiq olunur; Böyük həcmli innovasiyalar - regionda yeniliklərin yaradılması və tətbiqini stimullaşdıran və həyata keçirilməsini təmin edən strukturlar yaradılır; Müasir informasiya texnologiyaları - bütün bu proseslər informasiya texnologiyalarını, hətta Dördüncü Sənaye inqilabının çağırışlarını özündə ehtiva edir. Bundan çıxış edərək, ərazidə müasir Research Triangle Park yaratmaqla Texnoloji təhsil bloku – konsorsiumu formalaşdırılmasını təklif edirik. Bu, Qarabağ Universiteti, Ağdam Sənaye Parkı və UNEC olmaqla elm-istehsal-biznes üçbucağı tandemi formasında qurula bilər. Bu elm-istehsal-biznes üçbucağının əsas məqsədi bölgədə innovasiyalar əsasında yüksək əlavə dəyər yaradan sahələrin inkişaf etdirilməsidir.

**İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ MÜASİR**
**RESEARCH TRIANGLE PARK**
**YARATMAQLA TEXNOLOJİ TƏHSİL BLOKU – KONSORSIUMU FORMALAŞDIRILMASINI TƏKLİF EDİRİK**



**Famil Məcidli**
UNEC



# QARABAĞDA SAHİBKARLIĞIN STİMULLAŞDIRILMASI **MEXANİZMLƏRİ HAQQINDA**

2020-ci il 44 günlük Vətən müharibəsindən sonra dövlət başçısı İlham Əliyevin qətiyyətli siyasi iradəsi və Azərbaycan xalqının mərd oğullarının şücaəti sayəsində 30 ildir düşmən tapdağı altında olan Qarabağ və Şərqi Zəngəzur bölgələri işğaldan azad olundu. İşğaldan əvvəl ölkə iqtisadiyyatı içərisində xüsusi əhəmiyyətə sahib olan bu bölgələrin iqtisadiyyatı işğal ilə birlikdə bütünlüklə məhv edilmişdir. Təəssüf ki, düşmən əsarətində keçən bu 30 il ərzində düşmən regionun resurslarını talan etmiş, sosial-iqtisadi infrastrukturu tamamilə sıradan çıxarmışdır.

Bu səbəbdən də işğaldan sonrakı mərhələdə dövlətimizin qarşısında duran əsas məqsəd bu torpaqların iqtisadiyyatını inkişaf etdirmək, bölgənin əvvəlki zəngin tarixini geri qaytarmaqdır.

*İşğaldan sonrakı mərhələdə dövlətimizin qarşısında duran əsas məqsəd bu torpaqların iqtisadiyyatını inkişaf etdirmək, bölgənin əvvəlki zəngin tarixini geri qaytarmaqdır*

Təbii ki, bu məqsədə nail olmaq özü də bir müharibə aparmaq qədər çətin, keçməkeşli, siyasi iradə və eyni zamanda, ciddi maliyyə yükü tələb edən bir prosesdir. İşğaldan azad olunmuş ərazilərin iqtisadi dirçəlişini həyata keçirmək üçün mütləq şəkildə xalqın, xüsusilə də sahibkarların bu proseslərin içində olması və əslində birbaşa iştirakı lazımdır. Çünki əks təqdirdə, Qarabağ və Şərqi Zəngəzurun iqtisadi inkişafı sadəcə dövlətin məsuliyyəti daxilində dəyərləndirilsə, bu proses nisbətən sancılı keçə bilər və daha uzun müddəti əhatə edə bilər. Bu baxımdan, bir Azərbaycan vətəndaşı olaraq hər birimiz əlimizi daşın altına qoymalı və çiçəklənən Qarabağ vizyonunu ən qısa zamanda gerçəkləşdirməliyik.

Bunu da qeyd edim ki, əminəm ki, hər bir həmyerlimiz bu çərçivədə heç bir məsuliyyətdən qaçmayacaq, üzərinə düşən öhdəliyi yerinə yetirərək Vətənimizin daha da inkişaf etdirilməsinə öz töhfəsini verəcəkdir. Bu çərçivədə dövlətin əsas öhdəliklərindən biri və bəlkə də birincisi vətəndaşların, xüsusilə də sahibkarların proseslərdə iştirakını təmin edəcək zəmini hazırlamaqdır. Bunun üçün adekvat, səmərəli siyasətlərin və bu siyasətlər çərçivəsində iqtisadi təşviqlərin tətbiq olunmasına ehtiyac var.

Əslində dövlətin bu istiqamətdə mühüm addımlar atdığının da şahidi oluruq. Belə ki, 10 dekabr 2021-ci il tarixində dövlət başçısı İlham Əliyev "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında sərəncam" imzalamış və bu sərəncamdan irəli gələn müddəaların 3 ay içərisində yerinə yetirilməsi üçün Nazirlər Kabinetinə göstəriş vermişdir. Baş nazir Əli

Əsədov da öz növbəsində 22 dekabr 2021-ci il tarixində imzaladığı Sərəncamla ölkə Prezidenti tərəfindən imzalanmış Sərəncamının icra edilməsi məqsədilə aidiyyəti dövlət qurumlarına müvafiq göstərişlər vermiş və iki ay ərzində bu qurumların müvafiq təkliflər paketi hazırlayaraq Nazirlər Kabinetinə təklif etmələrini tələb etmişdir.

Bu məqalənin məqsədi də dünya təcrübəsini öyrənərək Sərəncamda qeyd edilən təkliflər çərçivəsində həyata keçiriləcək fəaliyyətləri dəstəkləmək baxımından bir sıra təşviq mexanizmləri ilə bağlı təkliflər verməkdir. Təbii ki, effektiv təşviq mexanizmi tətbiq etmək üçün sadəcə dünya təcrübəsini öyrənmək kifayət etmir. Bu çərçivədə bölgənin sosial-iqtisadi xarakteristikasına və potensialına da bələd olmaq tələb olunur.

Ümumiyyətlə hər hansı bir təşviq mexanizmi təklif edərkən qəbul edilən əsas prinsip kompleks bir yanaşmanın təklif edilməsidir ki, belə kompleks yanaşma təklif mexanizmlərinin bir-birlərini tamamlayaraq səmərəli bir prosesin həyata keçirilməsinə səbəb olacaqdır. Bu çərçivədən yanaşdıqda əsas dörd istiqamətdə təşviq mexanizminin həyata keçirilməsini təklif edə bilərik. Bu istiqamətlər: 1) Müvafiq sektorların müəyyən edilməsi və bu sektorlar üzrə investisiya layihələrinin hazırlanması; 2) Ədalətli hüquq sistemi; 3) Vergi güzəştləri; 4) Maliyyə resurslarına çıxış imkanları. Qeyd edək ki, təklif edilən bu dörd istiqamət iqtisadi inkişaf təmin etmək üçün tələb olunan baza istiqamətlərdir. Sonrakı mərhələlərdə bu istiqamətlərin sayını artıraraq bu və ya digər məqsəd doğrultusunda alternativ təşviq mexanizmləri də təklif etmək olar.

**Müvafiq sektorların müəyyən edilməsi və bu sektorlar üzrə investisiya layihələrinin hazırlanması**

Yuxarıda da vurğulandığı kimi, Qarabağ və Şərqi Zəngəzur bölgələri işğaldan əvvəl ölkə iqtisadiyyatı baxımından mühüm potensiala sahib idi. Bu çərçivədə regionun kənd təsərrüfatı, turizm, sənaye, bərpa olunan enerji sektorları və faydalı qazıntı/xammal potensialını xüsusilə qeyd etmək olar. Cənubi Koreya və Tayvan təcrübələrindən yola çıxaraq belə bir təklif irəli sürmək mümkündür ki, əsas dövlət siyasəti olaraq qeyd edilən sektorlar üzrə əməktutumlu biznes fəaliyyətlərini müəyyən edərək sahibkarların diqqətini xüsusilə bu fəaliyyətlərə cəlb etmək olar. Müvafiq fəaliyyətlər müəyyənləşdirildikdən sonra bu istiqamətlərə sahibkarların diqqətini cəlb etmək üçün ölkə səviyyəsində təbliğat-təşviqat kampaniyalarının həyata keçirilməsi lazımdır. Bununla yanaşı, Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) nəzdində bu fəaliyyətlərin icrası ilə bağlı ödənişsiz şəkildə istehsal planları, investisiya təhlili və bazar araşdırması məlumatlarının əks olunduğu investisiya layihələrinin hazırlanması tövsiyə olunur. Sonrakı mərhələdə KOBİA tərəfindən hazırlanacaq bu təhlil materiallarının hesabat formasında dərc edilərək məlumatlandırma məqsədilə ictimaiyyətlə paylaşılması sahibkarların məlumatlandırma səviyyəsini artıracaq və müvafiq kapitala sahib investorların aktiv şəkildə biznes fəaliyyətlərinə cəlb olunmasına şərait yaradacaqdır. Bu çərçivədə təklif olunan bir digər vasitə iqtisadi stimulları təmin etmək üçün Cənubi Koreyanın uğurla tətbiq etdiyi mədəni stimullardan istifadə olunmasıdır. Belə ki, Cənubi Koreyada hər il ən çox ixrac həcminə malik şirkətlər dövlət tərəfindən mükafatlandırılır və bu mükafatlandırma mərasimi ictimaiyyətə təqdim olunur ki, bununla da bir növ şirkətlərin daha effektiv işləməsi üçün mədəni stimullar yaradılır. Bənzər şəkildə işğaldan azad edilmiş ərazilərdə ən çox investisiya həyata keçirən, ən çox vergi ödəyən, ən çox işçisi olan və ən çox mənfəət əldə etmiş biznes sahiblərinə dövlətin üst qurumlarının da iştirak etdiyi görüşlərdə müvafiq mükafatlar təqdim edilə bilər ki, bu da öz növbəsində bu sahibkarların daha da əzmlə fəaliyyət göstərməsi üçün əlavə stimul yaradacaqdır.

**İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ ƏN ÇOX İNVESTİSİYA HƏYATA KEÇİRƏN, ƏN ÇOX VERGİ ÖDƏYƏN, ƏN ÇOX İŞÇİSİ OLAN VƏ ƏN ÇOX MƏNFƏƏT ƏLDƏ ETMİŞ BİZNES SAHİBLƏRİNƏ DÖVLƏTİN ÜST QURUMLARININ DA İŞTİRAK ETDİYİ GÖRÜŞLƏRDƏ MÜVAFİQ MÜKAFATLAR TƏQDIM EDİLƏ BİLƏR Kİ, BU DA ÖZ NÖVBƏSİNDƏ BU SAHIBKARLARIN DAHA DA ƏZMLƏ FƏALİYYƏT GÖSTƏRMƏSİ ÜÇÜN ƏLAVƏ STİMUL YARADACAQDIR**

**Ədalətli hüquq sistemi**

Sahibkarların maraqlarını qorumaq, onları investisiya etməyə cəlb etmək üçün tələb olunan faktorlardan biri də hər kəs tərəfindən etimad edilən hüquqi bazanın təmin edilməsidir. Bu məqsədlə, həyata keçirilən anti-korrupsiya, anti-inhisar tədbirləri daha da gücləndirilməli, məhkəmə sisteminin ədalətli şəkildə fəaliyyət göstərməsinə zəmin yaradılmalıdır. Hətta dünya təcrübəsində belə təcrübələr var ki, ölkələr xarici investisiyalar cəlb etmək üçün xarici investorlara öz ölkələri və yerli ölkənin hüquq sisteminə müraciət etmək baxımından seçim azadlığı verirlər. Əcnəbi investor yerli məhkəmə sistemini seçsə belə bu cür seçim azadlığı bir növ əcnəbi investora hüquq məsələlərində ədalətli yanaşmanın tətbiq olunacağına dair müsbət işarə verir.

**Vergi güzəştləri**

Vergi gəlirləri dövlət büdcəsinin ən mühüm gəlir mənbələrindən biri olmaqla yanaşı, sahibkarlar üçün də bəzi hallarda ciddi maliyyə yükü mənasına gəlir. Bu baxımdan bölgənin iqtisadi inkişafını qarşısına məqsəd qoyan hökumət vergi güzəştlərinə gedərək bölgəyə daha çox sahibkarı



cəlb edə bilər. Sahibkarların bölgəyə verəcəkləri töhfələr və bu töhfələr nəticəsində dövlətin bəzi xərclərdən azad olunması ehtimalını nəzərə alsaq, vergi güzəştlərindən dolayı dövlət büdcəsi gəlirlərindəki itkilərin əhəmiyyətli bir hissəsinin kompensasiya olunacağını gözləmək mümkündür.
**Vergi güzəştlərinin istiqamətləri ilə bağlı aşağıdakı təklifləri qeyd edə bilərik:**
- **Vergi tətilləri:** İqtisadi ədəbiyyatda bu termin sahibkarların müəyyən bir müddət ərzində mənfəət vergisindən azad olunmasını ehtiva edir. Dünya təcrübəsində bu müddət bəzən 5 illik bir müddəti əhatə edə bilir. Vergi tətili sahibkarlıq fəaliyyətinə başlayanlar üçün əvəzolunmaz bir təşviq mexanizmi kimi görünə bilər. Çünki bununla sahibkarlar xərclərinin əhəmiyyətli bir hissəsindən azad olunmuş hesab olunur və gəlirlərini investisiyaya çevirərək şirkətlərini böyütmək istiqamətində daha ciddi addımlar ata bilərlər.
- **ƏDV-dən azadolma:** Əsas vəsaitlərə hesablanmış ƏDV-nin sonradan ödənilməsi və ya onların vergidən azad edilməsi praktikası ƏDV-dən azadolma adlanır. Bu, ümumiyyətlə, bütün növ kapital mallarına şamil edilir. Sahibkar baxımından biznes fəaliyyətinin ƏDV-dən azad edilməsi qoyulan investisiyaların ilkin mərhələsində tələb olunan maliyyə ehtiyacları baxımından olduqca vacibdir.
- **Sürətləndirilmiş amortizasiya:** Azalan balans metodu ilə amortizasiya kimi də adlanan bu təşviq növündə, balansda xərclər hissəsində heç bir dəyişiklik etmədən investisiya edildikdən sonrakı ilkin mərhələdə ortaya çıxacaq xərclərin yüksək olduğu dövrdə daha çox, sonrakı illərdə isə daha az amortizasiya ayırmağı mümkün edən bir metoddur. Sürətləndirilmiş amortizasiyanın tətbiqi ilə investorların vergi yükünün müəyyən qədər azaldılması hədəflənilir.

**Maliyyə resurslarına çıxış imkanları**
Sahibkarlıq fəaliyyətinə başlamaq üçün qarşıda duran əsas əngəllərdən biri ilkin maliyyə kapitalını əldə etməkdir. Bəzi hallarda sahibkarlar uğurlu bir biznes ideyalarına sahib olsalar da, maliyyə çatışmazlığından dolayı bu ideyalarını gerçəkləşdirə bilmirlər. Doğrudur, Sahibkarlığın İnkişafı Fondu aşağı faizlərlə (5%) 5 min manatdan 10 milyon manatadək güzəştli kreditlər təklif edir, ancaq bu güzəştli kreditlər əsasən müəyyən dərəcədə sahibkarlıq fəaliyyəti həyata keçirən sahibkarlar üçün nəzərdə tutulur. İlkin investisiya kapitalı üçün maliyyə mənbələrinə çıxış imkanları isə demək olar ki, yox dərəcəsindədir. Bu çərçivədə xüsusilə də KOBİA tərəfindən dəstək layihələrinə verilən qrantların əsas olaraq Qarabağ və Şərqi Zəngəzurda fəaliyyəti nəzərdə tutulan biznes fəaliyyətlərinə ayrılması təklif olunur. Bundan başqa, bu dəstək layihələrinin əhatə dairəsinin genişləndirilməsi və daha çox sahibkarı əhatə etməsi nəzərdə tutula bilər. Eləcə də, bir sıra inkişaf etmiş dünya ölkələrində uğurla tətbiq olunan Vençur Kapital Fondlarının yaradılması və effektiv fəaliyyəti üçün hüquqi zəminin təmin edilməsinə ehtiyac var. Bu kimi Fondlar vasitəsilə sahibkarlar heç bir ilkin sərmayə etmədən ortaqlıq vasitəsilə maliyyə resurslarına çıxış imkanları əldə edə bilərlər. Eyni zamanda, belə İnvestisiya Fondları dövlətin maliyyə yükünün də azalmasına səbəb ola bilər.
Son olaraq bir daha qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzur bölgələrinin inkişafı üçün sahibkarların işğaldan azad olunmuş ərazilərə cəlb olunması ən vacib şərtlərdən biridir. Belə ki, bəzi mütəxəssislər tərəfindən aparılan ilkin hesablamalar Qarabağ və Şərqi Zəngəzurda ilkin investisiya layihələri, ərazilərin minalardan təmizlənməsi, sosial-iqtisadi infrastrukturun qurulması üçün təxminən 30-40 milyard dollar civarında investisiya tələb olunduğunu göstərir. Sahibkarların bölgələrə cəlb olunması və eyni zamanda sahibkarlar tərəfindən yaradılacaq yeni biznes müəssisələrində işləyəcək insanlar sayəsində bu yükün bir hissəsi azaldıla bilər və ölkə vətəndaşları sahibkar və yaxud işçi timsalında bu və ya digər şəkildə sosial-iqtisadi infrastrukturun yaradılması fəaliyyətlərinə töhfə verə bilər. Burada birbaşa töhfədən söhbət getməyə bilər, ancaq yaranacaq bazar mühiti, iqtisadi aktivlik öz-özlüyündə bu infrastrukturun inkişafını təmin edəcək və bəlkə də özəl müəssisələr öz vəsaitləri hesabına bu infrastruktur layihələrini maliyyələşdirməkdə maraqlı olacaqlar.

**Emiliya Əhmədova**
UNEC



# QARABAĞ İQTİSADİ RAYONUNDA HALAL MƏHSULLAR SEKTORUNU **NECƏ İNKİŞAF ETDİRMƏK OLAR?**

Son iki ildə dünyanı bürüyən və qlobal dünya iqtisadiyyatına milyardlarla ABŞ dolları miqyasında ziyan vuran COVID 19 pandemiyasına baxmayaraq, Qlobal İslam İqtisadiyyatı daha qısa zamanda əvvəlki vəziyyətinə geri dönmüşdür. Belə ki, "Qlobal İslam İqtisadiyyatının Vəziyyəti 2022" hesabatına əsasən 2020-ci il ilə müqayisədə 8.9% artım ilə 2021-ci ilə Qlobal İslam İqtisadiyyatının dəyəri 2 trilyon ABŞ dolları həcmində olmuşdur. Bu rəqəmin 2022-ci ilə 9.1% artım ilə 2.18 trilyon ABŞ dolları, 2025-ci ildə isə 7.5% mürəkkəb illik artım tempi ilə 2.8 trilyon ABŞ dolları olması proqnozlaşdırılır. Qlobal halal məhsullar bazarına nəzər yetirdikdə isə 2020-ci il ilə müqayisədə 2021-ci ildə 6.9% mürəkkəb illik artım tempi ilə 1.19 trilyon ABŞ dollarından, 1.27 trilyon ABŞ dollarına yüksəlib ki, bu rəqəmin 2025-ci ildə illik 7.1% artım ilə 1.67 trilyon ABŞ dolları olması gözlənilir. Bununla yanaşı, 2019/2020-ci il ilə müqayisədə, İslam iqtisadiyyatına müxtəlif sektorlar üzrə investisiyaların həcmi 2020/2021-ci ildə 118% artım ilə 25.7 milyard ABŞ dolları olmuşdur. Qlobal İslam İqtisadiyyatı İslam maliyyəsini çıxmaq şərti ilə qida, əczaçılıq, kosmetika, moda, səyahət, media və turizm sektorlarını əhatə edir.

*Qlobal İslam İqtisadiyyatı İslam maliyyəsini çıxmaq şərti ilə qida, əczaçılıq, kosmetika, moda, səyahət, media və turizm sektorlarını əhatə edir*

Global miqyasda İslam iqtisadiyyatına artan marağı şərtləndirən amillərə dünya üzrə İslam dininə sitayiş edən əhalinin sayının artması, onların gəlirlərinin artması və orta təbəqənin formalaşması, dinə olan bağlılığın artması, dünya üzrə Halal sertifikasiya ilə bağlı vahid standartların qəbulu daxildir, qlobal brendlərin halal məhsullar bazarına artmaqda olan marağı, ölkə səviyyəsində müvafiq strategiyaların formalaşdırılması və ölkələr arasında halal məhsulların ticarəti üzrə strateji müttəfiqliyin qurulması daxildir.
Bununla yanaşı, təqdim olunan Halallıq sertifikatının yalnız məhsulun halal olması deyil, gigiyenik baxımdan da təmiz və sağlam olması nişanı olduğundan digər dindən olan müştərilərin də halal məhsullar bazarına marağı getdikcə artmaqdadır.



İslam dininə sitayiş edən əhalinin üstünlük təşkil etdiyi Azərbaycanda İslam iqtisadiyyatı ekosistemin formalaşdırılması üçün bütün lazımi imkanlara sahibdir. Lakin, ölkələr üzrə halal iqtisadiyyatın sektorlar üzrə vəziyyətini və ölkə üzrə ümumi halal məhsullar ekosistemini müqayisə etməyə imkan verən Qlobal İslam İqtisadiyyatı İndikatoruna (GIEI) nəzər yetirdikdə, Azərbaycan Halal turizm potensialı üzrə yeddinci mövqe tutduğu halda digər sektorlar üzrə təmsil olunmayıb. Buna baxmayaraq, Azərbaycan qısa bir müddətdə Halal məhsullar bazarı üçün əlverişli ekosistemin formalaşdırılması baxımından lazım olan potensiala sahibdir. Yeni işğaldan azad olunmuş torpaqlar bu istiqamətdə ölkəmizin imkanlarını daha da genişləndirir. İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 3037 nömrəli Sərəncamında, həmin bölgələrə investisiya yatırımlarının təşviqi, ən müasir infrastrukturun qurulması, emal və istehsal sanayesinin yaradılması, sahibkarlığın təşviqi və dəstəklənməsi, yaşıl şəhər, ağıllı şəhər və kənd konsepsiyalarının tətbiqi Qarabağda əlverişli İslam iqtisadiyyatı ekosisteminin yaradılmasına ciddi təkan verir. Belə ki, Qarabağ iqtisadi rayonunda heyvandarlığın inkişafı ilə yanaşı əkinə cəlb olunacaq 200 min hektarlıq torpaq sahəsi Halal qida sektoru üzrə Azərbaycanın önəmli bazara çevrilməsinə, Ağdam və digər rayonlarda sənaye parkının inşası və bu bölgələrin kimvəyi və mineral materiallarla zəngin olması Halal əczaçılıq və kosmetika bazarının inkişafına, habelə səfalı və tarixi yerlərin çoxluğu Qarabağ iqtisadi rayonunu Halal turizm mərkəzinə çevirməyə imkan verəcək. Bu prosesdə önəmli maliyyələşmə mexanizmi olaraq Qarabağ Dirçəliş Fondunun xüsusi rolunu vurğulamaq lazımdır.

Qarabağ iqtisadi rayonunda halal məhsullar bazarının inkişaf etdirilməsini şərtləndirən amilləri aşağıdakı kimi təsnifləşdirmək olar.

**Halal sertifikatın verilməsinin yeni mexanizminin və qanunvericilik bazasının formalaşdırılması**

Halal məhsullar sektorunun ölkədə inkişafını şərtləndirən ən önəmli amil Halal sertifikatlaşma prosesinin daha da təkmilləşdirilməsi və hüquqi bazasının gücləndirilməsindən keçir. Hazırda ölkədə Halal sertifikat Azesert Halal tərəfindən təqdim olunur. Lakin prosesdə boşluqların olduğu danılmazdır. Problemlərin mövcudluğu eyni zamanda ölkədə Halal məhsullar bazarının dəyərinin hesablanmasında da ciddi çətinliklər yaradır. Hazırda ölkədə Halal məhsullar bazarının dəyəri ilə bağlı dəqiq statistika yoxdur. Bu baxımdan, Türkiyə də daxil olmaqla bu sahədə önəmli təcrübəsi olan ölkələrdən yararlanmaq mümkündür. Bununla yanaşı, İslam Əməkdaşlıq Təşkilatı (İƏT) ölkələri üzrə ticarətin gücləndirilməsinə və maneələrin aradan qaldırılmasına yönəlik mexanizm və vahid standartları təyin edən SMIIC (İslam Ölkələri üçün Standartlar və Meteorologiya İnstitutu) tərəfindən yaradılan OIC/SMIIC standartlarını əsas götürərək Halal sertifikatlaşma mexanizminin qurulması çox vacibdir. İƏT üzvləri ilə vahid Halal sertifikatlaşma mexanizminin olması bu ölkələrlə ticarət dövriyyəsinin daha da artmasına təkan verəcək.

**Halal təchizat zəncirinin və halal logistikanın qurulması**

Məhsulların halal hesab olunması ilə bağlı önəmli şərtlərdən biri də təchizat zənciri boyu xammal və materiallardan tutmuş emal prosesinin, habelə qablaşdırma və logistika fəaliyyətinin şəriət qaydalarına uyğun olmasıdır. Halal logistika halal məhsulların son təyinat yerinə çatana qədər qeyri-halal məhsul və ya maddələrlə təmasının olmamasını şərtləndirir. Regionda xüsusilə halal logistikanın təşkili və inkişaf etdirilməsi İslam iqtisadiyyatını dəstəkləyən ekosistemin qurulması

baxımında həyati əhəmiyyət kəsb edir. Bu eyni zamanda, regionun Halal Parka çevrilməsinə səbəb olacaq.

**Qarabağ iqtisadi rayonunda halal məhsullar sektorunun inkişafı üçün xüsusi dövlət proqramının qəbulu**

Son dövrə qədər neftin qiymətinin kəskin azalması və pandemiya kimi qlobal hadisələrin baş verməsi nəticəsində müxtəlif ölkələr iqtisadi diversifikasiya olaraq İslam iqtisadiyyatına xüsusi diqqət ayırmağa başlamışlar. Bunu nəzərə alaraq, Qarabağ iqtisadi rayonu daxil ölkə miqyasında halal məhsullar sektorunun inkişafı və İslam İqtisadiyyatı ekosisteminin formalaşdırılması üçün xüsusi dövlət dəstəyi çox vacibdir. Xüsusilə Qarabağ iqtisadi rayonunun yenidən qurulduğunu nəzərə alaraq, burada İslam iqtisadiyyatını dəstəkləyən xüsusi ekosistemin yaradılması daha labüddür. Belə ki, müxtəlif illəri əhatə edən regional inkişaf planları olduğu kimi, İslam İqtisadiyyatının formalaşdırılması üzrə dövlət proqramının olması bu prosesi daha da sürətləndirəcəkdir.

**Qarabağ iqtisadi rayonunda halal məhsullar sektorunun yaradılması və inkişafına xarici investisiyaların cəlb edilməsi**

Qarabağ iqtisadi rayonunda yenidənqurma prosesinə xarici investisiyanın cəlb edilməsinin prioritet istiqamətlərdən biri olduğunu nəzərə alaraq, bu investisiyaların bir qisminin halal məshullar sektoruna yatırılması önəmlidir. Regionun potensialını nəzərə alaraq, bu sahəyə İƏT ölkələri və biznesləri ilə yanaşı, qeyri-islam ölkələri və şirkətlərinin də yüksək marağı mövcuddur. Xüsusilə İƏT-in "OIC-2025: Tədbirlər planı"nın istiqamətlərindən biri bu ölkələr arasında investisiya və ticarətin gücləndirilməsi olduğundan bu çərçivədə İƏT ölkələri ilə sıx əməkdaşdıq prosesi daha da sürətlənəcək.

Dünyada halal məhsullar sektorunun əhəmiyyətli artım tempini və ölkəmizdə, xüsusilə Qarabağ iqtisadi rayonunda bu sektorun inkişaf potensialını əsas götürərək dövlət və özəl sektorun dəstəyi ilə halal məhsullar sektoruna sistemli baxışı özündə ehtiva edən yeni dövlət proqramının qəbul edilməsi vacib faktorlardan biridir. Halal sertifikatların verilməsini şərtləndirən yeni mexanizmlərin formalaşdırılması, qanunvericilik bazasının yaradılması, halal təchizat zəncirinin qurulması və halal logistikasının yaradılması kimi zəruri fəaliyyətlər bu sahənin Qarabağ iqtisadi rayonunda inkişaf etdirilməsi üçün xarici investisiyaların cəlb olunmasını da şərtləndirəcək.





**Dos. Ülviyyə Rzayeva**
UNEC

# QARABAĞDA İNFRASTRUKTURUN YENİDƏN QURULMASINA MÜASIR YANAŞMA: **AĞILLI İNFRASTRUKTUR**

İndiyədək Azərbaycanın şəhər infrastrukturu və onun informasiya-kommunikasiya texnologiyalarına (İKT) inteqrasiyası parça-parça inkişaf edərək "əhali artımı" ehtiyaclarını fraqmentar şəkildə ödəyirdi. Hər bir yeni bina və ya bina kompleksləri müxtəlif vaxtlarda layihələndirilmiş və tikilmişdir. Bu gün yaşayış məntəqələrinin və insanların sayının artması ilə əlaqədar onilliklər, bəzən hətta əsrlər əvvəl yaradılan və indiki əhalinin sıxlığını ödəməyən, nəqliyyatın miqdarı üçün ümumiyyətlə nəzərdə tutulmayan infrastrukturun yükü artır. Buna görə Azərbaycanda maraqlı tərəflər çətin dilemmalarla üzləşirlər: iqtisadi artımın əsas qüvvəsi kimi ağıllı şəhər konsepsiyasını təbliğ etmək və irəli sürmək, yoxsa əhalinin artımı ilə əlaqədar resurslardan həddindən artıq asılılıqla bağlı problemlərə diqqət yetirmək.

*Azərbaycanda maraqlı tərəflər çətin dilemmalarla üzləşirlər: iqtisadi artımın əsas qüvvəsi kimi ağıllı şəhər konsepsiyasını təbliğ etmək və irəli sürmək, yoxsa əhalinin artımı ilə əlaqədar resurslardan həddindən artıq asılılıqla bağlı problemlərə diqqət yetirmək*

"Ağıllı şəhər" nədir? Beynəlxalq Telekommunikasiya İttifaqının konsepsiyasına görə bu termin altında şəhərsalma məqsədlərindən asılı olaraq, "biliklər şəhəri", "rəqəmsal şəhər", "kiber şəhər" və ya "eko şəhər"lərin səciyyəvi xüsusiyyətləri cəmlənir. İqtisadi və sosial aspektlərdən çıxış edərək demək olar ki, ağıllı şəhərlər gələcəyə yönəlib. Onlar resurslar bölgüsünün və təhlükəsizliyin optimallaşdırılması üçün kritik infrastruktura – yollara, körpülərə, tunellərə, dəmir yollarına, metropolitenə, hava və dəniz limanlarına, kommunikasiyalara, su və elektrik enerjisi xətlərinə daim informasiya və kompüter texnologiyaları vasitəsilə nəzarət edən mexanizmə malik olmalıdırlar. Bu konsepsiya əhaliyə göstərilən xidmətlərin sayının daim genişləndirilməsini, vətəndaşların rifahına və sağlamlıqlarının qorunmasına kömək edən davamlı və dayanıqlı mühitin təmin edilməsini nəzərdə tutmalıdır. Bu xidmətlərin əsasını İKT infrastrukturu təşkil edir.

Bir şəhərin "ağıllı" sayılması üçün o, üç vacib elementi özündə ehtiva etməlidir. Birinci

element şəhərə effektiv nəzarəti təchiz edən və onu idarə etməyə imkan verən müasir infrastrukturdur. Məsələn, bura geniş videomüşahidə sistemləri və onlara əsaslanan tanıma cihazları daxildir. Bundan başqa, ağıllı infrastruktura müxtəlif növ müasir avadanlıqlardan istifadə etməklə mənzil-kommunal təsərrüfatında yaranan problemlərin aşılanması, potensial və artıq baş vermiş qəzalar haqqında məlumatı operativ ötürən sensorlar və həssas qurğular əsasında şəhər təsərrüfatının vəziyyətinin monitorinqi sistemlərini ayırd etmək olar. İkinci element şəhərin müxtəlif yerlərindən məlumatları toplayan və onların təhlili əsasında müxtəlif strateji və taktiki qərarları qəbul edən mərkəzləşdirilmiş komanda məntəqəsidir. Nəhayət, üçüncü element infrastrukturu və komanda mərkəzini vahid sistemə birləşdirən informasiya-kommunikasiya şəbəkəsidir. Bu üç elementin mövcudluğu və onların uğurlu inteqrasiyası bu və ya digər şəhəri şərti olaraq "ağıllı" adlandırmağa imkan verir.

**Ağıllı şəhər infrastrukturunun qurulması**
Hal-hazırda şəhərsalma proseslərində aşağıdakı tendensiya daha çox müşahidə olunur: mövcud binaları "ağıllı" binalara çevirməkdənsə, onları sıfırdan inşa etmək daha asan və sərfəlidir. Bu baxımdan, Qarabağ zonası bu cür "eksperiment"lər üçün ideal məkandır. İşğal dövründə Qarabağın bütün ərazisi dağıdılmışdır, müəyyən bir infrastruktur mövcud deyil. Hal-hazırda Qarabağda işğaldan azad edilmiş bütün şəhərlərimizin baş planları hazırlanır və burada bərpa işlərinin intensiv davam etdirilməsi nəzərdə tutulur. Eyni zamanda ilk "ağıllı kənd" layihəsi də Zəngilan rayonunda həyata keçirilmişdir. Artıq bu istiqamətdə ilkin monitorinqlər aparılıb və ilk növbədə dağıdılmış Ağalar kəndi bərpa edilmişdir. Bir qayda olaraq, istənilən ağıllı şəhər bir neçə alt sistemdən ibarət olan sistem kimi nəzərdə tutulur ki, onun tərkib hissələrinin hər biri cari proseslərin optimallaşdırılması və resurslardan səmərəli istifadə edilməsi üçün öz "ağıllı" həllərindən istifadə edir. Praktikada ağıllı şəhərin bir neçə əsas komponenti mövcuddur:
• **Energetika:** avtomatlaşdırılmış ağıllı şəbəkə və çevik paylama sistemləri; intellektual uçot və tələblərin tənzimlənməsi sistemi; bərpa olunan enerji növlərinin tətbiqi; enerji səmərəli bina və tikililərin inşa edilməsi;
• **Su təchizatı:** avtomatlaşdırılmış suyun qəbulu, suyun paylanması, çirkab suların axıdılması və sızmaların aşkarlanması; ağıllı ölçmə sistemi və tələblərin idarə edilməsi;
• **Nəqliyyat:** nəqliyyat axınına və yol örtüyünün keyfiyyətinə nəzarət; elektrik avtomobilləri üçün enerji doldurma stansiyalarının infrastrukturu; yol hərəkətinin və ictimai nəqliyyatın idarə edilməsi üçün proqram və aparat kompleksi;
• **Təhlükəsizlik:** infrastruktur obyektlərinin videomüşahidəsi, videoçəkilişi və fiziki mühafizəsi sistemləri; təcili əməliyyat xidmətlərinə zənglərin təmin edilməsi sistemləri; xəbərdarlıq sistemləri; təhlükəsizlik sistemlərinin idarə edilməsi üçün proqram və aparat kompleksi;
• **Təhsil və səhiyyə:** distant təhsil, müəyyən proqramların həyata keçirilməsi üçün bildiriş mexanizmləri, elektron dərsliklər; tibbi elektron qəbul sistemləri, xəstələrin elektron məlumat bazası və onların şikayət tarixçələri, tibb mütəxəssislərinin ünsiyyəti üçün həllər;
• **Hökumət:** qərarların dəstəklənməsi sistemləri, təhlil və proqnozlaşdırma, dövlət və bələdiyyə xidmətlərinin elektron formada göstərilməsi, açıq məlumatların dərci;
• **Sakinlər:** infrastruktur obyektlərinin və informasiya xidmətlərinin savadlı istifadəçiləri; "geri əlaqə" rejimində informasiya təhcizatçıları.
Ağıllı şəhərin mərkəzləşdirilmiş idarəetmə mərkəzinin yaradılması
"Ağıllı şəhər" konsepsiyası iqtisadiyyat, infrastruktur, nəqliyyat, tikinti və mənzil-kommunal təsərrüfatı, ekologiya və təhlükəsizlik sahələrini əhatə edir. Onun fəaliyyət sahəsi İqtisadiyyat Nazirliyinin, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Fövqəladə Hallar Nazirliyinin səlahiyyətlərinə daxildir.
Bu o deməkdir ki, bu idarələrin heç biri yeganə tənzimləyici orqan kimi çıxış edə bilməz, çünki onların səlahiyyətlər siyahısı ağıllı şəhərin bütün sahələr və komponentlərini əhatə etmək iqtidarında deyil.
Buna görə də, optimal variantlardan olan "Ağıllı şəhər" proqramının yaradılması və icrasının

**İLK**
**AĞILLI KƏND**
**LAYİHƏSİ ZƏNGILAN RAYONUNDA HƏYATA KEÇİRİLİB**





əlaqələndirilməsi üçün tənzimləmə işləri və idarələrarası qarşılıqlı fəaliyyətlə məşğul olan vahid mərkəzin yaradılmasıdır. Lakin burada texnoloji standartlarının (məsələn, şifrələmə protokollarının və ya məlumatların saxlanma prinsiplərinin) təsdiqlənməsi məhz dövlət tərəfindən aparılmalıdır. Təəssüf ki, burada sərt standartlar və tənzimləyici normativ-hüquqi çərçivələr yoxdur.

**İnfrastruktur və idarəetmə mərkəzini birləşdirən şəbəkənin qurulması**

Ağıllı şəhərdə istifadə olunan rəqəmsal texnologiyaların işə başlaması üçün zəngin infrastrukturu yaratmaq, problemləri və onların həll edilməsi ardıcıllığını müəyyən etmək lazımdır. Bu cür şəhərin İT infrastrukturu çoxlu sayda alt sistemlərdən, birləşdirilmiş kompüterlərdən, kontrollerlərdən, sensorlardan və həssas cihazlardan ibarət olan olduqca mürəkkəb sistemdir. Bu komponentlərin hər biri ayrı-ayrılıqda emal və təhlil edilməli, ötürülməli, saxlanılmalı olan böyük həcmdə verilənləri toplayır. Yuxarıda qeyd olunanlardan bu qənaetə gəlmək olar, ağıllı şəhərlərin uğuru ən müasir telekommunikasiya şəbəkələrini tələb edən İKT-dən asılı olacaq.

Ağıllı şəhərlər sahəsində layihələrin həyata keçirilməsi üçün şəhərin müxtəlif şaquli seqmentlərindən məlumat axınlarını birləşdirən rəqəmsal sektorlararası platformaların formalaşdırılması yolu ilə əldə edilən məlumatlar əsasında şəhər idarəçiliyi prinsiplərinin yenidən qurulması vacibdir. Şəhərə dair verilənlərə əsaslanan kommunikasiya platformalarında səmərəli istehlak xidmətlərinin yaradılması baxımından şəhər mühitinin inkişafı üzrə layihələrin sosial yönümlü olması əsas əhəmiyyət kəsb edir.

Bu, yalnız digər sistemlərlə inteqrasiya tələbini nəzərə alaraq və yerinə yetirərək standart istifadəçi interfeysinə malik olan açıq sistemlərdən istifadə etməklə həyata keçirilə bilər. İstifadəçi interfeysinin standartlaşdırılması, öz növbəsində, bir açıq sistemdən digərinə keçid prosesində operatora qarşı duran ehtiyacları aradan qaldırır. Beləliklə, “Ağıllı Şəhər” proqramını həyata keçirərkən aşağıdakılar olduqca vacibdir:

• Etalon arxitekturanın vahid standartlarının formalaşdırılması (struktur, biznes prosesləri, idarəetmə modelləri, göstəricilər);
• ağıllı şəhər üçün vahid texnoloji standartların hazırlanması (infrastruktur və texnologiyalara olan tələblər, göstəricilər);
• “Ağıllı Şəhər” proqramının hazırlanması üçün vahid metodologiya və icra ssenarilərinin yaradılması (adaptiv alətlər, metodologiyalar və təcrübələr topluları, ətraflı yol xəritəsi);
• vahid universal texnoloji platformanın yaradılması (universal verilənlər şini və müvafiq texnoloji infrastruktur);
• “Ağıllı Şəhər” proqramının həyata keçirilməsi üçün müstəqil vahid koordinasiya mərkəzinin təşkil edilməsi.



**c.f.d., Qadir Bayramlı**
UNEC



# QARABAĞIN DİRÇƏLİŞİNDƏ **DARK (HÜZÜN ) TURİZMİNDƏN İSTİFADƏ İMKANLARI**

Digər turizm növlərinə nəzərən gənc sayılan hüzün turizminin (dark turizmin) son onilliklərdə meydana çıxmasına baxmayaraq, sürətli bir inkişaf tempinə malik olduğu müşahidə edilməkdədir. Kədər yerlərinə edilən turistik səfərlər olaraq şərh edilən hüzün turizminin sürətlə inkişaf etməsi turizm tələbinin artması, turislərin ənənəvi turizm destinasiyalarından fərqli yerlərə meyl etmələri, ölkələrin hüzün məkanlarına öz tarixi irsi kimi baxmaları ilə ilgilidir.

Hər bir ölkədə olduğu kimi Azərbaycanda da tarixin müxtəlif dövrlərində fəlakətlər yaşanmış və ağır nəticələrə malik olan bu hadisələrin izləri qalmaqdadır.

Hüzün turizmi məkanlarının əksəriyyəti 20-ci əsrin əvvəllərindən başlayaraq meydana gələn hadisələrlə əlaqədardır. Hüzün turizmi məkanlarına ölkənin müxtəlif bölgələrində rast gəlmək mümkündür. Bakı, Şərgi Zəngəzur, Gəncə, Qarabağ, Mingəçevir, Quba kimi bölgələrdə hüzün turizm məkanları daha çoxdur. Xüsusilə 2020-ci ilə qədər işğal altında olan Qarabağ bölgəsi çok sayda hüzün turizmi məkanlarına malikdir.

> *Bakı, Şərgi Zəngəzur, Gəncə, Qarabağ, Mingəçevir, Quba kimi bölgələrdə hüzün turizm məkanları daha çoxdur*

Qarabağ bölgəsində hüzün turizm məkanlarının əksəriyyəti Ermənistanın işğalı və Azərbaycan xalqına qarşı törədilən cinayətlərlə bağlıdır. Ermənistan işğalının nəticələrini Qarabağın demək olar ki, bütün bölgəsində görmək mümkündür. Hüzün turizmi məkanlarında kütləvi məzarlıqları, təməlinə qədər dağıdılmış binaları, məhv edilmiş tarixi və təbiət abidələrinin izlərini açıq-aşkar müşahidə etmək mümkündür. Qarabağ bölgəsində hüzün turizm məkanlarının yerli və xarici turistlərə açılması Azərbaycan haqqındakı tarixi gerçəkliklərin dünyaya tanıdılması baxımından böyük əhəmiyyət kəsb etməkdədir.

Qarabağın bütün bölgələri erməni hərbi qruplaşmalarından təmizləndikdən sonra turizm məkanlarının ziyarətçilər üçün açıq olması təmin ediləcəkdir.

İlk mərhələdə Qarabağda hüzün turizm məkanlarına aşağıdakılar daxil edilə bilər:

- Soyqırımın törədildiyi Xocalı şəhəri,
- Tarixi abidələri güllələbaran edilmiş və



müzeyləri yağmalanmış Şuşa şəhəri,
- Bütün binaları yerlə bir edilmiş Ağdam, Füzulu, Cəbrayıl və Zəngilan şəhərləri,
- Dünyada nadir çinar qoruqlarından biri olan və ermənilər tərəfindən dağıdılmış Bəsitçay qoruğu,
- Fərrux kəndi və digər bölgələrdə aşkar edilmiş kütləvi məzarlıqlar.

2020-ci ildə Qarabağın böyük hissəsinin işğalçılardan azad edilməsi, bölgədə digər turizm növləri kimi hüzün turizminin inkişafına təkan verəcəkdir. Bölgə minalardan təmizləndikdən və turistlərin güvənliyi tam təmin edildikdən sonra turistlər Qarabağın hüzün məkanlarını ziyarət etmək imkanına malik olacaqlar.

Qarabağda hüzün turizmi məkanlarının inkişaf etmiş turizm destinasiyasına çevrilməsində artıq istifadəyə verilmiş Füzuli aeroportunun və yaxın illərdə tikiləcək Zəngilan, Laçın və Kəlbəcər aeroportlarının böyük əhəmiyyəti olacaqdır.

Qarabağda hüzün turizminin inkişaf etdirilməsi üçün aşağıdakı işlərin həyata keçirilməsini məqsədəuyğun hesab edirik:
- Bölgədə bütün turizm obyektlərinin (hüzün turizm məkanları daxil olmaqla) inventarizasiyası,
- Bölgədə müasir tələblərə cavab verən turizm infrastrukturunun yaradılması,
- Hüzün turizmi məkanlarında xatirə komplekslərinin yaradılması,
- Turistlərə göstərilən xidmətlərin yüksək keyfiyyətə malik olması və turizm sahəsində yüksək ixtisaslı kadrlar tərəfindən həyata keçirilməsi,
- Hüzün turizminə aid kitabların, broşuraların, xüsusi video çarxların hazırlanması,
- Bölgənin turizm potensialının tanıdılması ilə əlaqədar çoxyönlü fəaliyyətlərin həyata keçirilməsi,
- Hüzün turizmi məkanlarına aid xatirə əşyalarının hazırlanması,
- Yağmalanmış muzeylərin yerində xüsusi muzey-memorial komplekslərinin yaradılması, həmin komplekslərdə ermənilər tərəfindən oğurlanmış muzey eksponatlarının siyahısı və şəkillərin nümayiş etdirilməsi, erməni vandalizminin ziyarətçilərə tanıdılması,
- Hüzün turizmi məkanlarının müvafiq turizm marşrutlarına daxil edilməsi,
- Müvafiq xarici dilləri bilən peşəkar turizm bələdçilərinin hazırlanması,
- Hüzün turizmi sahəsində xarici təcrübənin öyrənilməsi.
- Göstərilən turizm xidmətlərinin səviyyəsini ölçmək üçün turistlər arasında sorğuların keçirilməsi,
- Hüzün turizmi məkanlarının etibarlı şəkildə qorunmasının təmin edilməsi,
- Qarabağdakı hüzün turizmi məkanlarına Azərbaycanın bütün bölgələrindən olan vətəndaşlar, o cümlədən tələbə və şagirdlər üçün ekskursiyaların təşkil edilməsi.

Qarabağda hüzün turizminin inkişaf etdirilməsi bölgədə turizm fəaliyyətlərini canlandıracaq, daxili və xarici turizmin inkişafına müsbət təsir göstərəcək, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasına öz töhfəsini verəcəkdir. İşğaldan azad edilmiş bütün bölgələrin minalardan təmizlənməsi işləri başa çatdıqdan və müvafiq turizm infrastrukturu yaradıldıqdan sonra Qarabağ regionu inkişaf etmiş turizm destinasiyalarından birinə çevriləcəkdir.

**Turan Suleymanov**
UNEC



# QARABAĞDA ALİ TƏHSİL KLASTERİNİ **NECƏ FORMALAŞDIRMALI?**

**44 günlük Vətən müharibəsində qazandığımız qələbə xalqımız qarşısında bir çox imkanlar açmışdır. Belə ki azad edilən ərazilərdə sosial-iqtisadi layihələrin inkişafı fonunda təhsilin də inkişafı qaçılmazdır.** Məhz bu səbəbdən Azərbaycan Respublikasının Prezidentinin tapşırığı ilə gələcəkdə Ağdamı dünyanın ən gözəl şəhərlərindən birinə çevirəcək baş planda Qarabağ Universitetinin yaradılması da nəzərdə tutulub. Dördüncü Sənaye İnqilabının tələblərini nəzərə alaraq, respublikamızın rəqəmsal transformasiyasını təmin edəcək insan kapitalını formalaşdıracaq bir ali təhsil müəssisəsinin region üçün çox mühüm əhəmiyyəti olacaq. Qarabağda planlaşdırılan universitetin Azərbaycan dövlətinin bu sahədəki siyasətinə və dövlət proqramlarının tələblərinə cavab verməklə yanaşı, dünyada baş verən ən son trendlər və bu sahədə təcrübələrdən də istifadə əsasında yaradılacağı nəzərdə tutulur.

*Qarabağda yaradılan universitet modeli üçüncu nəsil universitetlərin tələbləri əsasında formalaşacaqdır*

Dünya ali təhsil sektorunda baş verən əsas dəyişikliklərdən biri də üçüncü nəsil universitetlərə keçidin baş verməsidir. Düşünürəm ki, Qarabağda yaradılan universitet modeli üçüncu nəsil universitetlərin tələbləri əsasında formalaşacaqdır. Üçüncu nəsil universitetlər bir sıra xarakteristikasına görə əvvəlki nəsil universitetlərdən fərqlənir.

Bunlardan birincisi, onların hədəfləri ilə əlaqədardır. Belə ki, bu nəsil universitetlərin hədəfinə təhsil və tədqiqatla yanaşı, eyni zamanda yüksək texnologiyaların (know-how) tətbiqi də daxildir. İkinci nəsil universitetlərin rolu təbiəti kəşf etmək olduğu halda, üçüncü nəsil universitetlər dəyər yaradılmasını özlərinin əsas məqsədi kimi qəbul edirlər. Üçüncü nəsil universitetlərin metodunu müasir elm və sahələrarası (disiplinlər arası) yanaşma təşkil edir. İkinci nəsildən fərqli olaraq, üçüncü nəsil universitetlər alimlər, peşəkarlar yetişdirməklə yanaşı sahibkarlar da yetişdirməyi qarşısına məqsəd qoymuşlar. Əvvəlki nəsil universitetin istiqaməti milli olduğu halda, müasir nəsil universitetlər qlobal istiqamətlənmişlər. Dünya ali təhsil sistemində baş verən dəyişikliklər ölkəmizin ali təhsil siyasətinə öz



təsirini göstərmiş və bu sahədə bir çox irəliləyişlər baş vermişdir. Bu dəyişikliklərin bir qismi elə qlobal çağırışlara cavab vermək məqsədi ilə həyata keçirilməkdədir. Dövlətin bu sahədəki siyasəti ölkədə insan kapitalının inkişafı ilə yanaşı, qlobal rəqabət qabiliyyətliliyinin artırılmasına da yönəlmişdir. Strateji yol xəritəsində mövcud olan 3.1.4 nömrəli tədbirdə ali təhsil müəssisələrində "təhsil-tədqiqat-innovasiya" formatında inkişafın təşviqi nəzərdə tutulmuşdur, hansı ki, bu da öz növbəsində insan kapitalının formalaşmasına və inkişafına öz təsirini göstərəcəkdir.
Həmin bənddə "təhsil–tədqiqat–innovasiya" zəncirinin effektivliyinin artırıla bilməsi üçün universitetlərdə klasterlərin yaradılması qeyd olunur. Belə klasterlərin ilk öncə ixtisaslaşmış universitetlərdə yaradılmasının təşviq ediləcəyi və bunun nəticəsində əmək məhsuldarlığının artımı ilə yanaşı, daha keyfiyyətli insan kapitalının və intellektual potensialın formalaşması baş verəcəkdir. Bu klasterlər elmi nəticələrin istehsala tətbiqini stimullaşdırmaqla yanaşı, regionlarda insan kapitalının inkişafı üçün əhəmiyyətli olacaqdır.

**Bəs görəsən Qarabağda ali təhsil klasteri nece formalaşmalıdır?**

Təhsil klasteri nisbətən yeni bir fenomendir. Klaster klassik olaraq Porter (2008) tərəfindən müəyyən bir sahədə fəaliyyət göstərən və ümumi fəaliyyət və qarşılıqlı möhkəmlənmə ilə səciyyələnən, coğrafi cəhətdən qonşu olan bir-biri ilə əlaqəli şirkət və təşkilatlar qrupu kimi tərif edilmişdir. Təhsil klasteri dedikdə, müəyyən ərazidə mövcud olan və son məhsul kimi təhsil xidmətləri, sənaye üçün lazım olan rəqabət üstünülüyünü təmin edən faktorları, ixtisaslaşmış xidmətləri, kommunal xidmətləri, tədqiqat və inkişaf mərkəzləri və bir-birinin üstünlüklərini gücləndirən digər xidmətləri təklif edən təhsil müəssisələri başa düşülür. Əlbəttə təhsil klasterlərinin yaranması və uğurla fəaliyyət göstərməsi müxtəlif amillərin qarşılıqlı təsiri nəticəsində formalaşır (Mukhametzyanova & Pugacheva, 2010). Bu amilləri əsasən üç komponent altında qruplaşdırmaq olar. Bunlardan birincisi, biznes mühitidir, hansı ki özündə dövlətin müvafiq qurumlarını, hüquqi-normativ baza, bank və maliyyə xidmətlərindən tutmuş nəqliyyat yollarına qədər böyük bir sahəni



əhatə edir. İkinci komponentə isə əlaqədar və dəstəkləyici maraqlı tərəflər daxildir ki buraya da tədqiqat və inkişaf mərkəzləri, yüksək texnologiya kompaniyaları, elektron ticarət və konsaltinq, İKT, tibbi və dərman şirkətləri və digər dəstəkləyici sektorlarda və sənayedə fəaliyyət göstərən şirkətlər və təşkilatlar daxildir. Təhsil klasterlərinin əsas aktyorlarını, üçüncü komponenti isə universitetlər, peşə məktəbləri, biznes təhsil mərkəzləri, təlim mərkəzləri və bu kimi təhsil sektorunun digər əsas oyunçuları daxildir.

Ölkə prezidenti cənab İlham Əliyev çıxışlarında dəfələrlə Qarabağın "smart region"a çevriləcəyini və yenidənqurma işlərinin ağıllı şəhər-kənd konseptləri əsasında aparılacağını qeyd etmişdir. Bu artıq Qarabağda təhsil klasterinin əsas komponentlərindən biri olan əlaqədar və dəstəkləyici şirkətlərin, yəni yüksək texnologiyalardan yararlanan şirkətlərin marağını cəlb edəcək və bu regionda göstəriləcək xidmətlərdən dolayı ofislərini açacaqlarına əminlik yaradır. Bununla yanaşı, Qarabağ regionunun yenilənə bilən enerji mənbələri - əsasən külək və günəş enerjisi üzrə böyük potensialının olduğunu nəzərə alaraq, regiona bu sahədə fəaliyyət göstərən dünya şirkətlərinin də inevstiya qoymasına səbəb olacaqdır. Təsadüfi deyil, BP şirkəti Qarabağda 240 Mvt gücündə günəş elektrik enerji stansiyasının tikilməsi ilə bağlı Azərbaycan dövləti ilə danışıqlara başlamışdır. Dünyanın digər nəhənglərinin də Qarabağın yenilənəcək enerji sektoruna investisiya qoyacağı gözlənilir. Bu da təhsil klastererininin effektiv fəaliyyəti üçün lazım olan investiya və potensial müştəri bazasını formalaşdıracaqdır.

Uğurlu və effektiv təhsil klasterinin yaradılmasının digər önəmli komponenti isə adekvat biznes mühitinin olmasıdır. Azərbaycan dövləti bu regionda fəaliyyət göstərən təşkilatların fəaliyyəti üçün müvafiq hüquqi normativ baza və infrastruktur yaratmalıdır. Həmçinin, regionun keçmiş münaqişə bölgəsi olmasını nəzərə alaraq, burada yüksək texnologiyaya əsaslanan və yenilənəbilən enerji sektorunda fəaliyyət göstərəcək şirkətlərə güzəştlər təklif etməlidir. Bütün bunlarla yanaşı, burda fəaliyyət göstərən yüksək texnologiya şirkətlərinin tədqiqat və araşdırmalarını yerli universitet, dövlət və özəl tədqiqat mərkəzlərinə sifariş verməsi üçün həvəsləndirici tədbirlər də həyata keçirilməlidir. Bu əsasən regionda sənaye və universitet əməkdaşlığının genişləndirilməsinə yönəldilməlidir.

Təhsil klasterinin əsas komponenti olan ali təhsil müəssisələri isə regionun inkişaf perspektivlərini və regionda sənayenin xarakteristikasını nəzərə alaraq, bu sahədə yüksək peşəkarların yetişdirilməsinə və sənaye-universitet əlaqələrinin genişlədirilməsinə imkan verən maddi-texnoloji və tədqiqat bazasına malik olmalıdırlar.

Regiondaki təhsil klasterinin əsas komponenti olan universitet və tədqiqat mərkəzləri məhz yüksək texnologiyalar sahəsində və yenilənən enerji mühəndisliyi və iqtisadiyyatı sahələrində həm kadrların hazırlanmasına, həm də bu sahədə tədqiqatların aparılması üçün maddi təchizata və insan kapitalına sahib olmalıdırlar. Bu sahədə kadrların hazırlanması təkcə universitetlərlə kifayətlənməməli, orta təhsil və peşə məktəblərində də ixtisaslaşmalar aparılmalıdır. Bu isə Azərbaycan dövləti tərəfindən regionun təhsil sektoruna nəzərə çarpan qədər investiyanın cəlb edilməsini tələb edəcəkdir. Lakin, dünya təcrübəsi göstərir ki, bu sahədə yatırılan investisiyaların səmərəli və effektiv şəkildə həyata keçirilməsi təkcə regionun sosial-iqtisadi və insan kapitalının inkişafına deyil, eyni zamanda ölkəmizin dünyada rəqabət qabiliyyətliliyinin artırılmasına müsbət təsir göstərəcəkdir. Qarabağda ali təhsil klasterinin yaradılması üçün yuxarıda qeyd olunan üç komponent üzrə dövlət proqramları yaradılmalı və hər bir müvafiq dövlət qurumu üçün bu proqramın icrasından meydana gələn fəaliyyət planı təsdiq edilməlidir. Dövlət proqramının fəaliyyət planının icrasına nəzarət üçün isə "SMART" qiymətləndirmə və monitorinq sistemi qəbul edilməlidir. Yalnız bu halda biz, cəmiyyətdə və ölkəmizdə müsbət dəyişikliklərə səbəb olacaq təhsil klasterinin – Qarabağ Universitetinin yaradılmasına nail ola biləcəyik.

**KÖÇ PROSESININ ÖZÜNÜN ÖLKƏNIN ADINA YARAŞAN ŞƏKILDƏ, TƏHÜLKƏSIZ VƏ INSAN LƏYAQƏTINI QORUYARAQ HƏYATA KEÇIRILMƏSI OLDUQCA ƏHƏMIYYƏTLIDIR.**

